# 1969

## GÖRKƏMLI AZƏRBAYCAN ARTISTI HÜSEYN ƏRƏBLINSKININ XATIRƏSINI ƏBƏDILƏŞDIRMƏK HAQQINDA

(ÇIXARIŞ)

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti görkəmli Azərbaycan artisti Hüseyn Ərəblinskinin xatirəsini əbədiləşdirmək məqsədi ilə qərara alırlar:

1. Sumqayıt Dövlət Gənclər Dram Teatrına Hüseyn Ərəblinskinin adı verilsin.

Azərbaycan KP MK katibi

Azərbaycan SSR Nazirlər Sovetinin sədri

H. Əliyev

Ə. Əlixanov

Bakı şəhəri, 30 sentyabr 1969-cu il,
№ 446.

**Kommunist, 16 may, 1969**

## AZƏRBAYCAN KP MK-DA, AZƏRBAYCAN SSR NAZIRLƏR SOVETINDƏ VƏ AHİŞ-DƏ ƏN YAXŞI MƏDƏNI-MAARIF MÜƏSSISƏLƏRINƏ QIRMIZI BAYRAQLAR

Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və AHİŞ-in qəbul etdikləri qərarda göstərilir ki, respublikanın mədəni-maarif müəssisələri Sov.İKP XXIII qurultayyının, Azərbaycan KP XXII qurultayının qərarlarını yerinə yetirərək, «Vladimir İliç Leninin anadan olmasının 100 illiyinə hazırlıq haqqında» Sov.İKP MK-nın qərarını rəhbər tutaraq, zəhmətkeşlərə mədəni xidməti yaxşılaşdırmaq sahəsində 1968-ci ildə xeyli iş görmüşlər.

Mədəni-maarif işinni bütün rəngarəng formaları və metodları V.İ.Leninin anadan olmasının 100 illiyi, Azərbaycan Kommunist Partiyası yaradılmasının və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinin 50 illiyi bayramına ləyaqətlə hazırlaşmağa, Sov.İKP-nin və Sovet hökumətinin siyasətinin izah olunmasına, zəhmətkeşlərin mədəni səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir.

Keçən il mədəni-maarif müəssisələrinin şəbəkəsini genişləndirmək və maddi-texniki bazasını möhkəmləndirmək onları ixtisaslı kadrlar hesabına komplektləşdirmək üçün bir sıra tədbirlər görülmüşdür.

Zaqatala rayonunun mədəni-maarif müəssisələri ictimai baxışda xüsusilə fərqlənmişlər. 1968-ci ildə 20 klub 2.712 müxtəlif mədəni-kütləvi tədbir - mühazirələr, məruzələr, tamaşalar, konsertlər təşkil etmişdir və i.a. Rayonda xalq teatrı, mədəniyyət universiteti, tarix-ölkəşünaslıq muzeyi, mədəniyyət və istirahət parkı müvəffəqiyyətlə işləyyir. Mədənniyyət evlərində və klublarda 66 bədii özfəaliyyət dərnəyi təşkil olunmuşdur. Avtoklub və mədəniyyət çadırı tarlalarda və fermalarda zəhmətkeşlərə yaxşı xidmət etmişdir. Rayon əhalisinin təqribən 30 faizi kitabxanaların oxucusudur. Ötən il rayonun bütün mədəni-maarif müəssisələrinin radiolaşdırılması başa

çatdırılmış, klubların və kitabxanaların binaları təmir edilmiş, onların avadanlıq və musiqi alətləri ilə təchizi xeyli yaxşılaşmışdır.

1968-ci ildə Quba rayonunun 42 klubu 2,928 müxtəlif tədbir həyata keçirmiş, o cümlədən 636 konsert və tamaşa təşkil etmişdir. Mədəniyyət evlərində və klublarda 75 bədii özfəaliyyət dərnəyi işləyir. Əhalinin 30 faizdən çoxu kitabxanaların oxucusudur, mədəniyyət universiteti yaxşı işləmişdir.

Naxçıvan rayonunun mədəni-maarif müəssisələri il ərzində 1.609 müxtəlif kütləvi tədbir həyata keçirmişlər. Rayonun kitabxanaları kitab təbliği işini gücləndirmişlər, kitab fondunun dövriyyəsi artmışdır. Mədəni-maarif müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirmək üçün tədbirlər görülmüşdür.

Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin və AHİŞ-in keçici Qırmızı bayrağını və 2,000 manat məbləğində birinci pul mükafatını 1968-ci ildə mədəni-maarif müəssisələrinin işində ən yaxşı göstəricilərə nail olmuş Zaqatala rayonuna (rayon partiya komitəsinin katibi N.L.Əhmədov, rayon icraiyyə komitəsinin sədri, C.N.Yaliyev, mədəniyyət şöbəsinin müdiri T.T.Talıbov) vermək qərara alınmışdır.

1.500 manat məbləğində ikinci pul mükafatı Quba rayonuna (rayon partiya komitəsinin katibi Ş.K.Kərimov, rayon icraiyyə komitəsinin sədri Ə.H.Səlimov, mədəniyyət şöbəsinin müdiri K.B.Yasinov) verilmişdir.

1.000 manat məbləğində üçüncü pul mükafatı Naxçıvan rayonuna (şəhər partiya komitəsinin katibi Ə.S.Ələkbərov rayon icraiyyə komitəsinin sədri Ə.S.Əsgərov, mədəniyyət şöbəsinin müdiri A.D.Hacızadə) verilmişdir.

1968-ci ildə mədəniyyət evlərinin, klubların, kitabxanaların, muzeylərin, mədəniyyət və istirahət parklarının işini xeyli fəallaşdıran və burada, V.İ.Leninin anadan olmasının 100 illiyi və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinin 50 illiyi bayramına hazırlıq sahəsində böyük iş aparan Ağdam, Bərdə, Balakən, Göyçay, Vartaşen, İsmayıllı, Qusar, Qutqaşen, Lənkəran, Şamaxı, Şəki, Tovuz, Qazax rayonları, Naxçıvan MSSR-in və

DQMV-nin rayonları, Bakı, Sumqayıt və Kirovabad şəhərləri partiya, sovet, komsomol və həmkarlar ittifaqı təşkilatlarının, mədənniyyət ocaqlarının və müəssisələrinin yaxşı işi qeyd edilmişdir.

Eyni zamanda qərarda deyilir ki, Yevlaxın, Astaranın, Dəvəçinin, Qubadlının, Lerikin Puşkinin, Şamxorun, Saatlının və Yardımlının şəhər və rayon partiya komitələri rayon icraiyyə komitələri, rayon komsomol komitələri, mədəniyyət orqanları və həmkarlar ittifaqı təşkilatları mədəni-maarif müəssisələrinin fəaliyyətini yaxşılaşdırmaq məsələləri ilə zəif məşğul olmuş, əhaliyə, xüsusən kənd əhalisinə mədəni xidmət işini kifayət qədər genişləndirməmişlər.

Qərarda vilayət, şəhər, rayon partiya komitələrinə, Azərbaycan LKGİ MK-ya, respublika Mədəniyyət Nazirliyinə, Naxçıvan MSSR Nazirlər Sovetinə DQMV-nin, şəhərlərin və rayonların zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitələrinə, mədəniyyət orqanlarına və həmkarlar ittifaqlarına bir vəzifə olaraq tapşırılmışdır ki, mədəni-maarif Müəssisələrinə rəhbərliyin səviyyəsinn yüksəltsinlər, onların işini xeyli yaxşılaşdırmaq, kadrların tərkibini və maddi-teniki bazanı möhkəmləndirmək üçün səmərəli tədbirlər görsünlər, V.İ.Leninin anadan olmasının 100 illiyinə, Azərbaycan Kommunist Partiyası yaradılmasının və Azərbaycanda Sovet hakimiyyatinin qələbəsinin 50 illiyinə hazırlıqda və bu yubileylərin keçirilməsində bütün mədəni maarif müəssisələrinin fəal iştirakını təmin etsinlər.

## AZƏRBAYCAN KP MK-DA VƏ AZƏRBAYCAN SSR NAZIRLƏR SOVETINDƏ AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARI HAQQINDA

Respublikada elm və texnikanın, ədəbiyyat, incəsənətin və arxitekturanın daha da inkişaf etdirilməsinə həvəs oyatmaq məqsədilə, dövlət tərəfindən bəyənilməyə layiq olan elmi işləri və yaradıcılıq işlərini layiqincə və geniş surətdə mükafatlandırmaq

lüzumunu nəzərə alaraq, Azərbay-can KP MK və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR dövlət - mükafatlarının təsis olunması haqqında qərar qəbul etmişlər.

Azərbaycan SSR dövlət mükafatları təsis edilmişdir: elm və texnika sahəsində—dörd mükafat (elm üzrə iki mükafat, texnika üzrə iki mükafat), ədəbiyyat, incəsənət və arxitektura sahəsində—üç mükafat, o cümlədən uşaqlardan ötrü yazılmış ədəbiyyat və incəsənət əsərləri üçün bir mükafat.

Azərbaycan SSR Nazirlər Sovetinin dövlət mükafatları komitələri aşağıdakı tərkibdə təsdiq edilmişdir:

Elm və texnika sahəsində Dövlət Mükafatları Komitəsi: M. F. Naqıyev (sədr). Ş, Ə. Əzizbəyov, Ə. M. Əlibəyova, H.Ə.Əliyev, M.İ.Əliyev, C.E.Allahverdiyev, Y.Ə.Əmənzadə, V.R.Volobuyev, Z. İ. Hüseynova, M.A.Dalin, V.P.Qəhrəmanov. M. Ə. Qaşqay, F. Q.Köçərli, Ə.M.Quliyev. S.M.Quliyev, K.N.Quluzadə, Ə.Ə.Mahmudov, S.C.Mehdiyev, A.X.Mirzəcanzadə. M.Ə.Musayev, İ.M.Orucova, İ.V.Striqunov, Ə.C.Sultanov. H.F.Sultanov, Ə.S.Sumbatzadə, M.Ş.Şirəliyev, Z.İ.Xəlilov, A.Ə.Əfəndizadə;

Ədəbiyyat, incəsənət və arxitektura sahəsində Dövlət Mükafatları Komitəsi: M.Ə.İbrahimov (sədr), M. H. Abdullayev, Q. H. Almazzadə, F. C. Əmirov, R. Q. Əskərov, C. İ. Hacıyev. S. A. Qriqoryan. M. A. Dadaşzadə, M. M. İbrahimbəyov, Q. Ə. Qarayev, E. T. Quliyev, T. S. Kazımov, M. Ə. Məmmədov, T. h. Məmmədov, H. Ə. Məcidov, M. N. Nəcəfov, Niyazi Tağızadə, P. V.Sabsay, Ə.R.Salamzadə, T.T.Salahov, H.M.Seyidbəyli, Süleyman Rüstəm, M. Ə. Hüseynov, P. B, Yudin.

Azərbaycan SSR dövlət . mükafatlarının hər biri 2.500 manat miqdarında müəyyən edilmişdir.

Mükafatlar Azərbaycan SSR dövlət mükafatları komitələrinin təqdimatı ilə iki ildə bir dəfə, Azərbaycanda Sovet haknmiyyəti qələbəsinin ildönümü günü verilir. Azərbaycan SSR dövlət mükafatlarına layiq görülən şəxslərə diplom və döş nişanı təqdim edilməklə «Azərbaycan SSR Dövlət mükafatı laureatı» adı verilir.

Mükafatların verilməsi haqqında Azərbaycan SSR dövlət mükafatları komitələrinin qərarları Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təsdiq edilərək, respublika mətbuatında dərc olunur.

Azərbaycan SSR Nazirlər Sovetinin dövlət mükafatları komitələrinə tapşırılmışdır ki, Azərbaycan SSR dövlət mükafatları haqqında əsasnaməni, Azərbaycan SSR Dövlət mükafatı laureatının döş nişanı və diplomunun eskizlərini bir ay müddətində hazırlayıb respublika Nazirlər Sovetinin təsdiqinə versinlər.

Azərbaycan SSR Nazirlər Sovetinin 1964-cü il 5 dekabr və 1966-cı il 22 Yanvar tarixli qərarları qüvvəsini itirir.

## ƏDƏBIYYAT, INCƏSƏNƏT VƏ ARXITEKTURA SAHƏSINDƏ 1969-CU IL SSRİ DÖVLƏT MÜKAFARLARININ VERILMƏSI HAQQINDA

SSRİ Nazirlər Soveti yanında ədəbiyyat, incəsənət və arxitektura sahəsində SSRİ-nin Lenin və Dövlət Mükafatları Komitəsinin təqdimatını müzakirə edərək, Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti 1969-cu ildə SSRİ Dövlət mükafatlarını aşağıdakılara verməyi qərara almışlar:

### ƏDƏBİYYAT SAHƏSİNDƏ

**1.**Yazıçı **Andrey Samoyloviç Malışkoya** – şerlər kitabından eyni adlı “Çinar altındakı yol” şerlər silsiləsi üçün.

### MUSİQİ VƏ KONSERT-İFAÇILIQ FƏALİYYƏTİ SAHƏSİNDƏ

2.RSFSR xalq artisti Aleksandr Filipoviç Vedernikova – 1966 – 1967-ci və 1967-1968-ci illərdəki konsert proqramları üçün.

3.RSFSR əməkdar xadimi, bəstəkar Boris Aleksandroviç Çaykovskiyə - ikinci simfoniya üçün.

## TƏSVİRİ SƏNƏT SAHƏSİNDƏ

4.Heykəltaraşlar Yuri Nikolayeviç Loxovinina, Leonid Lukiç Mixayloviç Poltoratskiyə - Kaxovka yaxılığında qoyulmuş “Əfsanəvi taçanka” abidəsi üçün.

## KİNEMATOQRAFİYA TEATR SƏNƏTİ SAHƏSİNDƏ

5. Rejissorlar Vladimir Nikolayeviç Baykova, RSFSR əməkdar incəsənət xadimi Boris Rudolfoviç Nebılitskiyə, operatorlar Aleksandr Sergeyeviç İstominə, RSFSR əməkdar incəsənət xadimi Mixail Fyodoroviç Oşurkova, Bulf Samuoviç Sitrona, Yevgeni Samuloviç Sitrona, Yevgeni Pavloviç Yatsuna – mərkəzi sənədli filmlər studiyasında istehsal olunmuş “Sovet İttifaqına xidmət edirəm” və “Xalqın sədaqətli oğulları” sənədli filmləri üçün.

6. RSFSR xalq artisti Oleq Nikolyeviç Yefromova – son illərdə Moskvanın “Sovremennik” teatrında aktyor və rejissor işi üçün.

7. SSRİ xalq artisti Mixail İvanoviç Saryova Dövlət Akademik Malı Teatrında “Nikbin faciə” tamaşasında başçı rolunun və “Qoca” tamaçasında Qoca rolunun ifası üçün.

## ARXİTEKTURA SAHƏSİNDƏ

**8.** RSFSR əməkdar inşaatçısı, arxitektor, iş rəhbəri Aleksandr Vasilyeviç Korotkova, arxitektorlar Vasili Nikolayeviç İvanova, İosif Bronislaviç Orlova, Nikolay İvanoviç Simonova, mühəndis-konstruktor Gennadi Petroviç Smorodinə - Nəvai şəhərinin arxitekturası üçün

# 1970

## AZƏRBAYCAN KP MK-nın VƏ AZƏRBAYCAN SSR NAZIRLƏR SOVETININ QƏRARI

Ədəbiyyat, Incəsənət və Arxitektura Sahəsində Dövlət Mükafatları Komitəsinin məsələsi

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti qərara alırlar:

Ədəbiyyat, incəsənət və arxitektura sahəsində 1970-ci il üçün mükafatların miqdarının istisna olaraq dördədək artırılması haqqında Ədəbiyyat, Incəsənət və Arxitektura sahəsində Azərbaycan SSR Dövlət Mükafatları Komitəsinin xahişi yerinə yetirilsin.

Azərbaycan KP MK katibi

Azərbaycan SSR Nazirlər Sovetinin sədri
Ə. Ibrahimov

Bakı şəhəri, 28 sentyabr 1970-ci il,
№ 393

## DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRININ YARADICI İŞÇİLƏRİNƏ AZƏRBAYCAN SSR FƏXRİ ADLARI VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan xoreqrafiya sənəti sahəsində böyük xidmət sənəti sahəsində böyük xidmətlərinə görə və Parisdə beynəlxalq rəqs festivalında müvəffəqiyyətli iştirakı ilə əlaqədar olaraq

**M.F.Axundov adına Akademik Opera və Balet Teatrinin yaradıcı işçilərinə Azərbaycan SSR Fəxri adlar verilsin.**

AZƏRBAYCAN SSR XALQ ARTİSTİ

1. Axundova Rəfiqə Hacı qızı - balet solisti
2. MəmmədovMaqsud Davud oğlu - balet solisti

AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ

1. Abdullayev Rauf Canbaxış oğlu - baş dirijor

AZƏRBAYCAN SSR ƏMƏKDAR ARTİSTİ

1. Babayeva Məmməd qızı - balet solisti

2. Pletnov Vladimir Nikolayeviç - balet solisti

3.Şirəliyeva Tamilla Xudadat qızı - balet solisti

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi Z.Şükürova**

Bakı şəhəri, 21 may 1970-ci il

***

## PARİSDƏ BEYNƏLXALQ RƏQS FESTİVALININ ƏN ÇOX FƏRQLƏNMİŞ İŞTİRAKÇILARININ AZƏRBAYCAN

## SSR ALİ SOVETİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Parisdə beynəlxalq rəqs festivalında müvəfəqiyyətli iştirakına görə aşağıdakılar Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə təltif edilsinlər.

1. Əliverdibəyov Kazım Ağalar oğlu – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının drijoru.
2. Əlikişizadə Yulana Yusif qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.
3. Almazzadə Qəmər Hacağa qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş baletmeysteri.
4. Bədirova Maya Fyodorovna - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.
5. Vikulov Sergey Mixayloviç – S.M.Kirov adına Leninqrad Akademik teatrının solisti.
6. Vladimirov Yuri Kuzmiç – SSRİ Dövlət Akademik Böyük teatrının solisti.
7. Genin Yakov Markoviç - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının quruluş hissəsinin müdiri.
8. Qurbanov Qorxmaz Ağababa oğlu M.Maqomayev adına Azərbaycan Dövlət filarmoniyasının solisti.
9. Hüseynağa Abuzər oğlu - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş səhnə maşinisti.
10. Dadaşov Kamil Hənifə oğlu – M.Maqomayev adına Azərbaycan Dövlət filarmoniyasının solisti.

11. Yeqorova Larisa Vsevolodovna - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.
12. Zeynalov Rüfət Oqtay oğlu - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.
13. İsmayılova Raisa Hüseyn qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.
14. Makarova Natalya Romanovna – S.M.Kirov adına Leninqrad Akademik Teatrının solisti.
15. Məmmədov Tofiq - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.
16. Məmmədova Tamilla Nəzər qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.
17. Nəzirova Nella Nəzər qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baletmeysteri.
18. Səidova Sara Dadaş qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru.
19. Sorokina Nina İvanovna – SSRİ Dövlət Akademik Böyük Teatrının solisti.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**Z.Şükürova**

Bakı şəhəri, 21 may 1970-ci il.

## AZƏRBAYCAN KP MK-DA VƏ AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİNDƏ

# AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARİ HAQQINDA

Respublikada elm və texnikanın, ədəbiyyat, incəsənət və arxitekturanın daha da inkişaf etdirilməsinə həvəs oyatmaq məqsədilə, dövlət tərəfindən bəyənilməyə layiq olan elmi işləri və yaradıcılıq işlərini layiqincə və geniş surətdə mükafatlandırmaq lüzumunu nəzərə alaraq, Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR dövlət - mükafatlarının təsis olunması haqqında qərar qəbul etmişlər.

Azərbaycan SSR dövlət mükafatları təsis edilmişdir: elm və texnika sahəsində - dörd mükafat (elm üzrə iki mükafat, texnika üzrə iki mükafat), ədəbiyyat, incəsənət və arxitektura sahəsində - üç mükafat, o cümlədən uşaqlardan ötrü yazılmış ədəbiyyat və incəsənət əsərləri üçün bir mükafat.

Azərbaycan SSR Nazirlər Sovetinin dövlət mükafatları komitələri aşağıdakı tərkibdə təsdiq edilmişdir:

Elm və texnika sahəsində Dövlət Mükafatları Komitəsi: M.F.Nağıyev (sədr), Ş.Ə.Əzizbəyov, Ə.M.Əlibəyova, H.Ə.Əliyev, M.İ.Əliyev, C.E.Allahverdiyev, Y.Ə.Əmənzadə, V.R.Volobuyev, Z.İ.Hüseynova, M.A.Dalin, V.P.Qəhrəmanov. M.Ə.Qaşqay, F.Q.Köçərli, Ə.M.Quliyev, S.M.Quliyev, K.N.Quluzadə, Ə.Ə.Mahmudov, S.C.Mehdiyev, A.X.Mirzəcanzadə, M.Ə.Musayev, İ.M.Orucova, İ.V.Striqunov, Ə.C.Sultanov, H.F.Sultanov, Ə.S.Sumbatzadə, M.Ş.Şirəliyev, Z.İ.Xəlilov, A.Ə.Əfəndizadə;

Ədəbiyyat, incəsənət və arxitektura sahəsində Dövlət Mükafatları Komitəsi: M.Ə.İbrahimov (sədr), M.H.Abdullayev, Q.H.Almazzadə, F.C.Əmirov, R.Q.Əsgərov, C.İ.Hacıyev, S.A.Qriqoryan, M.A.Dadaşzadə, M.M.İbrahimbəyov, Q.Ə.Qarayev, E.T.Quliyev, T.S.Kazımov, M.Ə.Məmmədov, T.H.Məmmədov, H.Ə.Məcidov, M.N.Nəcəfov, Niyazi Tağızadə, P.V.Sabsay, Ə.R.Salamzadə, T.T.Salahov, H.M.Seyidbəyli, Süleyman Rüstəm, M.Ə.Hüseynov, P.B.Yudin.

Azərbaycan SSR dövlət mükafatlarının hər biri 2.500 manat miqdarında müəyyən edilmişdir.

Mükafatlar Azərbaycan SSR dövlət mükafatları komitələrinin təqdimatı ilə iki ildə bir dəfə, Azərbaycanda Sovet hakimiyyəti qələbəsinin ildönümü günü verilir. Azərbaycan SSR dövlət mükafatlarına layiq görülən şəxslərə diplom və döş nişanı təqdim edilməklə «Azərbaycan SSR Dövlət mükafatı laureatı» adı verilir.

Azərbaycan SSR dövlət mükafatları komitələrinin qərarları Azərbaycan KP MK və Azərbacan SSR Nazirlər Soveti tərəfindən təsdiq edilərək, respublika mətbuatında dərc olunur.

Azərbaycan SSR Nazirlər Sovetinin dövlət mükafatları komitələrinə tapşırılmışdır ki, Azərbaycan SSR dövlət mükafatları haqqında əsasnaməni, Azərbaycan SSR Dövlət mükafatı laureatının döş nişanı və diplomunun eskizlərini bir ay müddətində hazırlayıb respublika Nazirlər Sovetinin təsdiqinə versinlər.

Azərbaycan SSR Nazirlər Sovetinin 1964-cü il 5 dekabr və 1966-cı il 22 yanvar tarixli qərarları qüvvəsini itirir.

## AZƏRBAYCAN KP MK-DA MƏTBUATIN TƏNQIDI ÇIXIŞLARININ TƏSIRINI ARTIRMALI

Azərbaycan KP MK «Kommunist», «Bakinski raboçi», «Kommunist» (erməni dilində) qəzetlərinin tənqidi çıxışlarının təsiri haqqında məsələ müzakirə etmişdir. Qəbul olunmuş qərarda deyilir ki, Sov.İKP MK-nın dekabr plenumundan, Azərbaycan KP MK-nın avqust və dekabr (1969-çu il) plenumlarından sonra «Kommunist», «Bakinski raboçi», «Kommunist» (erməni dilində) respublika qəzetləri təsərrüfatın idarə olunmasının təkmilləşdirilməsi, partiya və dövlət intizamının möhkəmləndirilməsi, bütün sahələrdə kadrların tapşırılan iş üçün məsuliyyətinin yüksəldilməsi məsələlərinə daha çox fikir verməyə başlamışlar. Ayrı-ayrı təşkilatların və idarələrin, onların

rəhbərlərinin işindəki nöqsanları aşkara çıxaran prinsipial materiallar mətbuatda tez-tez verilir.

Qəzetlərin oxuçularının fəallığı artmışdır. Oxucular öz məktublarında iqtisadiyatın və mədəniyyətin daha da inkişaf etdirilməsinə aid mühüm problemlər qaldırır, işdəki ciddi səhvlər və nöqsanlar haqqında, ayrı-ayrı vəzifəli şəxslərin nalayiq davranışı haqqında siqnallar verirlər. Qəzetlərdə. «Oxucular xəbər verirlər», «Ciddi siqnal», «Redaksiyanın poçtundan», «Sizin məktublar», «Məktubun izi ilə» və s. başlıqlar altında müntəzəm materiallar verilir.

Qəzetlərin tənqidi çıxışları indi daha təsirli olmuşdur. Partiya təşkilatları, nazirliklər, idarələr və yerli orqanlar həmin çıxışlar üzrə əsasən vaxtında tədbirlər görür və bu barədə redaksiyalara məlumat verirlər.

Quba rayonundakı tədarük məntəqələri, Sov.İKP XXP qurultayı adına neftayırma zavodunun qışa hazırlaşması, Orconikidzeneft Mədənlər İdarəsinin geri qalması, respublika Quşçuluq Sənayesi İdarəsində təsərrüfatsızlıq və sair haqqında «Kommunist» qəzetinin materialları müvafiq partiya, təsərrüfat orqanlarında müzakirə olunmuş və aşkara çıxarılan nöqsanların aradan qaldırılması üçün tədbirlər  görülmüşdür.

Respublika Yenilikçilərinin təkliflərinin istehsalatda  2-tətbiqi, Bakının maşıiqayırma zavodlarında neft avadanlığı üçün ehtiyat hissələr buraxılması problemi, Kür-Araz Su Qurğuları Tikintisi Baş İdarəsi istehsal bazasının tikintisində, daş karxanalarında yükvurma-yükboşaltma işlərinin təşkilində olan nöqsanlar, Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin keçmiş sədrinin öz vəzifəsiidən tamahkarlıq məqsədilə sui-istifadə etməsi və başqa məsələlər barəsində «Bakinski raboçi» qəzetinin çıxışları partiya komitələri, oxuçular tərəfindən prinsipial qiymətləndirilmişdir.

«Kommunist» (erməni dilində) qəzeti neftçıxarma sənayesi müəssisələrində əməyin təşkilində, bəzi rayonlarda kənd təsərrüfatı istehsalatında, DQMV-də heyvandarlığın inkişafı üçün mövcud ehtiyat mənbələrindən istifadə olunmasında və başqa

sahələrdə ciddi nöqsanları aşkara çıxaran bir sıra tənqidi materiallar dərc etmişdir. Qəzetin materialları üzrə işi yaxşılaşdırmaq üçün tədbirlər görülür.

Lakin mətbuatdakı tənqidin (üstündən sükutla keçmək, ona qeyri-partia münasibəti bəsləmək halları da olur. Bəzi partiya komitələri, bəzi nazirliklərin, idarələrin, müəssisələrin və təşkilatların rəhbərləri Azərbaycan KP MK-nın avqust və dekabr plenumlarının qərarlarından lazımi nəticələr çıxarmamışlar, mətbuatın tənqidi çıxışlarına yenə də formal münasibət bəsləyir, başdansovdu cavablar verməklə kifayətlənir, aşkara çıxarılmış nöqsanların aradan qaldırılması, müqəssirlərin cəzalandırılması üçün lazımi tədbirlər görmürlər.

1969-cu ilin oktyabr ayında «Kommunist» qəzeti «Zərdabdan məktubları» başlığı altında verdiyi materialda Zərdab rayonunda kadrların seçilməsində, yerləşdirilməsində və tərbiyələndirnlməsində, ideoloji işin təşkilində ciddi nöqsanlar aşkara çıxarmışdı. Rayon partiya komitəsinin birinçi katibi F.Əfəndiyev yoldaş qəzetin tənqidi materialını təhlil etmək və lazımi nəticələr çıxarmaq əvəzinə Azərbaycan KP MK-ya müraçiət edib nöqsanları danmış və materialın müəlliflərini cəzalandırmağı xahiş etmişdir. Halbuki qəzetin
göstərdiyi faktlar yoxlama zamanı əsasən təsdiq olunmuşdur.

Sumqayıt Şəhər Partiya Komitəsi, Şaumyan, Nərimanov, Qaradağ (Bakı şəhəri), Göyçay, Lənkəran, Füzuli, Hadrut, Kəlbəçər və bəzi başqa rayon partiya komitələri qəzetlərin tənqidi çıxışından sonra adətən susurlar.

1969-cu ilin avqust və oktyabr aylarında «Bakinski raboçi» qəzeti Bakı süd kombinatında və onun filiallarında məhsulun oğurlandığını xəbər vermişdi. Respublikanın ət və süd sənayesi naziri S.Zülfüqarov yoldaş redaksiyaya göndərdiyi cavablar ictimaiyyəti çaşdırmış və kombinatda qayda yaratmaq, cinayətkarları məsuliyyətə cəlb etmək üçün heç bir tədbir görməmişdir.

Respublika Neftçıxarma Sənayesi Nazirliyinin rəhbərləri istehsalın ehtiyat mənbələrindəi daha yaxşı istifadə olunması

məsələlərini qaldıran mətbuat çıxışlarının üstündən çox vaxt sükutla keçirlər.

Keçən ilin sentyabr ayında «Kommunist» qəzeti İstisu kurortunda müalicə olunanlara son dərəcə yarıtmaz xidmət göstərildiyini kəskin tənqid etmişdi. Lakin məqalədə adları çəkilən nazirliklər, idarələr və təşkilatlar, habelə Kəlbəçər Rayon Partiya Komitəsi kurortda qayda yaratmaq üçün əsaslı tədbirlər görməmiş, AHİŞ-in, Səhiyyə Nazirliyiin və Mədəniyyət Nazirliyinin rəhbərləri isə qəzetin tənqidinə heç cavab da verməmişlər. Bakı Şəhər İçraiyyə Komitəsinin və onun idarələrinin rəhbərləri də mətbuatın bir çox tənqidi çıxışına əhəmiyyət vermirlər.

Bununla birlikdə Azərbaycan KP MK qeyd etmişdir ki, «Kommunist», «Bakinski raboçi» və «Kommunist» (erməni dilində) qəzetlərinin tənqidi çıxışlarında mövzu məhdudluğu və birtərəflilik müşahidə edilir. Bu materiallaqarda çox mühüm sənaye sahələrinii, kənd təsərrüfatıiın, tikintinin geri qalmasının səbəbləri, mədəniyyət, xalq maarifi, gənclərin tərbiyəsi sahəsində, ayrı-ayrı partiya və sovet orqailarının iş üslubunda və metodlarında olan ciddi nöqsanlar kifayət qədər açılıb göstərilmir.

Qəzetlərin redaksiyaları öz çıxışlarının təsirini artırmaq üçün lazımınça səy göstərmişlər. Bəzi materialların kifayət qədər dürüst və səhih olmaması, onlarda əsassız çıxışlara, çox vaxt haqlı şikayətlər doğuran təhqiramiz hüçumlara yol verilməsi bu yazıların təsir gücünü zəiflədir. Bununla yanaşı, qəzetlər mətbuatın tənqidinə əhəmiyyət verməyənlər və ya bu tənqidi ört-basdır etməyə çalışanlar haqqında az yazırlar.

«Kommunist» və «Bakinski raboçi» qəzetlərinin redaksiyalarında zəhmətkeşlərin məktublarına baxılması işində hələ də ciddi nöqsanlar vardır. 1969-cu ildə «Kommunist» qəzetində dərc olunmuş məktubların sayı əvvəlki ildəkinə nisbətən azalmışdır, halbuki alınan məktubların ümumi sayı, demək olar, dəyişməmişdir. «Bakinski raboçi» qəzeti redaksiyasının şöbələrində xeyli məktub və material uzun müddət yatıb qalır.

Azərbaycan KP MK «Kommunist», «Bakinski raboçi», «Kommunist» (erməni dilində) qəzetlərinin redaksiyalarına bir vəzifə olaraq tapşırmışdır ki, bu qərarda göstərilən nöqsanları aradan qaldırsınlar, özlərinin bütün çıxışlarının doğru və inandırıcı olmasını təmin etsinlər, dərc olunan materialların təsirini artırmaq üçün konkret tədbirlər görsünlər, tənqidi çıxışlar üzrə görülən tədbirlər haqqında oxuçulara vaxtında məlumat versinlər, bürokratları, tənqidi boğanları, mətbuatın, radio və televiziyanın çıxışlarına əhəmiyyət verməyən işçiləri ifşa etsinlər.

Azərbaycan KP vilayət, şəhər, rayon komitələrinə, nazirliklərin və idarələrin rəhbərlərinə təklif olunmuşdur ki, mətbuatda dərc olunan materialların təsirini gücləndirmək üçün tədbirlər görsünlər, xalq təsərrüfatını daha da yüksəltmək, elm və mədəniyyəti inkişaf etdirmək, zəhmətkeşlərin kommunist tərbiyəsi işini yaxşılaşdırmaq, partiyanın XXIII qurultayının və Sov.İKP MK-nın sonrakı plenumlarının, Azərbaycan KP MK avqust, dekabr (1969-çu il) və mart (1970-ci il) plenumlarının qərarlarını yerinə yetirmək məqsədilə mətbuatdan daha fəal istifadə etsinlər. Mətbuatın ən mühüm və prinsipial çıxışlarını partiya yığınçaqlarında, istehsalat müşavirələrində, fəhlələrin, kolxozçuların, ziyalıların yığıncaqlarında müzakirə etsinlər və lazımi , tədbirlər görülməsinə nail olsunlar.

Partiya komitələri, nazirliklərin, idarələrin, müəssisələrin və təşkilatların rəhbərləri mətbuatın, radio və televiziyanın tənqidi çıxışlarını müzakirə etməklə və bu çıxışlar üzrə konkret tədbirlər görməklə yanaşı, istehsalatın ehtiyat mənbələrini aşkara çıxaran, müsbət iş təcrübəsini, əməyin təşkilinin qabaqcıl üsül və metodlarını, yeni texnikanın tətbiqini və səmərəli işlədilməsini, əmək məhsuldarlığını yüksəltmək, məhsulun maya dəyərini aşağı salmaq və keyfiyyətini yaxşılaşdırmaq yollarını təbliğ edən materiallara ciddi yanaşmalıdırlar.

Partiya təşkilatları və mətbuat orqanları sovet cəmiyyətinə, sosialist cəmiyyətinə yabancı olan hallara, müftəxorluq, bürokratizm, ətalət, rüşvətxorluq, sosialist mülkiyyətinin oğurlanması, təsərrüfatsızlıq və məsuliyyətsizlik kimi hallara qarşı

daim qəti mübarizə aparmalıdırlar. Onlar qəzet və jurnalların çıxışlarının təsirli olması uğrunda mübarizəyə fəal müəllifləri, fəhlə və kəndli müxbirləri daha geniş cəlb etməli, fəhlə və kəndli müxbir postlarının, içtimai qəbul otaqlarının şəbəkəsini genişləndirilməsi içtimaiyyət nümayəndələrinin iştirakı ilə daha tez-tez kütləvi qeydlər keçirməlidirlər. Vilayət, şəhər, rayon partiya komitələri, nazirliklər və idarələr mətbuatın tənqidi çıxışlarını operativ surətdə təhlil etməli və bunun nəticələri haqqında redaksiyalara vaxtında məlumat verməli, süründürməçilikdə və başdansovdu cavablar verməkdə müqəssir olan, mətbuatın siqnallarına, etinasız yanaşan şəxsləri, tənqidi boğanları isə ciddi partiya məsuliyyətinə və inzibati məsuliyyətə cəlb etməlidirlər. Bu barədə məlumatlar mətbuatda dərc olunmalıdır. Respublika prokurorluğuna və onun yerli orqanlarına təklif edilmişdir ki, hər çür fırıldaqçılara, xalq malını oğurlayanlara, bürokrat və süründürməçilərə qarşı çıxış edən sovet vətəndaşları barəsində vətəndaşlıq hallarına qarşı mübarizəni gücləndirsinlər.

***

# 1971

## RESPUBLIKANIN INCƏSƏNƏT XADIMLƏRINDƏN BIR QRUPUNA AZƏRBAYCAN SSR FƏXRI ADLARININ VERILMƏSI HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan incəsənətinin inkişafında böyük xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

**AZƏRBAYCAN SSR XALQ ARTİSTİ**

**Maqomayev** Müslüm Maqomed oğlu-M.F.Axundov adına Azərbaycan
Dövlət Akademik Opera və Balet Teatırının solisti.

**Muradova** Rübabə Xalid qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatırının solisti.

**AZƏRBAYCAN SSR ƏMƏKDAR ARTİSTİ**
**Turabov** Həsənağa Səttar oğlu –M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.
**AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ**
**Cəbrayılov** Mikayıl Cəbrayıl oölu – Bakı Dövlət Sirkinin direktoru.

**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q. XƏLILOV**
**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin katibi**
**Z. ŞÜKÜROVA**

Bakı şəhəri , 29 aprel 1971-ci il

* * *

## RESPUBLIKANIN INCƏSƏNƏT XADIMLƏRINDƏN BIR QRUPUNA AZƏRBAYCAN SSR FƏXRI ADLARININ VERILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan incəsənətinin inkişafında böyük xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

**AZƏRBAYCAN SSR XALQ ARTİSTİ**
**Maqomayev** Müslüm Maqomed oğlu-M.F.Axundov adına Azərbaycan

Dövlət Akademik Opera və Balet Teatırının solisti.

**Muradova** Rübabə Xalid qızı – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatırının solisti.

**AZƏRBAYCAN SSR ƏMƏKDAR ARTİSTİ**

**Turabov** Həsənağa Səttar oğlu –M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

**AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ**

**Cəbrayılov** Mikayıl Cəbrayıl oölu – Bakı Dövlət Sirkinin direktoru.

**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin sədri Q. XƏLILOV**

**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin katibi Z. ŞÜKÜROVA**

Bakı şəhəri , 29 aprel 1971-ci il

***

## M.Y. LERMONTOV ADINA QROZNI RUS DRAM TEATRININ AZƏRBAYCAN SSR ALİ SOVETİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Bakı şəhərində qastrollar zamanı müvəffəqiyyətli çıxışına görə M.Y. Lermontov adına Qrozni Rus Dram Teatrı Azərbaycan Ssr Ali Sovetinin **Fəxri Fərmanı** ilə təltif edilsin.

**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin sədri Q. XƏLILOV**

**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin katibi**

**Z. ŞÜKÜROVA**

Bakı şəhəri.
25 iyun 1971-ci il

***

## YAZIÇI M.Ə. İBRAHİMOVUN OKTYABR ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet ədəbiyyatının inkişafında böyük xidmətlərinə, fəal ictimai fəaliyyətinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar olaraq yaziçi M.Ə.İbrahimovun Oktyabr Ordeni ilə təltif edilsin.

**SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri**
**N.Podqornı**
**SSRİ Ali Sovetinin Rəyasət Heyətinin katibi**
**M.Georqadze**

Moskva, Kreml. 21 oktyabr 1971-ci il

***

## C.Ş.CAHANGİROV YOLDAŞIN AZƏRBAYCAN SSR ALİ SOVETİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan musiqi sahəsində xidmətlərinə görə və anadan olmasının əlli illiyi ilə əlaqədar olaraq Azərbaycan SSR Ali xalq

artisti Cahangir Şirgəşt oğlu Cahangirov yoldaşin Azərbaycan SSR Ali sovetinin fəxri fərmani ilə təltif edilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
sədri Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
katibi G.Əbilova

Bakı şəhəri, 29 oktyabr 1971-ci il

***

## İSFƏNDİYAR ASLAN OĞLU CAVANŞİROV (XAN ŞUŞİNSKİ)YOLDAŞIN AZƏRBAYCAN SSR ALİ SOVETİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan musiqi sahəsində xidmətlərinə görə və anadan olmasının yetmiş illiyi ilə əlaqədar olaraq Azərbaycan SSR Ali xalq artisti İsfəndiyar Aslan oğlu Cavanşirov (Xan Şuşinski) yoldaşin Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmani ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin**
**sədri Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin**
**katibi G.Əbilova**

Bakı şəhəri, 29 dekabr 1971-ci il

***

# 1972

## N.Z.TAĞIZADƏ (NİYAZİ) YOLDAŞIN AZƏRBAYCAN SSR

## ALİ SOVETİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALI SOVETININ RƏYASƏT HEYƏTININ FƏRMANI

Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq SSRİ xalq artisti, bəstəkar və dirijor Niyazi Zülfüqar oğlu Tağizadə (Niyazi) Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

**Bakı şəhəri, 26 dekabr 1972-ci il**

***

***

## Ü. HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT KONSERVATORIYASININ QIRMIZI ƏMƏK BAYRAĞI ORDENI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA SSRI ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI.

Musiqiçi kadrlar hazırlamaqda xidmətlərinə görə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilsin.

**SSRI Ali Soveti Rəyasət Heyətinin sədri**
**N.PODQORNI**
**SSRİ Ali Soveti Rəyasət heyətinin katibi**
**M.GEORQADZE**

Moskva, Kreml. 19 aprel 1972-ci il.

* * *

## Ü. HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT KONSERVATORIYASI IŞÇILƏRINƏ FƏXRI ADLAR VERILMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Musiqiçi kadrlar hazırlanmasında, Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətlərinə görə və Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının yaradılmasının 50 illiyi ilə əlaqədar olaraq aşağıdakılara fəxri adlar verilsin:

### AZƏRBAYCAN SSR XALQ ARTİSTİ

**Əliyev** Sabir Hüseynəli oğlu - simli alətlər kafedrasının müdiri.

**Səfərəliyeva** Kokəb Kamil qızı - fortepiano kafedrasının professoru.

### AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ

A**işeleviç** Vladimir Sezareviç - kamera ansamblı kafedrasının müdiri.

**İsmayılov** Məmmədsaleh Cəlil oğlu - xalq musiqisi kafedrasının professor əvəzi.

**Karaqiçeva** Lyudmila Vladimirovna - musiqi tarixi kafedrasının dosenti.

**Quliyeva** Simuzər Ələkbər qızı - fortepiano kafedrasının müdiri.

**Mirzəzadə** Xəyyam Hadi oğlu - bəstəkarlıq kafedrasının dosenti.

**Rzayev** Azər Hüseyn oğlu - kamera ansamblı kafedrasının dosenti.

## AZƏRBAYCAN SSR ƏMƏKDAR ARTİSTİ

**Abdullayeva** Aida Həmdulla qızı - arfa sinfinin baş müəllimi.

**Əliyev** Ağakərim Ağahüseyn oğlu - nəfəsli alətlər kafedrasının dosenti.

**Bədəlbəyli** Fərhad Şəmsi oğlu - fortepiano kafedrasının müəllimi

**Seyidzadə** Rəşid Mircəfər oğlu - simli alətlər kafedrasının dosenti.

**Tağiyev** Murad Yusif oğlu - simli alətlər kafedrasının dosenti.

**Əfəndiyev** Elşad Qafur oğlu - nəfəsli alətlər kafedrasının dosenti.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 19 aprel 1972-ci il

* * *

## ÜZEYIR HCIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT KONSERVATORIYASI IŞÇILƏRININ AZƏRBAYCAN SSR ALI SOVETININ FƏXRI FƏRMANI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Uzun illər səmərəln işlədiklərinə görə və Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası yaradılmasının 50

illiyi ilə əlaqədar olaraq aşağıdakılar Azərbaycan SSR Ali Sovetinin **Fəxri Fərmanı** ilə təltif edilsinlər:

**Əliyev** Azad Həmzə oğlu - simli alətlar kafedrasının dosenti.

**Ələkbərov** Zeynal Məmməd oğlu - marksizm-leninizm kafedrasının müdiri.

**Atakişiyev** Rafiq İsrafil oğlu - fortepiano kafedrasının müdiri.

**Ağamova** Yelena Artyomovna - tədris hissə katibi.

**Hacıyev** Əhməd-Cövdət İsmayıl oğlu - bəstəkarlıq kafedrasının professoru.

**Hacıbəyov** Soltan İsmayıl oğlu - konservatoriyanın rektoru.

**Cəfərova** Zəhra Hüseyn qızı - orqan sinfinin dosenti.

**Danilov** Daniil Xristoforoviç — musiqi tarixi kafedrasının mudiri.

**İvanova** Anastasiya İvanovna — baş muhasib.

**İsmayılova** Qəmər Abbasqulu qızı — musiqi tarixi kafedrasının baş müəllimi.

**Qarayev** Qara Əbulfəz oğlu - bəstəkarlıq kafedrasının professoru.

**Qasımov** Muxtar Maqsud oğlu - Marksizm-leninizm kafedrasının baş muəllimi.

**Məmmədova** Şövkət Həsən qızı — vokal kafedrasının professoru.

**Məmmədova** Bilqeyis Mirəbdul qızı — tədris və elmi iş üzrə prorektor.

**Məlikov** Xanlar Həmid oğlu - musiqi nəzəriyyəsi kafedrasının dosenti.

**Muradova** Yevgeniya Haykovna — musiqi nəzəriyyəsi kafedrasının dosenti.

**Muradova** Cəmilə Mehrəli qızı — fortepiano kafedrasının dosenti.

**Musabəyova** Sara Qəzənfər qızı — ümumi fortepiano kafedrasının baş muəllimi.

**Nəzirova Elmira** Mirzərza qızı — fortepiano kafedrasının professoru.

**Nikomarova** Ella Markovna — musiqi nəzəriyyəsi kafedrasının dosenti —pensiyaçı

**Usubova** Nigar İbrahim qızı — fortepiano kafedrasının professoru.

**Fiş** Monsey İsaakoviç — çilingər.

**Frolova** Larisa Vasniyevna - xor drijorluğu kafedrasının mudiri.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 19 aprel 1972-ci il

## ÜZEYIR HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT KONSERVATORIYASI IŞÇILƏRINƏ FƏXRI ADLAR VERILMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Azərbaycan SSR Ali Soveti Rəyasai Heyətinin sədri Q. Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi G.Əbilova
Bakı şəhəri, 19 aprel 1972-ci il.

Musiqiçi kadrlar hazırlanmasında, Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətlərinə görə və Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının yaradılmasının 50 illiyi ilə əlaqədar olaraq aşağıdakılara fəxri adlar verilsin:

**Azərbaycan SSR xalq artisti**

Əliyev Sabir Hüseynəli oğlu – simli alətlər kafedrasının müdiri.

Səfərəliyeva Kovkəb Kamil qızı – fortepiano kafedrasının professoru.

**Azərbaycan SSR əməkdar incəsənət xadimi**

Aşpeleviç Vladimir Sezareviç – kamera ansamblı kafedrasının müdiri.

İsmayılov Məmmədsaleh Cəlil oğlu – xalq musiqisi kafedrasının professor əvəzi.

Karaqiçeva Lyudmila Vladimirovna – musiqi tarixi kafedrasının dosenti.

Quliyeva Simuzər Ələkbər qızı – fortepiano kafedrasının müdiri.

Mirzəzadə Xəyyam Hadi oğlu – bəstəkarlıq kafedrasının dosenti.

Rzayev Azər Hüseyn oğlu – kamera ansamblı kafedrasının dosenti.

**Azərbaycan SSR əməkdar artisti**

Abduldayeva Anna Həmdulla qızı – arfa sinfinin baş müəllimi.

Əliyev Ağakərim Ağahüseyn oğlu – nəfəsli alətlər kafedrasının dosenti.

Bədəlbəyli Fərhad Şəmsi oğlu – fortepnano kafedrasının müəllimi.

Seyidzadə Rəşid Mircəfər oğlu – simli alətlər kafedrasının dosenti.

Tağıyev Murad Yusif oğlu – simli alətlər kafedrasının dosenti.

Əfəndiyev Elşad Qafur oğlu – nəfəsli alətlər kafedrasının dosenti.

* * *

## RESPUBLİKANIN XALQ MAARİFİ VƏ MƏDƏNİYYƏT İŞÇİLƏRININ AZƏRBAYCAN SSR ALİ SOVETİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Respublika pioner təşkilatının işində fəal iştirak etdiklərinə, böyüməkdə olan nəslin kommunist tərbiyəsi sahəsində uzun illər səmərəli fəaliyyət göstərdiklərinə görə və V.İ.Lenin adına Ümumittifaq pioner təşkilatının 50 illiyi ilə ələqədar olaraq aşağıdakılar Azərbaycan SSR ALİ Sovetinin Fəxri Fərmanı ilə təltif edilsinlər:

**Əbdulkərimov** Davud Həsən oğlu - «Azərbaycan gənləri» qəzetinin bölmə mudiri.

**Ələkbərova** Cəmilə Zakir qızı - Sumqayıt şəhərindəki 5 nömröli məktəbin pioner baş dəstə rəhbəri

**Əlibəyli** Xanımana Sabir qızı - yazıçı.

**Əliyev** Məstan Rəsul oğlu - Azərbaycan radiosu uşaq verilişlərinin baş redaktoru.

**Əliyeva** Raya Səlim qızı - Azərbaycan LKGİ MK .məktəb şöbəsinin müdiri.

**Əmrahov** Əmrah Bala oğlu - «Azərbaycan pioneri» qəzetinin redaktoru.

**Atakişiyeva** Yelizaveta Semyonovna - Bakı şəhərnndəki 49 nömrəli orta məktəbin müəllimi

**Babayev** Qorxmaz Məmmədbağır: oğlu - Azərbaycan respublika gənc turistlər stansiyasının ditektoru

**Bağırzadə** Əhəd Zulfüğar oğlu - Azərbaycan respublika Pioner Hərəkatı Veteranları Şurasının sədri professor

**Bədəlbəyli** Əfrasiyab Bədəl oğlu — Azərbaycan respublika Pioner Təşkilatı Şurası estetik tərbiyə bölməsinin müdiri, bəstəkar.

**Brailovskaya** Berta Adamovna - Y.Qaqarin adına Bakı pioner və məktəblilər sarayı «Cücələrim» ansamblının bədii, rəhbəri.

**Haciyeva** Sayad Yusif qızı - Xaçmaz rayonu pionerlər evinin direktoru.

**Həsənova** Əminə Dadaş qızı - Qazax rayonu pionerlər evinin direktoru.

**Hüseynov** Vaqif Əlövsət oğlu - Azərbaycan LKGİ MK -idman şöbəsinin müdiri;

**Hüseynova** Validə Həsən qızı - Azərbaycan LKGİ Naxçıvan Vilayət Komitəsinin katibi.

**Cavanşirov** Əfsər Bayram oğlu - Azərbaycan televiziyası uşaq xorunun baş xormeysteri.

**Cəfərov** Əziz Babası oğlu - Qax rayonu pionerlər evinin direktoru;

**İbrahimova** Ofelya Əhməd qızı - Ordubad şəhərindəki 3 nömrəli məktəbin pioner baş dəstə rəhbəri.

**Qədirova** Gülarə Məcid qızı - Kirovabad pionerlər sarayının direktoru.

**Qasımov** Tələt Əli oğlu - Azərbaycan LKGİ MK Gənclər Təşilatları Komitəsinin sədri.

**Quliyev** Akif Aslan oğlu - «Azərbaycan pioneri» qəzetinin şöbə mudiri.

**Məmmədov** Əmənulla Beydulla oğlu - pioner baş dəstə rəhbərləri hazırlayan respublika məktəbinin direktoru,

**Petrova** Qalina Pavlovna - Y.Qaqarin adına Bakı pioner və məktəblilər sarayı direktorunun müavini.

**Sadıqov** Hüseynağa Ələsgər oğlu - M.Qorki adına Azərbaycan Gənc Tamaşaçılar Teatrının aktyoru,

**Cəfərov** Kamran Ələs oğlu - Bakı şəhərindəki 176 nömrəli məktəbin tərbiyə işi üzrə direktor müavini.

**Sokayeva** Valentina Andreyevna - Azərbaycan LKGİ Kirovabad Şəhər Komitəsinin katibi.

**Süleymanov** Nəriman Qoca oğlu - «Pioner» jurnalının məsul katibi.

**Sultanova** Hökümə İsmayıl qızı - Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun baş elmi işçisi.

**Fərəcova** Mahirə Qənbər qızı - Azərbaycan LKGİ MK. katibi,

**Xəlilova** Məlahət Xalid qızı - Ağdaş şəhərindəki 5 nömrəli məktəbin pioner baş dəstə rəhbəri:

**Hasilova** Xalidə Məmməd qızı - «Azərbaycan qadını» jurnalının redektoru.

**Xaxanova** İnna İosifovna - Bakı şəhərindəki 100 nömrəli məktəbin direktoru.

**Şirokov** Vladimir İvanoviç - Azərbaycan LKGİ MK məktəb şöbəsinin təlimatçısı.

**Eminova** Zemfira Həmid qızı - Azərbaycan LKGİ Bakı komitəsinin katibi.

**Əfəndiyev** Tacəddin Əbdürrəhman oğlu - V.İ.Lenin adına Şəki ipək kombinatının direktoru.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 18 may 1972-ci il.

* * *

## RESPUBLİKANIN XALQ MAARİFİ VƏ MƏDƏNİYYƏT İŞÇİLƏRİNƏ FƏXRİ ADLAR VERILMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Böyüməkdə olan nəslin kommunist tərbiyəsi işində xidmətlərinə görə və V.İ.Lenin adına Ümumittifaq pioner təşkilatının 50 illiyi ilə əlağədar olaraq aşağıdakılara fəxri adlar verilsin:

### AZƏRBAYCAN SSR ƏMƏKDAR MÜƏLLİMİ

**Aleksandrova** Yelena Aleksandrovna - Kirovabad şəhərindəki 30 nömrəli orta məktəbin direktor müavini.

**Həsənov** Kamal Davud oğlu - Göyçay şəhərindəki 3 nömrəli məktəbin direktoru.

**Qafarov** İbrahim Cəlil oğlu - Bakı şəhərindəki 132 nömrəli məktəbin direktor muavini.

**Kərimli** Lətif Əmiraslan oğlu - pioner baş dəstə rəhbərləri hazırlayan respublika məktıbinin müəllimi.

**Məmmədova** Güluş Məmməd qızı - Bakı şəhərindəki 132 nömrəli məktəbin sinifdənkənar və məktəbdənkənar iş təşkilatçısı.

## AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ

**Ağayeva** Məsmə Pənçəli qızı - Y.Qaqarin adına Bakı pioner və məktəblilər sarayının rəsm və rəngkarlıq dərnəyinin rəhbəri.

**Ağamov** Arkadi Meliksetoviç - Y.Qaqarin adına Bakı pioner və məktəblilər sarayı xalq çalğı alətləri dərnəyinin rəhbəri.

**Əliyev** Əhməd Mənməd oğlu -Y.Qaqarin adına Bakı pioner və məktəblilər sarayının direktoru.

**Çabbarov** Zeynal Əlabbas oğlu - «Pioner» jurnalının redaktoru.

**Qasımov** Balağa Əliqulu oğlu - M.Qorki adına Azərbaycan Gənc Tamaşaçılar Teatrının direktoru.

## AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏİYYƏT XADİMİ

**Zulfüqarov** Oqtay Qədir oğlu - bəstəkar.

## AZƏRBAYCAN SSR ƏMƏKDAR KİTABXANAÇISI

**İsmayılzadə** İrma Əkbər qızı - Bakı şəhərindəki 199 nömrəli orta məktəbin kitabxanaçısı.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 18 may 1972-ci il.

## AZƏRBAYCAN KP MK-nın, AZƏRBAYCAN SSR NAZIRLƏR SOVETININ VƏ AHIŞ-in QƏRARI

### Respublika mədəni-maarif idarələrinin 1971-ci ildəki işinə ictimai baxışın yekunlarına görə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin, AHIŞ-in keçici Qırmızı Bayrağını və pul mükafatlarını vermək haqqında

Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və AHIŞ qeyd edirlər ki, 1971-ci ildə respublikanın mədəni-maarif idarələri Sov. IKP XXIV qurultayı və Azərbaycan KP XXVIII qurultayı qərarlarının müvəffəqiyyətlə yerinə yetirilməsi uğrunda sosializm yarışını genişləndirərək, partiya təşkilatlarının rəhbərliyi altında zəhmətkeşlərə mədəni xidmət göstərilməsi, qurultayların qərarlarının, SSRI xalq təsərrüfatının inkişafına dair doqquzuncu beşillik planın onlar arasında təbliğ və izah edilməsi sahəsində xeyli iş görmüşlər.

Lənkəran rayonunun mədəni-maarif idarələri ictimai baxış-yarışda ən yaxşı nəticələrə nail olmuşlar. 1971-ci ildə həmin rayonun klub və kitabxanaları 1000-dən çox mühazirə və məruzə, 700 konsert və tamaşa keçirmişlər; bunlarda 124 minə yaxın adam iştirak etmişdir. Rayonun klublarında 112 müxtəlif bədii özfəaliyyət dərnəyi işləyir. Rayonda xalq teatrı və mədəniyyət universiteti fəaliyyət göstərir.

1971-ci ildə «Məhsul bayramı» yüksək səviyyədə keçirilmişdir, həmin bayramda ayrı-ayrı kolxoz və sovxozların bədii özfəaliyyət kollektivləri böyük müvəffəqiyyətlə çıxış etmişlər.

Rayonda əhaliyə kitabxana xidmətini daha da yaxşılaşdırmaq sahəsində xeyli iş görülmüşdür.

Kitabxanalar 37 mindən çox oxucuya xidmət etmiş, oxuculara 1 milyona yaxın kitab vermişlər. Kitab fondunun dövriyyəsi 3,1

dəfə olmuşdur. Kitabxanalar ictimai-siyasi, kənd təsərrüfatı, təbiiyyat-elmi ədəbiyyatın təbliği sahəsində böyük iş aparmışlar.

Lənkəran rayonunda yerli Sovetlərin vəsaiti hesabına kənd mədəni-maarif idarələri üçün yeni binalar tikintisi geniş vüsət almışdır.

Ictimai baxışın yekunlarına görə Cəbrayıl rayonunun mədəni-maarif idarələri də fərqlənmişlər.

1971-ci ildə klub və kitabxanalar 5000-dən çox müxtəlif mədəni-kütləvi tədbir, o cümlədən 537 konsert və tamaşa, 1745 tematik gecə, disput, şifahi jurnal təşkil etmişlər. Rayonda bədii özfəaliyyət xeyli inkişaf etmişdir.

Bədii özfəaliyyət iştirakçılarının sayı 1970-ci ildəki 275 nəfərdən 1971-ci ildə 1140 nəfərə çatmışdır. «Çinar» özfəaliyyət ansamblı bir çox kənddə müvəffəqiyyətlə çıxış edir.

Kitabxanaları olmayan yaşayış məntəqələrinə xidmət etmək üçün 23 səyyar kitabxana, 17 filial yaradılmış və avtokitabxanalar vasitəsilə kitabxaka xidməti təşkil mişdir.

1971-ci ildə Qusar rayonunun mədəni-maarif idarələri xeyli iş görmüşlər. Rayonda 1409 nəfəri əhatə edən 55 bədii özfəaliyyət dərnəyi işləyir. Rayon mədəniyyət evinin rəqs ansamblı 1071-ci ildə SSRI XTNS-də müvəffəqiyyətlə çıxış etmişdir.

Rayon xalq yaradıcılığı evi nəzdində miniatur teatr yaradılmış və geniş şöhrət qazanmışdır. Rayonda Sov. IKP XXIV qurultayı və Azərbaycan KP XXVIII qurultayı matəriallarının əyani təbliği təşkil olunmuşdur. Mədəni-maarif idarələrində doqquzuncu beşillikdə ölkənin, respublikanın, rayonun göstəricilərinii artmasına dair sərgilər, stendlər, diaqramlar təşkil edilmişdpr.

Rayonun əhalisinii 32 faizi kktabxanaların oxucusudur.

Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və AHIŞ qərara alırlar:

1. Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin, AHIŞ-in keçici Qırmızı Bayrağı və 2,0 min manat məbləğində birinci pul mükafatı 1971-ci ildə mədəni-maarif idarələriiin işində ən yaxşı göstəricilər əldə etmiş Lənkəran

rayonuna (rayon partiya komitəsinin katibi I. Ə. Məmmədov, rayon icraiyyə komitəsinin sədri R. M. Tahirova, məəniyyət şöbəsinin müdiri Ş. M. Səfərova yoldaşlardır) verilsin.

2. 1500 manat məbləğində ikinci pul mükafatı Çəbrayıl rayonuna (rayon partiya komitəsinin katibi Ə. Ağayev, rayon icraiyyə komitəsinin sədri I. Y. Ismaayılov, mədəniyyət şöbəsinin müdiri F. M. Məmmədov yoldaşlardır) verilsin.

3. 1000 manat məbləğində üçüncü pul mükafatı Qusar rayonuna (rayon partiya komitəsinin katibi S. Ş. hacıbalayev, rayon icraiyyə komitəsinin sədri M. K. Mirzəbəyov, mədəniyyət şöbəsinin müdiri F.A.Ömərov yoldaşdır) verilsin.

4. Mədəni-maarif idarələrinin fəaliyyətinə rəhbərlik sahəsində Bakı, Kirovabad, Sumqayıt, Şəki şəhərləri, Naxçıvan, Stepanakert, Zaqatala, Ağcabədi, Masallı, Tovuz, Köyçay, Qutqaşen, Ismayıllı rayonları partiya, sovet, həmkarlar ittifaqı təşkilatlarının, mədəniyyət orqanları və idarələrinin müsbət işi qeyd edilsin.

5. Ağsu, Astara, Yevlax, Puşkin, Saatlı, Qubadlı, Qazax və Cəlilabad rayonları partiya komitələrinin, icraiyyə komitələrinin, mədəniyyət orqanlarının və həmkarlar ittifaqı təşkilatlarının mədəni-maarif işi məsələləri ilə zəif məşğul olduqları qeyd edilsin; bunun, nəticəsidir ki, göstərilən rayonlardakı klubların və kitabxanaların əksəriyyətinin fəaliyyətində ciddi nöqsanlar vardır.

6. Azərbaycan KP vilayət, şəhər və rayon komitələrinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, DQMV, respublikanın şəhər və rayon zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitələrinə, Mədəniyyət Nazirliyinə və onun yerli orqanlarına, həmkarlar ittifaqı və komsomol təşkilatlarına bir vəzifə olaraq tapşırılsın ki, mədəni-maarif idarələrinin işinə diqqəti gücləndirsinlər, onarın fəaliyyəti ilə, klub və kitabxana kadrları tərkibinin möhkəmləndirilməsi ilə əlaqədar olan konkret məsələləri vaxtaşırı nəzərdən keçirib həll etsinlər, mədəni-maarif idarələrinin təşəbbüsünü və geniş imkanlarını daim respublika zəhmətkeşlərinin tərbiyəsinin və onlara mədəni xidmətin yaxşılaşdırılmasına yönəltsinlər.

| | | |
|---|---|---|
| Azərbaycan KP MK katibi sədri | Azərbaycan SSR Nazirlər Sovetinin | AHIŞ-in sədri |
| H.Əliyev Z.Hüseynova | Ə.İbrahimov | |

Bakı şəhəri, 29 aprel 1972-ci il, № 132.

## ƏDƏBIYYAT, INCƏSƏNƏT VƏ ARXITEKTURA SAHƏSINDƏ 1972-CI IL AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARININ VERILMƏSI HAQQINDA AZDRBAYCAN KP MK-NIN VƏ AZƏRBAYCAN SSR NAZIRLƏR SOVETINII QƏRARI

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti ədəbiyyat, incəsənət və arxitektura sahəsində Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Mükafatları Komitəsinin təqdimatını nəzərdən keçirərək 1972-ci il Azərbaycan SSR Dövlət mükafatlarını aşağıdakılara verməyi qərara almışlar:

1. Yazıçı, Azərbaycan SSR əməkdar inçəsənət xadimi İlyas Məmməd oğlu Əfəndnyevə,

Azarbaycan SSR əməkdar artisti, quruluşçu-reжissor Əliheydər Əbdüləli oğlu Ələkbərova, Azərbaycan SSR xalq artisti, rəssam Nüsrət Möhsün oğlu Fətullayevə, Azərbaycan SSR xalq artisti İsmayıl Yusif oğlu Hacıyev -Dağıstanlıya, Azərbaycan SSR xalq artistkası Leyla Ağalar qızı Bədirbəyliyə, Azərbaycan SSR əməkdar artisti Həsən Səttar oğlu Turabova, artistka Amaliya Əliş qızı Pənahovaya — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında «Mahnı dağlarda qaldı» ta-maşası üçün.

2. Azərbaycan SSR əməkdar incəsənət xadimi, quruluşçu-reжissor Külcahan Şurulla qızı Güləhmədova-Martınova-ya, Azərbaycan SSR xalq artisti Konstantnn Haykoviç Ada-mova,

Azərbaycan SSR xalq artisti Anatoli Soloponoviç Falkoviçə, Azərbaycan SSR əməkdar artistkası Anna İosi-fovna Tumarkinaya — Səməd Vurğun adına Azərbaycan Döv-lət Rus Dram Teatrında «Komandorun addımları» tamaşa-sı üçün.

3. Azərbaycan SSR xalq rəssamı Səttar Bəhlul oğlu Bəh-lulzadəyə — «Azərbaycan mənzərələri» işlər silsiləsi üçün.

# 1973

***

## RƏSSAM Q.Ə.XALIQOVA AZƏRBAYCAN SSR XALQ RƏSSAMI FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALI SOVETININ RƏYASƏT HEYƏTININ FƏRMANI

Azərbaycan sovet təsviri sənətinin ikişafında böyük xidmətlərinə görə rəssam Qəzənfər Ələkbər oğlu Xalıqova Azərbaycan SSR fəxri adi verilsin.

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

**Bakı şəhəri, 12 oktyabr 1973-cü il**

***

## BƏSTƏKAR S.İ.HACIBƏYOVA SSRİ XALQ ARTİSTİ FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA

## SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN

**FƏRMANI**

Sovet musiqi sənətinin inkişafinda böyük naliyyətlərinə görə bəstəkar Soltan Hacıbəyova SSRİ xalq artisti fəxri adı verilsin.

**SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri**
**N.Podqornı**
**SSRİ Ali Sovetinin Rəyasət Heyətinin katibi**
**M.Georqadze**

Moskva, Kreml. 26 iyul 1973-cü il

## ŞAİRƏ N.X.RƏFİBƏYLİNİN AZƏRBAYCAN SSR ALİ SOVETİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet ədəbiyyatı sahəsində xidmətlərinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar olaraq şairə Nigar Xudadat qızı Rəfibəyli Azərbaycan SSR Ali Sovetinin fəxri fərmani ilə təltif edilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
sədri Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
katibi G.Əbilova

Bakı şəhəri, 28 iyun 1973-cü il

## Ə.Y.ZEYNALOV YOLDAŞIN AZƏRBAYCAN SSR ALİ SOVETİNİN FƏRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT
HEYƏTİNİN FƏRMANI

Azərbaycan sovet teatr sənəti sahəsində xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq respublikanın xalq artisti Əli Yusif oğlu Zeynalov yoldaş Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 23 aprel 1973-cü il

# 1974

## ƏDƏBİYYAT, İNCƏSƏNƏT və ARXİTEKTURA SAHƏSİNDƏ AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARI KOMİTƏSİNDƏN

Ədəbiyyat, incəsənət və arxitektura sahəsində Azərbaycan SSR Dövlət Mükafatları Komitəsi 1974-cü il Azərbaycan dövlət Mükafatlarını almaq üçün müxtəlif dövlət təşkilatları, ictimai təşkilatlar və yaradıcılıq təşkilatları tərəfindən təqdim edilmiş işləri nəzərdən keçirərək müsabiqədə iştirak etməyə aşağıdakı namizədləri buraxmışdır:

1. Q.İmamverdiyev – “Nəsimi” poeması.

Azərbaycan Yazıçılar İttifaqı, Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat insitutu tərəfindən təqdim edilmişdir.

2. H.Əfəndiyev (Hikmət Ziya) – Uşaqlar üçün "Leylək yuvası" şeirlər kitabı.

Azərbaycan Yazıçılar İttifaqı tərəfindən təqdim edilmişdir.

3. F.Əmirov – bəstəkar, musiqinin müəllifi, N.Nəzirova – quruluşçu, N.Rzayev – dirijor, T.Nərimanbəyov – rəssam, V.Pletnyov, Ç.Babayeva – rolların ifaçıları, M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında "Nəsimi" baleti.

Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən təqdim edilmişdir.

4. N.Zeynalova – Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqi Komediya Teatrında "Hicran" tamaşasında Qızbacı rolunun ifaçısı.

Ş.Qurbanov adınaadına Azərbaycan Dövlət Musiqi Komediya Teatrı tərəfindən təqdim edilmişdir.

5. M.Abdullayev – "Çəltikçi qızlar" diptixi.

Azərbaycan Rəssamlar İttifaqı tərəfindən təqdim edilmişdir.

6. C.Qaryağdı – Bakı şəhərində Nəriman Nərimanovun abidəsi.

Azərbaycan Rəssamlar İttifaqı tərəfindən təqdim edilmişdir.

7. H.Məcidov – Metronun "Əzizbəyov" stansiyasının arxitekturası:

H.Ələsgərov, Ə.Hüseynov – memarlar, İ.Zeynalov, C.Qasımov, R.Xələfov – rəssamlar. Metronun "Avrora" stansiyasının arxitekturası və bədii tərtibatı:

Ə.İsmayılov, F.Leontyev – memarlar, A.Ağamalov, M.Qafarov – rəssamlar Metronun "Neftçilər" stansiyasının arxitekturası və bədii tərtibatı:

Azərbaycan Arxitektorlar İttifaqı tərəfindən təqdim edilmişdir.

8. M.A.Dadaşzadə (Məmməd Arif) – "Azərbaycan ədəbiyyatı tarixi" kitabı.

Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnsitutu tərəfindən təqdim edilmişdir.

9. E.Abbasova, K.Səfərəliyeva, D.Danilov, L.Karagiçeva Bretaniskaya – "Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası" kitabı.

Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası, Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən təqdim edilmişdir.

Azərbaycan SSR Dövlət mükafatına təqdim edilmiş işlərlə geniş tanış olmaq üçün radio və televiziya verilişləri təşkil ediləcək, tamaşalar göstəriləcəkdir.

Təqdim olunmuş işlərin ictimaiyyət və mətbuat orqanları tərəfindən fəal müzakirəsi Azərbaycan SSR Dövlət Mükafatları Komitəsinə böyük kömək olacaqlar. Komitə yaradıcılıq təşkilatlarından, elmi idarələrdən və mədəni-maarif müəssisələrindən, habelə kütləvi informasiya vasitələrindən xahiş edir ki, göstərilən işlərin də müəllif kollektivləri tərkiblərinin ictimai müzakirəsini bu il aprelin 1-dək təşkil etsinlər.

Namizədlər haqqında rəylər, ictimai müzakirələrə aid materiallar komitəyə, bu ünvana göndərilməlidir: Bakı, Xaqani küçəsi, 25.

**Bakı şəhəri, 1974-cü il**

## N.S.TİXANOV YOLDAŞA AZƏRBAYCAN SSR XALQ ŞAİRİ ADI VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan sovet ədəbiyyatının inkişafında və təbliğ edilməsində böyük xidmətlərinə görə şair Nikolay Semyonoviç Tixonova Azərbaycan SSR xalq şairi adı verilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**

**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 17 yanvar 1974-cü il.

## RESPUBLIKANIN INCƏSƏNƏT IŞÇILƏRINƏ AZƏRBAYCAN SSR-IN FƏXRI ADLARININ VERILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

SOVET TEATR SƏNƏTİNİN İNKİŞAFINDA XİDMƏTLƏRİNƏ GÖRƏ VƏ AZƏRBAYCAN DRAM TEATRININ 100 İLLİYİ İLƏ ƏLAQƏDAR OLARAQ AŞAĞIDAKILARA FƏXRİ ADLAR VERİLSİN:

AZƏRBAYCAN SSR
XALQ ARTİSTİ

Bəsirzadə-Vazirova Sofya Bəsir qızı — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Dadaşov Məlik Yusif oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Quliyev Məmməd Allahverdi oğlu — C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrının artisti.

Kazımov Tofiq Səmədmənsur oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının baş rejissoru.

Məlikova Nəcibə Haşım qızı — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Sarnatskaya Nina Dmitriyevna — S. Vurğun adına Azərbaycan Dövlət Rus-Dram Teatrının artisti.

Şeyxzamanov Məmməd İsa oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

AZƏRBAYCAN SSR
XALQ RƏSSAMI

Əfqanlı-Cəfərova Bədurə Məlik qızı — teatr rəssamı.

AZƏRBAYCAN SSR
ƏMƏKDAR İNÇƏSƏNƏT
XADİMİ

Hüseynov Rahib Abuzər oğlu—M. Əliyev adına Azərbaycan Dövlət İnçəsənət İnstitutunun
rektoru.

Quliyev Əşrəf Haçı oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının rejissoru.

AZƏRBAYCAN SSR
ƏMƏKDAR ARTİSTİ

Əliyeva Zemfira Məmmədəli qızı — C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrının artisti.

Amzoyan Suren Arşakoviç — M. Qorki adına Stepanakert Dövlət Dram Teatrının artisti.

Aslanov Siyavuş Məmmədağa oğlu — Ş. Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının artisti.

Bağırov Haçıbaba Ağarza oğlu — Ş. Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının artisti.

Behbudova Nəçibə Məçid qızı — Ş. Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının artisti.

Hüseynov Sadıq Ömər oğlu—M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Zeynalov Eldəniz Məmməd oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

İbrahimova Səfurə Ağabala qızı — M. Əzizvəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti,

Məmmədbəyov Lütfi Şahbaz oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Məmmədov Ağa Əskər oğlu — C. Cabbarlı adına Kirovabad Dövlət Dram Teatrının ar-tisti.

Məmmədova Şəfitə Haşım qızı — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Pənahova Amaliya Əliş qızı — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Razumovskaya Tamara Fyodorovna — M. Qorki adına Azərbaycan Dövlət Kənc Tamaşaçılar Teatrının artisti.

Rzayev Səməndər Mənsim oğlu — M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Yagizarov Hacımurad Hacıəhmədoviç — S. Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının artisti.

## AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ

Əmirov Məmməd Şahverdi oğlu — Ə. Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının direktoru.

Genin Yakov Markoviç — V. İ. Lenin adına sarayın bədii quruluş hissəsinin rəhbəri.

İsmayılov İskəndər Ağəli oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrı dekorasiya sexinin müdiri.

İsmayılov Əli Şahəli oğlu — Azərbaycan SSR Mədəniyyət Nazirliyi Teatr və Musiqi Muəssisələri İdarəsinin rəisi.

Lerman Vera Yefimovna — S. Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının kitabxanaçısı.

Mirzəyev Həsən Süleyman oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrı quruluş hissəsinin müdiri.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**

**Q. XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**K. ƏBİLOVA**

Bakı şəhəri, 1 iyun 1974-cü il.

* * *

## M.Ə.MƏMMƏDOVA SSRİ XALQ ARTİSTİ FƏXRİ ADI VERİLMƏSI HAQQINDA SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet teatr sənətinin inkişafında böyük nailiyyətlərinə görə M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının rejissoru Mehdi Əsədulla oğlu **Məmmədova SSRİ xalq artisti** fəxri adı verilsin.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri**
**N.PODQORNI**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi**
**M. GEORQADZE**

Moskva, Kreml. 7 avqust 1974-cü il.

***

## İ.O.OSMANLIYA SSRİ XALQ ARTİSTİ FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA SSRİ ALI SOVETI RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet teatr sənətinin inkişafında böyük nailiyyətlərinə görə M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti Ismayıl Osman oğlu **Osmanlıya SSRİ xalq artisti** fəxri adı verilsin.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri**

**N.PODQORNI**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi**
**M.GEORQADZE**

Moskva, Kreml. 1 avqust 1974-cü il.

* * *

## «AZƏRBAYCAN SSR ƏMƏKDAR ARXİTEKTORU» FƏXRİ ADININ TƏSİS EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qərara alır:

1. «Azərbaycan SSR əməkdar arxitektoru» fəxri adı təsis edilsin.

2. Bu fərmanın 1-ci maddəsinə müvafiq olaraq «Azərbayan SSR fəxri adlarının təsis edilməsi haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1959-cu il 18 may tarixli Fərmanına və «Azərbaycan SSR fəxri adları və Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı haqqında Əsasnamə»yə aşağıdakı dəyişikliklər və əlavələr keçirilsin:

a) fərmanın 1-ci maddəsində «Azərbaycan SSR əməkdar inşaatçısı» sözlərindən sonra «Azərbaycan SSR əməkdar arxitektoru» sözləri verilsin.

b) əsasnamənin I bölməsisinin 18-çi maddəsi aşağıdakı məzmunlu 18-ci maddəsi ilə tamamlansın:

«18-q. Azərbaycan SSR əməkdar arxitektoru fəxri adı ixtisası üzrə azı 10 il işləmiş arxitektorlara Azərbaycan sovet arxitekturasının inkişafında xususi xidmətlərinə, arxitektura elmi və şəhərsalma sahəsində görkəmli yaradıcılıq fəaliyyətinə görə, müasir mülki, sənaye və kənd arxitektura komplekslərinin, binaların və qurğuların yaradılmasına görə, Azərbaycan memarlığı abidələrinnn bərpası və arxitektor kadrlarının tərbiyələndirilməsi və hazırlanması işində xidmətlərinə görə verilir».

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 14 avqust 1974-cu il.

* * *

## Ə. Q. VƏLİYEV YOLDAŞA AZƏRBAYCAN SSR XALQ YAZIÇISI FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Uzun illər səmərəli yaradıçılıq fəaliyyətinə, Azərbaycan sovet ədəbiyyatının inkişafında böyük xidmətinə görə Əli Qara oğlu Vəliyev yoldaşa Azərbaycan SSR xalq yazıçısı fəxri adı verilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 6 sentyabr 1974-cu il.

* * *

## RESPUBLIKA INCƏSƏNƏT IŞÇILƏRININ AZƏRBAYCAN SSR ALI SOVETININ FƏXRI FƏRMANI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

UZUN İLLƏR SƏMƏRƏLİ FƏALİYYƏTLƏRİNƏ GÖRƏ VƏ AZƏRBLYCAN DRAM TEATRININ 100 İLLİYİ İLƏ ƏLAQƏDAR OLARLQ AŞAĞIDAKILAR AZƏRBAYCAN SSR ALİ SOVETİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLSİNLƏR:

Abbasov Hacağa Mütəllib oğlu — Azərbaycan SSR xalq artisti.

Ağayeva Adilə Kərim qızı — M. Əzizbəyov adıda Azərbaycan Dövlət Akademik Dram Teatrının baş nəzarətçisi.

Ələskərov Abdulla Ağasəməd oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının yanğından mühafizə üzrə təlimatçısı.

Əliyeva Ətayə Qulam qızı — Azərbaycan SSR əməkdar artisti.

Bağırov Sadıqsaleh Xəlil oğlu — Azərbaycan SSR əməkdar artisti.

Bədirbəyli Leyla Ağalar qızı — Azərbaycan SSR xalq artisti.

Haçıyeva Sona Salman qızı — Azərbaycan SSR xalq artisti.

Gəraybəyov Ağasadıq Ağəli oğlu — Azərbaycan SSR xalq artisti.

Qriqoryan Şuşanik Sarkisovna – M. Qorki adına Stepanakert Dövlət Dram Teatrının artisti.

Hüseynova Sofiya Həsən qızı — Naxçıvan MSSR Əməkdar artisti.

Yermakova Mariya Frolovna — Azərbaycan SSR əməkdar artisti.

Zeynalov Əli Yusifoğlu — Azərbaycan SSR xalq artisti.

İbadzadə Seyfulla İbad oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının baş nəzarətçisi.

İbrahimov Mirzə Əjdər oğlu — Azərbaycan SSR xalq yazıçısı.

İbrahimova Mariya Yefimovna — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının baş biletçisi.

İsmayılov Bahadır Xalıq oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının baş qrimçisi.

Qasımov İmran Haşım oğlu — Azərbaycan SSR əməkdar incəsənət xadimi.

Quliyev Əzizağa Rza oğlu — M. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun baş müəllimi.

Quliyev-Qafqazlı Haçıməmməd Ələkbər oğlu — Azərbaycan SSR əməkdar artisti.

Qurbanova Hökümə Abbasəli qızı — SSRİ xalq artisti.

Məmmədov Çəlal Cabbar oğlu — tənqidçi.

Məmmədxanlı Ənvər Qafar oğlu — dramaturq.

Mustafayeva Sədayə İsmayıl qızı — Azərbaycan SSR əməkdar artisti.

Novruzova Mirvari Balaqadaş qızı — Azərbaycan SSR əməkdar artisti.

Rəsulov Əmənulla Ağahüseyn oğlu — M. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun müəllimi.

Rzayev Abbas Mahmudəli oğlu — Azərbaycan SSR əməkdar artisti.

Rzayeva Şövkət Böyükağa qızı — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram teatrının artisti.

Rüstəmzadə Süleyman Əlabbas oğlu —- Azərbaycan SSR xalq şairi.

Sadıqov Məmməd Əhməd oğlu — Azərbaycan SSR əməkdar artisti.

Sadıqova Məhluqə Ələkbər qızı — Azərbaycan SSR əməkdar artisti.

Sənani Möhsün Sadıq oğlu — Azərbaycan SSR xalq artisti.

Süleymanov Mustafa Dadaş oğlu — M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Təhmasib Rza Abbasqulu oğlu — Azərbaycan SSR xalq artisti.

Fətullayev Nüsrət Möhsün oğlu — Azərbaycan SSR xalq artisti.

Fətullayev Fateh Möhsün oğlu — Azərbaycan SSR əməkdar artisti.

Şərifov Ələskər Məmmədtağı oğlu — Azərbaycan SSR xalq artisti.

Şəkinskaya Barat Həbib qızı — Azərbaycan SSR xalq artisti.

Əfəndiyev İlyas Məhəmməd oğlu — dramaturq.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q. XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**K. ƏBİLOVA.**

Bakı şəhəri, 1 iyun 1974-cü il.

## İ.Y.DAĞISTANLIYA (HACIYEVƏ) SSRİ XALQ ATİSTİ FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA SSRİ ALİ SOVETİNİN RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet teatr sənətinin inkişafında böyük nailliyyətinə görə M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının atristi İsmayıl Yusif oğlu Dağıstanlıya (Hacıyevə) **SSRİ xalq artisti** fəxri adı verilsin.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri**
**N.PODQORNI**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi**
**M.GEORQADZE**

Moskva.Kreml. 11 iyul 1974-cü il.

* * *

## ƏDƏBIYYAT, INCƏSƏNƏT VƏ ARXITEKTURA SAHƏSINDƏ 1974-CÜ IL AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARININ VERILMƏSI HAQQINDA

*AZƏRBAYCAN KP MK-NIN VƏ AZƏRBAYCAN SSR NAZIRLƏR SOVETININ QƏRARI*

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Nazirlər Soveti yanında ədəbiyyat, incəsənət va arxitektura sahəsində Dövlət Mükafatları Komitəsinin təqdimatını nəzərdən keçirərək, 1974-cü il Azərbaycan SSR Dövlət mükafatlarını aşağıdakılara verməyi qərara almışlar:

1. SSRİ xalq artisti, bəstəkar Fikrət Məşədicəmil oğlu Əmirova; baletmeyster Nailə Məmməd qızı Nəzirovaya, Azərbaycan SSR əməkdar incəsənət xadimi dirijor Nazim Əsədulla oğlu Rzayevə, Azərbaycan SSR xalq rəssamı Toğrul Fərman oğlu Nərimanbəyova, Azərbaycan SSR əməkdar artisti Vladimir Nikolayeviç Pletnyova; Azərbaycan SSR əməkdar artisti Çimnaz Məmməd qızı Babayevaya - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında «Nəsimi dastanı» xoreoqrafik poemasının tamaşası üçün.

2. Azərbaycan SSR xalq artisti Nəsibə Cahangir qızı Zeynalovaya - Ş.Qurbanov adına Azərbaycan Musiqili Komediya Teatrının tamaşalarında yaratdığı obrazlar üçün.

3. SSRİ xalq rəssamı Mikayıl Hüseyn oğlu Abdullayevə – «Çəltikçi qızlar» diptixi üçün.

4. Azərbaycan SSR Elmlər Akademiyası prezidentinin müavini, filologiya elmləri doktoru Məmməd Arif Məhərəm oğlu Dadaşzadəyə (Məmməd Arifə) - «Azərbaycan ədəbiyyatı tarixi» kitabı üçün.

**Azərbaycan KP MK katibi**
**H. ƏLİYEV**

**Azərbaycan SSR Nazirlər**
**Sovetinin sədri**
**Ə. İBRAHİMOV**

# 1975

## RESPUBLIKANIN ARXITEKTORLARINA AZƏRBAYCAN SSR ƏMƏKDAR ARXITEKTORU FƏXRI ADI VERILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Azərbaycan sovet arxitekturasının inkişafında, müasir mülki arxitektura komplekslərinin yaradılmasında, arxitektor kadrlarının tərbiyələndirilməsində və hazırlanmasında xidmətlərinə görə aşağıdakılara Azərbaycan **əməkdar arxitektoru** adı verilsin:

**Bağırzadə** Tuğraxanım Fərəməz qızı- Ümumititfaq kurort və sanatoriya tikintilərinin layihələşdirmə İnistitutu Azərbaycan şöbəsinin baş layihə mühəndisi.

**Vahidov** Səlim Məcid oğlu- Azərbaycan Dövlət layihə İnistitutu- 3 nömrəli arxitektura emalatxanasını rəhbəri.

**Zeynalova** Şəfiqə Mikayıl qızı- Azərbaycan Dövlət Layihə İnistutunun baş layihə arxitektoru.

**Kanukov** Elcaruko İbrahimoviç- C.İldırım adına Azərbaycan Politexnik İnstitutu arxitektura-layihələşdirmə kafedrasının dosenti.

**Kozlov** Yuri nikolayeviç- Azərbaycan Dövlət Layihə İnistutu 4 nömrəli arxitektura emalatxanasını rəhbəri.

**Məmmədbəyov** Kamal Hüseynağa oğlu- Azərbaycan SSR Elmlər Akademiyasının rəyasət heyəti yanında mədəniyyət abidələrinin öyrənilməsi və mühavizəsi üzrə elmi-metodiki şuranın elmi katibi.

**Sərdarov** Sərdar Bünyad oğlu- Azərbaycan Dövlət Sənaye Müəssisələrinin Layihələşdirmə İnstitunun direktoru.

**Xanlarov** Tələt Ağasıbəy oğlu- Azərbaycan Dövlət Layihələşdirmə İnstitutu 2 nömrəli arxitektura emalatxanasını rəhbəri.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Xəlilov**

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 14 aprel 1975-ci il

## SSRİ- XALQ ARTISTI KARANDAŞIN (M.H. RUMYANTSEVIN) AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏXRI FƏRMANI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Respublikanın zəhmətkeşləri qarşısında müvəffəqiyyətli çıxışlarına görə SSRİ xalq artisti Karandaş (Mixail Nilolayeviç Rumyantsev) Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 14 aprel 1975-ci il

## AZƏRBAYCAN SSR ƏMƏKDAR ARTISTI A.Q. ALLEQROV YOLDAŞIN AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏXRI FƏRMANI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Sovet teatr sənəti sahəsində uzun illər səmərəli fəaliyyətinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar olaraq ) Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 14 aprel 1975-ci il

## Mükafatlar təqdim olundu

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətində sənaye, kənd təsərrüfatı əməkçilərindən, mədəniyyət, partiya, sovet, həmkarlar iqtifaqı işçilərindən böyük bir qrupuna ordenlər, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları, Azərbaycan SSR fəxri adları vsrilməsi haqqında fərmanlar təqdim olunmuşdur.

Şair Nəbi Xəzriyə, İttifaq Qaz Maşınları Təmiri Birliyinin Bakı eksperimental mexanizm təmiri zavodunun dəmirçilər briqadiri A.M.Qazaryana, Azərbaycan-Mülki Aviasiya İdarəsinin təyyarə komandiri L.A.Klyauzova Qırmızı Əmək Bayrağı ordeni təqdim edilmişdnr.

M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Zeynəb Xanlarovaya Azərbaycan SSR xalq artisti fəxri adı verilməsi haqqında fərman təqdim edilmişdir.

Respublika əməkçilərinin böyük bir qrupuna Azərbaycan SSR əməkdar müəllimi, əməkdar səmərələşdiricisi, əməkdar həkimi, əməkdar mədəniyyət işçisi, əməkdar artisti, əməkdar arxitektoru, əməkdar hüquqçusu fəxri adları verilməsi haqqında fərmanlar təqdim olunmuşdur.

Təltif olunanların böyük bir qrupu Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanlarını almışdır.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Ə.Xəlilov mükafatları təqdim edərək, fərqlənənləri səmimi təbrik etmiş, onlara möhkəm cansağlığı və böyük əmək müvəffəqiyyətləri arzulamışdır.

Kürdəmirdə, Zərdabda, Ucarda, Laçında, Zaqatalada, Qaxda, Balakəndə və Şamaxıda Ümumittifaq sosializm yarışında qazanılmış müvəffəqiyyətlərə görə təltif edilmiş kənd əməkçilərinə SSRİ orden və medalları təqdim olunmuşdur.

Ucar rayonundakı "Şəfəq" kolxozunun briqadiri Bayram Beydullayev, Kürdəmir rayonundakı Fuzuli adına kolxozun briqadiri Sabir Qasımov, Zərdab rayonundakı M.Qorki adına kolxozun briqadiri Səmərrux Kazımova, Zaqatala rayonundakı "Bakı fəhləsi" kolxozunun üzvü Şəmsiyət Məmmədova, Şamaxı rayonundakı M.Ə.Sabir adına sovxozun direktoru Əkrəm Məmmədov Lenin ordeni almışlar.

Qabaqcılların böyük bir qrupuna Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, "Şərəf Nişanı", üçüncü dərəcəli Əmək Şöhrəti ordenləri, habelə "Əmək ikillnyinə görə" və "Əməkdə fərqlənməyə görə" medalları təqdim edilmişdir.

Mükafatları təqdim edən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvləri M.Q.Ohançanyan, Q.B.Hacıyeva, respublika Ali Sovetinin deputatı, Şamaxı Rayon Partiya Komitəsinin birinci katibi S.A.Sailov, Azərbaycan SSR Ali Sovetinin deputatı, Qax Rayon Partiya Komitəsinin birinci katibi S.H.Dibirova fərqlənənləri səmimi təbrik etmiş, əməkdə yeni-yeni müvəffəqiyyətlər arzulamışlar.

## AZƏRBAYCAN SSR ƏMƏKDAR ARTISTI A.Q.ALLEQROV YOLDAŞIN AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏXRI FƏRMANI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Sovet teatr sənəti sahəsində uzun illər səmərəli fəaliyyətinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar olaraq Azərbaycan SSR əməkdar artisti Aleksandr Qriqoryeviç Alleqrov yoldaş Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azarbaycan SSR Ali Soveti Rəyasat Heyətinin sədri**
**Q.Xəlilov**
**Azarbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 14 aprel 1975-ci il.

# 1976

## RESPUBLIKA KINO SƏNƏTI IŞÇILƏRINƏ AZƏRBAYCAN SSR FƏXRI ADLARININ VERILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet kino sənətinin inkişaf etdirməkdə xidmətlərinə görə və Azərbaycan kinosunun 60 illiyi ilə əlaqədar olaraq aşağıdakılara fəxri adlar verilsin:

AZƏRBAYCAN SSR
XALQ ARTİSRTİ

Dadaşov Muxtar Baba oğlu – kino rejissoru.
Seyidbəyli Həsən Mehdi oğlu – ssenarist, kino rejissoru.
Tağızadə Tofiq Mehdiqulu oğlu – kino rejissoru.

AZƏRBAYCAN SSR
ƏMƏKDAR İNCƏSƏNƏT
XADİMİ

Hüseynov İsa Mustafa oğlu – ssenarist .
İbrahimbəyov Rüstəm Məmmədibrahim oğlu – ssenarist.
İsmayılov Rasim Rza oğlu – kino operatoru.
Quliyev Eldar Tofiq oğlu – kino rejissoru.
Mahmudbəyov Şamil Fərəməz oğlu – kino rejissoru.
Rzayev Anar Rəsul oğlu – ssenarist.

## AZƏRBAYCAN SSR
## ƏMƏKDAR ARTİSTİ

Ələkbərov Şahmar Zülfüqar oğlu – kino aktyoru.
Aslanova Valentina Vasilyevna – kino aktyoru.
Balayev Rasim Əhməd oğlu – kino aktyoru.
Mirzəyev Tofiq ibrahim oğlu – kino aktyoru.

## AZƏRBAYCAN SSR
## ƏMƏKDAR RƏSSAMI

Zeynalov Nadir Əlimuxtar oğlu – rəssam.
Nəcəfzadə Kamil Nəcəf oğlu - rəssam.
Hüseynov Məmmədağa hüseyn oğlu - rəssam.

## AZƏRBAYCAN SSR
## ƏMƏKDAR MÜHƏNDİSİ

Kərimov Ağahüseyn Əşrəf oğlu – C.cabbarlı adına "Azərbaycan" film kinostudiyasının səs operatoru.

Şeyxov Əziz Hüseyn oğlu C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının səs operatoru.

## AZƏRBAYCAN SSR
## ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ

Əlibəyov Cəmil Adil oğlu – C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının direktoru.

Besantina gita Aleksandrovna – "Vətən" kinoteatrının direktoru.

İmamova Güllər Yəhya qızı – Qax rayonundakı kino birliyinin direktoru.

Konyagin Vladimir yevgeniyeviç – kino operatoru.

Məmmədyarova Xalidəxanım Tağı qızı – Nizami adına kinoteatrın direktoru.

Məmmədov Allahverdi Hacıbəy oğlu – Zaqatala rayonundakı Əlabad kəndinin kino mexaniki.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 23 dekabr 1976-cı il.

## --MOSKVA SATİRA TEATIRININ AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Müvəffəqiyyətli çıxışlarına və Bakı şəhəri zəhmətkeşlərinə nümunəvi xidmət etdiyinə görə Qırmızı Əmək Bayrağı ordenli Moskva Satira Teatrı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin **Fəxri Fərmanı** ilə təltif edilsin.

**AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN SƏDRİ**
**Q.XƏLİLOV**
**AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN KATİBİ**
**K.ƏBİLOVA**

Bakı şəhəri, 20 sentyabr 1976-cı il

* * *

Sovet kino sənəti sahəsində uzun illər səmərəli işlədiyinə görə və Azərbaycan kinosunun 60 illiyi ilə əlaqədar olaraq aşağıdakılar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilsin:

Aleksandrov Qriqori Vasilyeviç – "Mosfilm" kinostudiyasının kino rejissoru, SSRİ xalq artisti.

Əlili Məmməd Əlizadə - kino aktyoru, Azərbaycan SSR Əməkdar İncəsənət xadimi.

Həsənzadə Rəşid Həsən oğlu – Bakı şəhərindəki S.vurğun adına kino birliyinin 4 nömrəli səyyar kino qurğusunun kino-mexaniki şoferi.

Cabbarlı Qorxmaz Teymur oğlu – Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Kiematoqrafiya Komitəsi film istehsalı şöbəsinin rəisi.

Cəfərova Əminə Cəfər qızı – C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının işıq tənzimləycisi.

Dziqan Yefim İosifoviç – "Mosfilm" kinostudiyasının kino rejissoru, SSRİ xalq artisti.

İbrahimov Əjdər Mütəllim oğlu - "Mosfilm" kinostudiyasının kino rejissoru, SSRİ xalq artisti.

Kuraşin Vladimir Nikolayeviç – Əli Bayramlı kino birliyinin "Şirvan" kino teatrının texniki rəhbəri.

Qurbanov Məmməd Qurban oğlu – Azərbaycan SSR Nazirlər Soveti Dövlət kinematoqrafiya komitəsinin sədri.

Mikayılov Mikayıl Yusif oğlu – kino rejissoru, Azərbaycan SSR Əməkdar İncəsənət xadimi.

Nərimanbəyov Arif Əmir oğlu – kino operatoru, Azərbaycan SSR əməkdar incəsənət xadimi.

Ocaqov Rasim Mirqasım oğlu – kino operatoru, Azərbaycan SSR əməkdar incəsənət xadimi.

Rüstəmova Şərqiyyə Hacımahmud qızı – kinoprokatın Göyçay rayonlararası kontorunun proqram tərtibçisi.

Təhmasib Rza Abbas oğlu – kino rejissoru, Azərbaycan SSR xalq artisti.

Xeyfits İosif Yefimiviç – “Lenfilm” kinostudiyasının kino rejissoru, SSRİ xalq artisti.

Xocaxanova Yelena Yusif qızı – Lənkəran kino birliyinin Alekseyevka kəndindəki kino qurğusunun kino mexaniki.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 23 dekabr 1976-cı il.

## H.B.BABAYEV YOLDAŞIN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan sovet ədəbiyyatının inkişafında xidmətlərinə görə və anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq tənqidçi və ədəbiyyatşünas Həbib Bayram oğlu Babayev Azərbaycan SSR Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 29 dekabr 1976-cı il.

## ƏDƏBİYYAT, İNCƏSƏNƏT VƏ ARXİTEKTURA SAHƏSİNDƏ 1976-CI İL AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARİNIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN KP MƏRKƏZİ KOMİTƏSİNİN VƏ AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİNİN QƏRARI

Azərbaycan KP Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Nazirlər Soveti yanında Ədəbiyyat, İncəsənət və Arxitektura Sahəsində Azərbaycan SSR Dövlət Mükafatları Komitəsinin təklifini müzakirə edərək aşağıdakılara 1976-cı il

Azərbaycan SSR Dövlət mükafatları verməyi qərara alırlar:

1. Azərbaycan SSR əməkdar incəsənət xadimi, şair Bəxtiyar Mahmud oğlu Vahabzadəyə - «Leninlə söhbət» və «Muğam» poemaları üçün.
2. Şair Qabil Allahverdi oğlu İmamverdiyevə - «Nəsimi» poeması üçün.
3. Yazıçı Maqsud Məmmədibrahim oğlu İbrahimbəyova - «Bayquş gəldi" və «Yaxşılığa yamanlıq» povestləri üçün.
4. Heykəltəraş İbrahim İsmayıl oğlu Zeynalova, arxitektor Hənifə Əlisgəndər oğlu Ələsgərova, arxitektor Ələsgər Nurəli oğlu Hüseynova, tikinti işlərinin rəhbəri Əlövsət İbrahim oğlu Əbdülrəhimova, mühəndis-konstruktor Yuri Dmitriyeviç Dubova - Naxçıvan şəhərində V.İ.Lenin memorialı üçün.

Azərbaycan SSR əməkdar incəsənət xadimi, bəstəkar Xəyyam Hadı oğlu Mirzəzadəyə - 2-ci simfoniya triptix üçün.

6. Azərbaycan SSR Elmlər Akademiyasının akademiki Məmmədcəfər Zeynalabdin oğlu Cəfərova - 1974-1975-ci illərdə yazılmış ədəbi-tənqidi əsərlər üçün.

**Azərbaycan KP MK katibi**
**H. ƏLİYEV**

**Azərbaycan SSR Nazirlər**
**Sovetinin sədri**
**Ə.İBRAHİMOV**

**1977**

## --YAZIÇI S.V.VƏLİYEVƏ AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN
FƏRMANI

Azərbaycan sovet ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə anadan olmasının əlli illiyi ilə əlaqədar olaraq yazıçı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə təltif olunsun.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
sədri Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
katibi G.Əbilov

Bakı şəhəri, 4 yanvar 1977-ci il

## YAZIÇI V.Y.BABANLININ AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏTƏLTİF EDİLMƏSİ HAQQINDA

Azərbaycan sovet ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Süleyman Vəli oğlu Vəliyev Azərbaycan SSR əməkdar mədəniyyət işçisi fəxri adı verilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin

sədri Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
katibi G.Əbilov

Bakı şəhəri, 14 yanvar 1977-ci il

## T.H.MƏMMƏDOV YOLDAŞIN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Monumental və dəzgah heykəltaraşlığının inkişafında xidmətlərinə görə anadan olmasının əlli illiyi ilə əlaqədar olaraq Azərbaycan SSR xalq rəssamı, SSRİ Rəssamlar Akademiyasının müxbir üzvü Tokay Həbib oğlu Məmmədov Azərbaycan SSR Ali soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
sədri Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
katibi G.Əbilov

Bakı şəhəri, 18 iyul 1977-ci il

## T.A.XANLAROV YOLDAŞIN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Arxitektura sahəsində xidmətlərinə, fəal ictimai işinə görə və anadan olmasının əlli illiyi ilə əlaqədar olaraq respublika

Arxitekturlar İttifaqı idarə heyəti sədrinin birinci müavini Azərbaycan SSR əməkdar arxitekturu Tələt Ağasıbəy oğlu Xanlarov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmani ilə təltif edilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
sədri Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin
katibi G.Əbilov

Bakı şəhəri, 25 avqust 1977-ci il

## SSRİ XALQ ARTISTI L.M.VƏKİLOVANIN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏTƏLTİF EDİLMƏSİ HAQQINDA

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fərmanı

Azərbaycan balet sənətinin inkişafında böyük xidmətlərinə görə və anadan olmasının əlli illiyi ilə əlaqədar olaraq SSRİ xalq artisti, Leyla Məhəd qızı Vəkilova Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

**Bakı şəhəri, 28 yanvar 1977-ci il**

**RESPUBLİKA BƏDİİ ÖZFƏALİYYƏT KOLLEKTİVLƏRİNİN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI**

Özfəaliyyət incəsənətinin inkişafı sahəsində səmərəli işinə, Azərbaycan SSR-də zəhmətkeşlərin bədii özfəaliyyət yaradıcılığının birinci Ümumittifaq festivalında qazandıqları yaradıcılıq müvəffəqiyyətlərinə görə aşağıdakılar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin **Fəxri Fərmanı** ilə təltif edilsinlər:

Biləcəri stansiyası dəmiryolçuları mədəniyyət evi-xalq nəfəs alətləri orkestri.

Hərbi hissənin «Zvyozdoçka» xalq vokal-instrumental ansamblı.

Azərneft Mədənlərarası Yol Çəkilişi və Təmiri Trestinin traktorçusu M.Cananovun ailəsinin «Xatirə» xalq ansamblı.

Leytenant Şmidt adına maşınqayırma zavodu mədəniyyət sarayının xalq rəqs ansamblı.

Texniki peşə təhsili respublika mədəniyyət evinnn «Vixr» rəqs kollektivi.

Salyan rayon mədəniyyət evinin «Cəngi» zurnaçılar ansamblı.

Ucar rayon mədəniyyət-evinin xor kollektivi.

Sumqayıt şəhərində N.Nərimanov adına mədəniyyət evinin nəfəs alətləri orkestri.

Kirovabad şəhərində maarif işçiləri evinin «Gəncə» xalq estrada orkestri.

İliç rayon mədəniyyət evinin «Yallı» xalq rəqs ansamblı.

Lənkəran rayon mədəniyyət evinin «Şənlik» mahnı və rəqs ansamblı.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 19 oktyabr 1977-ci il.

* * *

## AZƏRBAYCAN SSR İNCƏSƏNƏT XADİMLƏRİNİN, MƏDƏNİYYƏT İŞÇİLƏRİNİN VƏ BƏDİİ ÖZFƏALİYYƏT İŞTİRAKÇILARININ AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Respublikada bədii özfəaliyyətin inkişafında xidmətlərinə və Azərbaycan SSR-də zəhmətkeşlərin bədii özfəaliyyət yaradıcılığının birinci Ümumittifaq festivalının hazırlanmasında və keçirilməsində fəal iştirak etdiklərinə görə aşağıdakılar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin **Fəxri Fərmanı** ilə təltif edilsinlər:

**Addullayev** Böyükağa Cabar oğlu - respublika Mədəniyyət Nazirliyi mədəni-maarıf müəssisələri idarəsinin rəisi.

**Abdullayev** Mikayıl Hüseyn oğlu — festivalı keçirən respublika təşkilat komitəsi təsviri və dekorativ tətbiqi sənət bölməsinin sədri, SSRİ xalq rəssamı.

**Averkina** Valentina Viktorovna — 26 Bakı komissarı adına mədəniyyət sarayı xalq teatrının iştirakçısı, Bakı dəniz limanının fəhləsi.

**Ağayev** Ramiz Ələkbər oğlu — Aşıq Ələskər adına respublika xalq yaradıcılıq evinin direktoru.

**Ələsgərov** Süleyman Əyyub oğlu — xalq çalğı alətləri ansamblı üzrə münsiflər heyətinin sədri, festivalın yekun konsertinin musiqi rəhbəri, Azərbaycan SSR xalq artisti.

**Əliyev** Əlimərdan Əbdüləzim oğlu — Biləcəri stansiyası dəmiryolçuları mədəniyyət evinin xalq nəfəs alətləri orkestrinin dirijoru, Azərbaycan SSR əməkdar incəsənət xadimi.

**Əliyev** Arif Hacıbaba oğlu - festivalı keçirən respublika təşkilat komitəsi foto və kino sənəti bölməsinin sədri, Azərbaycan Kinematoqrafçılar İttifaqı idarə heyətinin birinci katibi.

**Axundov** Firidun Abbas oğlu — Lənkəran rayon mədəniyyət evi «Şənlik» mahnı və rəqs ansamblının iştirakçısı, rayon dəri dispanserinin həkimi.

**Babayeva** Firuzə İsmayıl qızı — Naxçıvan rayon mədəniyyət evi bədii özfəaliyyət kollektivinin iştirakçısı, Naxçıvan rayonu Çeşməbasar kənd məktəbinin müəllimi.

**Gözəlov** Oqtay Abdulla oğlu — «1 May» mədəniyyət sarayı estrada ansamblının solisti. Bakı soyuducu zavodunun takelajçı ekspeditoru.

**Hüseynov** Fəxrəddin Hüseynəli oğlu — Qubadlı rayon mədəniyyət evi xalq çalğı alətləri ansamblının solisti, musiqi məktəbinin müəllimi.

**Zülfüqarova** Xumar Rza qızı — festivalın yekun konsertinin baş baletmeysteri, respublikanın əməkdar artistkası.

**Kərimov** Kərim Həmid oğlu — festivalın yekun konsertinin bədii rəhbəri, Azərbaycan SSR əməkdar incəsənət xadimi.

**Quliyev** Tofiq Ələkbər oğlu — festivalı keçirən respublika təşkilat komitəsi musiqi sənəti bölməsinin sədri, Azərbaycan SSR xalq artisti.

**Milyayev** Yuri Vladimiroviç — neftçilərin İliç adına mədəniyyət sarayı təsviri və dekorativ-tətbiqi sənət studiyasının iştirakçısı, respublika Neftayırma və Neft Kimyası Sənayesi Nazirliyi avtomobil nəqliyyatı dəstəsinin fəhləsi.

**Nəsirov** Nəsrulla Ələbbas oğlu — neftçilərin İliç adına mədəniyyət sarayı dram kollektivinin iştirakçısı, 26 Bakı komissarı adına Neft və Qazçıxarma İdarəsinin fəhləsi.

**Rəcəbova** Solmaz Cahangir qızı — kənd klubu bədii özfəaliyyətinin iştirakçısı, Şamxor rayonundakı H.Aslanov adına sovxozun üzümçüsü.

**Rüstəmov** İsfəndiyar Adil oğlu — Kədəbəy rayon mədəniyyət evi aşıqlar ansamblının rəhbəri.

**Rüstəmova** Validə Asəf qızı — neftayıranların S.Şaumyan adına mədəniyyət sarayı xalq teatrının iştirakçısı, V.İ. Lenin adına toxuçuluq kombinatının toxuçusu.

**Salmanova** Həqiqət Surxay qızı — Laçın rayon mədəniyyət evinin bədii rəhbəri, bədii özfəaliyyət iştirakçısı.

Sanatulov Şamil Zeynaloviç — AHİŞ-in mədəni-kütləvi şöbəsinin təlimatçısı.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 19 oktyabr 1977-ci il.

* * *

## RESPUBLİKA İNCƏSƏNƏT XADİMLƏRİNƏ VƏ MƏDƏNİYYƏT İŞÇİLƏRİNƏ AZƏRBAYCAN SSR FƏXRİ ADLARININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Respublikada bədii özfəaliyyətin inkişafında xidmətlərinə və Azərbaycan SSR-də zəhmətkeşlərin bədii özfəaliyyət yaradıcılığının birinci Ümumittifaq festivalının hazırlanmasında və keçirilməsində fəal iştirak etdiklərinə görə aşağıdakı incəsənət xadimlərinə və mədəniyyət işçilərinə fəxri adlar verilsinr:

**AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ**

**Usubov** Əli Teymur oğlu - festivalın yekun konsertinin baş quruluşçu rejissoru, V.İ.Lenin adına sarayın baş rejissoru.

**AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT**

## İŞÇİSİ

**Adullayeva** Limonat Nurulla qızı — Qax Rayon Xalq Deputatları Soveti mədəniyyət şöbəsinin müdiri.

**Aslanov** Əlikram Mirələkbər oğlu — leytenant Şmidt adına maşınqayırma zavodu mədəniyyət sarayının xalq rəqs kollektivinin baletmeysteri.

**Həsənov** Kamal Nəsrulla oğlu — Bakı şəhərində inşaatçıların mədəniyyət sarayının «Cəlalə» xalq müasir bal rəqsləri studiyasının baletmeysteri.

**Hüseynov** Məmmədağa Dadaş oğlu — Bakı şəhərində 26 Bakı komissarı adına mədəniyyət sarayının direktoru.

**Qasımov** İlyas Qaraş oğlu — Ağcabədi rayon mədəniyyət evinin direktoru.

**Məmmədov** Manaf Heydər oğlu — Salyan rayon mədəniyyət evinin «Cəngi» ansamblının bədii rəhbəri.

**Seliverstova** Nina Yakovlevna — Azərbaycan komsomolunun 50 illiyn adına Bakı elektrik maşınqayırma zavodu mədəniyyət və texnika sarayının bədii rəhbəri.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 19 oktyabr 1977-ci il.

* * *

## N.Q.SÜLEYMANOV YOLDAŞA AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Böyüməkdə olan nəslin kommunist tərbiyəsi işində xidmətlərinə görə və «Pioner» jurnalının 50 illiyi ilə əlaqədar

olaraq jurnalın redaktoru Nəriman Qoca oğlu **Süleymanov** yoldaşa Azərbaycan SSR əməkdar mədəniyyət işçisi fəxri adı verilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 14 noyabr 1977-ci il.

* * *

## «PİONER» JURNALI İŞÇİLƏRİNİN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Mətbuat sahəsində faal işlədiklərinə görə və «Pioner» jurnalının 50 illiyi ilə əlaqədar olaraq aşağıdakılar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsinlər:

**Zeynalov** Ələkbər Cavad oğlu — «Pioner» jurnalı»nın bədii redaktoru.

**Quliyeva** Zemfira Nəçəf qızı — _«Kommunist» nəşriyyatının sex ustası.

**Kazımov** Kamil Kazım oğlu — «Pioner» jurnalının baş ədəbi işçisi.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 14 noyabr 1977-ci il.

* * *

## RESPUBLİKANIN TƏSVİRİ SƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN SSR FƏXRİ ADLARININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet təsviri sənətini inkişaf etdirməkdə xidmətlərinə görə ağıdakılara fəxri adlar verilsin:

### AZƏRBAYCAN SSR XALQ RƏSSAMI

Rzaquliyev Elbəy Mirzəhəsan oğlu — rəssam.
Şahtaxtinskaya Elmira Həbibulla qızı — rəssam.

### AZƏRBAYCAN SSR ƏMƏKDAR İNÇƏSƏNƏT XADİMİ

Zeynalov İbrahim İsmayıl oğlu — heykəltəraş.
Sadıqzadə Oqtay Seyidhüseyn oğlu — rəssam.
Feyzullayev Lətif Əbdülbağı oğlu — rəssam.
Şamilov Elçan Seyfulla oğlu — heykəltəraş.

### AZƏRBAYCAN SSR ƏMƏKDAR RƏSSAMI

Əliyev Hüseyn Əlirza oğlu — rəssam.
Kazımov Davud Mehdi oğlu — rəssam,
Nərimanbəyov Vidadi Yaqub oğlu — rəssam.
Səfərova Xalidə Ələkbər qızı — rəssam.

### AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ

Əliyev Əziz Ağabala oğlu — sənətşünas.
Rzfizadə Rüfət İsgəndər oğlu -— sənətşünas.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 5 dekabr 1977-ci il.

* * *

# 1978

## RESPUBLIKANIN TEATR XADIMLƏRINƏ AZƏRBAYCAN SSR FƏXRI ADININ VERIDMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Sovet teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

**Azərbaycan SSR xalq artisti**

Babayeva Çimnaz Məmməd qızı – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet solisti.

Mənsurov Bəhram Süleyman oğlu - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik opera və Balet Teatrı orkestrinin solisti.

Pletnyov Vladimir Nikolayeviç - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet solisti.

Sadıqova Məhluqə Ələsgər qızı – M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti.

Şirəliyeva Tamilla Xudadat qızı – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet solisti.

**Azərbaycan SSR əməkdar incəsənət xadimi**

Əliverdibəyov Kazım Ağalar oğlu – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru.

Səlimova Canetta Əlibəy qızı – S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının quruluşçu rejissoru.

**Azərbaycan SSR əməkdar artisti**

Əsədov Vaqif Firidun oğlu – C.Məmmədquluzadə adına Naxçıvan Musiqili Dram Teatrının artisti.

Əhmədov Mobil Salman oğlu – Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının artisti.

Babayev Arif İmran oğlu – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.

Qriqoryan Rafael Qurkenoviç – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.

Duxovnaya Lyudmila Semyonovna – S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının artisti.

Qasımova Fidan Əkrəm qızı – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.

Qasımov Faiq Məsim oğlu – C.Cabbarlı adına Kirovabad Dövlət Dram Teatrının artisti.

Məmmədova Tamilla Nəzər qızı – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet solisti.

Məlikov Adil İbrahim oğlu – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.

Mehdiyev Firidun Mehdi oğlu – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.

Mikaelyan Mamikon Soqomokoviç – M.Qorki adına Stepanakert Dövlət Dram Teatrının artisti.

Naibov Firdovsi Niyaz oğlu – M.Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının artisti.

Sadıqov Mais Qurban oğlu – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 10 yanvar 1978-ci il.

## ŞAİR Y.V.FİDLERİN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN
FƏRMANI

Sovet ədəbiyyatının inkişafında xidmətlərinə görə və anadan olmasının 80 illiyi ilə əlaqədar olaraq şair Yuri Vladimiroviç Fidler Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

AZƏRBAYCAN SSR Ali Soveti Rəyasət Heyətinin sədri
Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi
G.Əbilova

Bakı şəhəri, 27 iyun 1978-cu il.

## RESPUBLİKANIN TEATR SƏNƏTİ XADİMLƏRİNƏ AZƏRBAYCAN SSR FƏXRİ ADLARININ VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

**AZƏRBAYCAN SSR XALQ ARTİSTİ:**

Babayeva Çimnaz Məmməd qızı – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet solisti, Mənsurov Bəhram Suleyman oğlu - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının orkestrinin solisti, Pletnyov Vladimir Nikolayeviç - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet solisti, Sadıqova Məhluqə Ələsgər qızı – M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti, Şirəliyeva Tamilla Xudadat qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet solisti.

**AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ: -**

**Əliverdibəyov Kazım Ağalar** oğlu - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru, Səlimova Canetta Əlibəy qızı – S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının quruluşcu rejıssoru.

**AZƏRBAYCAN SSR ƏMƏKDAR ARTISTI:**

Əsədov Vagif Firudun oğlu - C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının artisti, Əhmədov Mobil Salman oğlu – Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının artisti, Babayev Arif İmran oğlu - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Qriqoryan Rafael Qurgenoviç -

M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Duxovnaya Lyudmila Semyonovna - S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının artisti, Qasımova Fidan Əkrəm qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Qasımov Faiq Məsim oğlu – C.Cabbarlı Dövlət Dram Teatrının artisti, məmmədova Tamilla Nəzər qızı - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Məlikov Adil İbrahim oğlu - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Naibov Firdovsi Niyaz Oğlu – M.Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının artisti, Salmanov Mais Qurban oğlu - M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.

**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q. XƏLİLOV**
**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 10 yanvar 1978-ci il.

## RESPUBLİKANIN MUSİQİ İFAÇILIĞI SƏNƏTİ XADİMLƏRİNƏ AZƏRBAYCAN SSR FƏXRİ ADLARININ VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet musiqi ifaçiliği inkişafında xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

**AZƏRBAYCAN SSR XALQ ARTİSTİ:**

Əliyev Habil Mustafa oğlu – M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti, Bədəlbəyli Fərhad Şəmsi oğlu – M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti, Məlikova Afaq Süleyman qızı - Azərbaycan Dövlət Rəqs Ansamblının solisti.

**AZƏRBAYCAN SSR ƏMƏKDAR ARTISTI:**

Babayev Rafiq Fərzi oğlu – Dövlət Mahnı Teatrının musiqi rəhbəri, Babayev Rauf Yusif oğlu – "Qaya" Azərbaycan Dövlət konsert-estrada orkestrinin solisti, Babazadə Zitta Şakir qızı - Dövlət Mahnı Teatrının solisti, Hacıyev Arif Hüseyn oğlu - "Qaya" Azərbaycan Dövlət konsert-estrada orkestrinin solisti, Hüseynov İlyas hüseyn oğlu – Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin solisti, Yelisavetski Lev Abromoviç - "Qaya" Azərbaycan Dövlət konsert-estrada orkestrinin solisti, Qədimov Davud Bala oğlu – Azərbaycan SSR Mədəniyyət Nazirliyi repertuar-redaksiya kollegiyasının üzvü, Quluzadə Fərhad Qasım oğlu - Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin solisti, Mirzəyev Teymur İbrahim oğlu - "Qaya" Azərbaycan Dövlət konsert-estrada orkestrinin bədii rəhbəri, Rəsulova Validə Tələt qızı – pianoçu Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının müəllifi, Sərdarov Yuri Qriqoryeviç - Dövlət Mahnı Teatrı orkestrinin solisti.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q. XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 11 yanvar 1978-ci il.

## C.CABBARLI ADINA YEREVAN DÖVLƏT AZƏRBAYCAN DRAM TEATRI YARADICI İŞÇİLƏRİNİN

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Bakı şəhərinə qastrol səfərində müvəffəqiyyətli çıxışlarına və zəhmətkeşlərinə nümunəvi xidmət göstərdiklərinə görə aşağıdakılar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsinlər:

Qafarova Raya Talıb qızı – aktrisa.
İsmayılova Elmira Məhərrəm qızı – aktrisa.
Orucov Hidayət Xuduş oğlu – teatrın direktoru.

**Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 24 noyabr 1978-ci il.

## --YAZIÇI İ.H.QASIMOVUN LENİN ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet ədəbiyyatının inkişafında böyük xidmətlərinə, səmərəli ictimai fəaliyyətinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq yazıçı İmran Haşım oğlu Qasımov Lenin ordeni ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri**
**L.BREJNEV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri**
**M.GEORQADZE**

Moskva, Kreml. 1 dekabr 1978-ci il.

## ƏDƏBIYYAT INCƏSƏNƏT VƏ ARXITEKTURA SAHƏSINDƏ 1978-CI IL SSRİ DÖVLƏT MÜKAFATLARININ VERILMƏSI HAQQINDA SOV. İKP MK-NIN VƏ SSRİ NAZIRLƏR SOVETININ QƏRARI

Sov. İKP Mərkəzi komitəsi və SSRİ Nazirlər Soveti yanında ədəbiyyat, incəsənət və arxitektura sahəsində Lenin və SSRi Dövlət mükafatları Komitəsinin təkliflərini nəzərdən keçirərək, 1978-ci il SSRİ Dövlət mükafatlarını aşağıdakılara verməyi qərara alırlar.

1. Ykrayna SSR xalq artisti, Q.Q Verevki adına Döviət əməkdar akademik Ukrayna xalq xorunun bədii rəhbəri Anatoli Timofeyeviç Avdiyevskiyə- 1974- 1976-cı illərin konsert proqramları üçün.
2. Yazıçı Anatoli Georgiyevin Aleksinə - "İştirak edənlər və ifaçılar", "Srağagün və birigün", Beşinci sırada üçüncü", "Sərsəm Yevdokiya" povestləri üçün (uşaqlar üçün ədəbiyyat və incəsənət əsərlərinə görə mükafat).
3. Ədəbiyyatşünaslar, redaksiya şurasının üzvləri- SSRİ Elmlər Akademiyasının müxbir üzvü İvan İvanoviç Anisimova (ölümdən sonra), filologiya elmləri namizədi Aleksandr İvanoviç Puzikova, fəlsəfə elmləri namizədi İrakli İosifoviç Çxikvişviliyə, tərcüməçi Nikolay Mixayloviç, Lyubimova, RSFSR əmkəkdar rəssamı Dmitri Spiridonoviç Bistiyə, RSFSR xalq rəssamı Orest Georgiyeviç Vereyskiyə- 200 cildlik "Ümumdünya kitabxanası" nəşrinin elmi prinsiplərinin işlənib hazırlanması və həyata keçirilməsi üçün: Tekstoloji təhlil, ədəbiyyatşünaslıq tədqiqatları, bədii tərcümə və illustrsiya.

4. Yazıçı Viktor Petroviç Astafyevə - “Balıqlar padşahı” kitabı üçün.
5. Sovet Ordusunun A.V. Aleksandrov adına iki dəfə Qırmızı Bayraq ordenli mahnı və rəqs ansamblının solistləri – SSRİ xalq artisti Yevgeni Mixayloviç Belyayevə, SSRİ xalq artisti Aleksey Tixonoviç Sergeyevə - son illərin konsert proqramları üçün.
6. Arxitektorlar- Pavel İsaakoviç Viqderqauza, Vladimir Petroviç Kişkana, İqor Nikitoviç Sedaka, Dobrınya Mixayloviç Smidanova, yaşıllaşdırma mühəndisləri – Bronislava Frantsevna Devyoltovskayaya, Gennadi Petroviç Rodionova, inşaatçı mühəndislər- Vasili Petroviç Miponova, Vladimir Fyodoroviç Pekluna- Donetck şəhəri mərkəzinin landşaft arxitekturası üçün.
7. Şair Andrey Andreyeviç Voznesenskiyə - “ Vitraj ustası” şerlər kitabı üçün.
8. RSFSR xalq artisti, quruluşçu peşissor və ssenari müəllufi Vladimir Aleksandroviç Voljanskiyə - “Promtey” sirk tamaşası üçün.
9. Yazıçı Daniil Aleksandroviç Qraninə (Germana) – Klavdiya vilor” povesti üçün.
10. SSRİ xalq rəssamı Aleksey Mixayloviç Qritsya – “Okada bahar günü” , “May”, Bahar istisi”, “ Bahar toranları. Dərə”, “May axşamı”, Aylı bahar axşamı”, kol basmış parkda” mənzərələr silsiləsi üçün.
11. Ssenari müəllifləri Vladimir Stepanoviç Qubarevə, Vilionar Vasilyeviç Yeqorova, Anatoli Qriroryeviç Lısenkoya, Eduard Mikayloviç Saqalayevə, RSFSR əməkdar mədəniyyət işçisi Qalina Mixaylovna Şeryovaya, Yevgeni Petroviç Şirokova, rejissorlar – svetlana İliniçna Annapolskayaya, Stanislav Alekseyeviç Belyaninova, Anatoli Vasilyeviç Korvyakova, Əməkdar artisti, aktyor Yuri İvanoviç Kayurova - “Bizim tərcümeyi-hal” televiziya sənədli filmləri silsiləsi üçün.

12. RSFSR xalq artisti, rejissor Georgi Nikoloyeviç Daneliyaya, rolların ifaçıları – Gürcüstan SSR əməkdar artisti Vaxtanq Konstantinoviç Kikabidzeyə, Ermənistan SSR xalq artisti Frunzik Muşeqeviç Mkrtçyana - “Mimino” bədii filmi üçün.
13. RSFSR xalq artisti, professor Mariya Osipovna Knebelə - “Pedaqogika poeziyası” kitabı üçün.
14. Azərbaycan SSR xalq rəssamı Tokay Həbib oğlu Məmmədova – Bakı şəhərində Məşədi Əzizbəyovun abidəsi üçün.
15. Sosialist Əməyi Qəhrəmanı, kino jurnalının bədii rəhbəri Sergey Vladimiroviç Mixalkova, RSFSR əməkdar incəsənət xadimi, baş rejissor Aleksandr Aronoviç Stolbova, operatorlar – Yuri İvanoviç Yeqorova, RSFSR əməkdar incəsənət xadimi Sergey İvanoviç Kiselyova – “Fitil” Ümumittifaq satirik juurnalı üçün. Son illərin buraxılışları.
16. Şair Cuban Muldaqaliyeva – “Qartal düzü” və “Kənd” poemaları üçün.
17. Ssenari müəllifləri – Aleksey Petroviç Naqornıya, Geli Trofimoviç Ryabova, rejissor Qriqori Romanoviç Koxana, operator Feliks İliç Gileviçə, rolların ifaçıları – RSFSR əməkdar artisti Yevgeni İliç Jarikova, Natalya Fyodorovna Qvozdikovaya – “İnqilabdan yaranmışlar” bədii televiziya filmləri silsiləsi üçün.
18. Arxitektorlar – RSFSR əməkdar arxitektoru, işin rəhbəri Mark Arturoviç Orlova, Yuli Vladimiroviç Raniniskiyə, Volya İosifoviç Koserjevskiya, RSFSR əməkdar rəssamı, heykəltəraş Yuri Vladimiroviç Aleksandrova, RSFSR əməkdar inşaatçısı, mühəndis-konstruktor Vitali İosifoviç Lepskiyə, əməkdar inşaatçısı Qriqori Prokofyeviç Artyuşşenkoya, inşaatçı mühəndislər – Valeri Aleksandroviç Bruntsevə, Aleksandr Matveyeviç Morozova, Yevgeni Andreyeviç Çerkaşinə - Suzdal şəhərində baş turist kompleksinin arxitekturası üçün.

19. RSFSR və Özbəkistan SSR xalq rəssamı, heykəltəraş Dmitri Borisoviç Ryabiçevə, RSFSR əməkdar arxitektoru Yevgeni İvanoviç Kuturevə, RSFSR xalq rəssamı Mark İvanoviç Malyutinə - İvanova şəhərində "İnqilab mübarizlərinə" abidəsi üçün.
20. RSFSR xalq rəssamı Aleksey Petroviç Tkaçevə, RSFSR xalq rəssamı Sergey Petroviç Tkaçevə - "Ot çalanı günləri" və "İyun günləri" rəsm əsərləri üçün.

**Sov.İKP Mərkəzi Komitəsinin katibi**
**L.Brejnev.**

21. SSRİ xalq artisti, rejissor Georgi Aleksandroviç Tovstonoqova, RSFSR əməkdar incəsənət xadimi, rəssam Eduard Stepanoviç Koçerkinə, rolların ifaçıları – SSRİ xalq artisti Kirill Yuryeviç Lavrova – M.Qorki adına Leninqrad Akademik Böyük Dram Teatrında "Sakit don" tamaşası üçün.
22. RSFSR xalq artisti, bəstəkar Aleksandr Nikoloyeviç Xolminova – son illərin əsərləri: "Yer üzündə həyat xatirinə" kontatası, "Şinel" və "Kolyaska" operalarının musiqisi üçün.
23. Estoniya SSR xalq artisti, dirijor Nem Auqostoviç Yarviyə - 1974 – 1976-cı illərin konsert proqramları üçün.

**SSRİ Nazirlər Sovetinin sədri**
**A.Kosıgin**

***

## RESPUBLİKANIN MƏDƏNİYYƏT VƏ MAARİF İDARƏLƏRİ İŞÇİLƏRİNƏ AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Zəhmətkeşlərə mədəni xidmət sahəsində xidmətlərinə görə aşağıdakılara Azərbaycan SSR əməkdar mədəniyyət işçisi fəxri adı verilsin:

Ağazadə Məsmə Məşədi qızı – M.Qorki adına mərkəzi səyyar kitabxana fondunun müdiri.

Ələkbərov Firdovsi Xəlil oğlu – Kirovabad şəhərindəki maarif işçiləri evi xalq estrada orkestrinin rəhbəri.

Əliyev Abidin Əlihəsən oğlu – Lerik rayonundakı Monidigah knəd mədəniyyət evinin direktoru.

Əsədova Tamara Adil qızı – V.İ.Lenin Mərkəzi muzeyi Bakı filialının baş elmi əməkdaşı.

Əhmədov Fərman Hümbət oğlu – Şamxor rayon mədəniyyət evinin direktoru.

Axundov Şəmsəddin Əşrəf oğlu – AHİŞ mədəni-kütləvi iş şöbəsinin müdiri.

Dəmirov (Şirvanski) Əlimran Müslüm oğlu – Bakı şəhərindəki V.İ.Lenin adına mədəniyyət sarayı Azərbaycan xalq teatrının rejissoru.

Dibrova Vera Vasileyevna - Belinski adına mərkəzi şəhər uşaq kitabxanasının kitabxanaçısı.

İmranov ömər Hacımusa oğlu – Zaqatala rayonun Muxaq kənd kitabxanasının müdiri.

İsmayılova Miniş Bəhram – Füzuli rayon uşaq kitabxanasının müdiri.

Qədirov Əjdər Tahir oğlu – Bərdə rayonun Yeni Daşkənd mədəniyyət evinin direktoru.

Quliyeva Güllü Novruz qızı – Naxçıvan MSSR Ordubad rayonundakı Nüsiüs kənd mədəniyyət evinin direktoru.

Kazımov Kamal Allahqulu oğlu – Bakı şəhərindəki S.Şaumyan adına mədəniyyət sarayı azərbaycan xalq teatrının rejissoru.

Mahmudov Kamal Ələkbər oğlu – Xaçmaz konserv kombinatı klubunun kinomexaniki.

Mehriban Xanbacı Ağaverdi qızı – Bakı şəhərindəki Y.zevin adına kitabxananın müdiri.

Səidova Sara Dadaş qızı – Bakı Şəhər Xalq Deputatları Soveti Mədəniyyət şöbəsinin müdiri.

Salamov Mövsüm Əsgər oğlu – Şirvanşahlar sarayı kompleksi tarix-arxitektura muzey-qoruğunun direktoru.

Tuzenkeviç Yuliya Teofilovna – V.İ.Lenin Mərkəzi Muzeyi Bakı filialının baş elmi əməkdaşı.

Fradkin Mark Lazareviç – Kirovabad şəhərindəki 2 nomrəli musiqi məktəbinin direktoru.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 24 may 1978-cu il.

## --KİNOOPERATOR M.M.MUSTAFAYEVİN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet kinematoqrafiyasının inkişafında xidmətlərinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq respublikanın əməkdar incəsənət xadimi kinooperator Mirzəbəy Mirzəbaxış oğlu Mustafayev yoldaş Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri
Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi

G.Əbilova

Bakı şəhəri, 22 iyun 1978-cu il.

## --BƏSTƏKAR H.D. XANMƏMMƏDOVUN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet musiqi sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq respublikanın əməkdar incəsənət xadimi bəstəkar Hacı Dadaş oğlu Xanməmmədov yoldaş Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri
Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi
G.Əbilova

Bakı şəhəri, 22 iyun 1978-cu il.

## TARIX VƏ MƏDƏNIYYƏT ABIDƏLƏRININ MÜHAFƏZƏSI VƏ ONLARDAN ISTIFADƏ HAQQINDA AZƏRBAYCAN SOVET SOSIALIST RESPUBLIKASININ QANUNU

Könüllü birləşmə və hüquq bərabərliyi əsasında tərkibinə digər müttəfiq respublikalarla birlikdə Azərbaycan Sovet Sosialist Respublikasının daxil olduğu SSRİ-də tarix və mədəniyyət abidələri xalqın sərvətidir. Sovet dövləti mədəni irsə münasibətin Lenin prinsiplərinə əməl edərək, kommunizm quruculuğunun xeyrinə abidələrin mühafizəsi və onlardan səmərəli istifadə olunması üçün hər cür şərait yaradır.

SSRİ xalqlarının tarix və mədəniyyət abidələri keçmiş nəsillərin maddi və mənəvi həyatını, vətənimizin çoxəsirlik tarixini onun azadlığı və istiqlaliyyəti uğrunda xalq kütlələrinin mübarizəsini inqilabi hərəkatı Sovet sosialist dövlətinin təşəkkülünü və inkişafını əks etdirir.

Böyük Oktyabr sosialist inqilabının vətəndaş müharibəsinin və Böyük vətən müharibəsinin mühüm hadisələri fəhlə sinfinin kolxozçu kəndlilərin və ziyalıların əmək hünərləri ölkəmizin xalqlarının mehriban dostluğu sosializm və kommunizm qurmaq uğrunda sovet xalqının qəhrəmanlıq mübarizəsi tarix və mədəniyyət abidələrində öz təcəssümünü tapmışdır.

SSRİ xalqlarının tarix və mədəniyyət abidələri dünya mədəni irsinin ayrılmaz bir hissəsidir, dünya sivilizasiyasının inkişafına ölkəmizin xalqlarının böyük xidmət göstərdiklərini sübut edir.

SSRİ-də abidələr elmin, xalq maarifinin və mədəniyyətin inkişafı, zəhmətkeşlərdə yüksək sovet vətənpərvərliyi hissinin formalaşması, onların ideya-mənəvi beynəlmiləl və estetik tərbiyəsi məqsədlərinə xidmət edir.

Abidələri mühafizə etmək dövlət orqanlarının və ictimai təşkilatların mühüm vəzifəsidir. Tarix və mədəniyyət abidələrinə qayğı göstərmək SSRİ-nin hər bir vətəndaşının vətənpərvərlik borcudur.

Sovet qanunvericiliyi tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə işinin yaxşılaşmasına bu sahədə qanunçuluğun daha da möhkəmlənməsinə fəal sürətdə kömək etməlidir.

## 1. ÜMUMİ QAYDALAR.

**Maddə 1. Tarix və mədəniyyət abidələri**

Xalqın həyatındakı tarixi hadisələrlə, cəmiyyətin və dövlətin inkişafı ilə əlaqədə olan qurğular xaritə yerləri və əşyalar

tarixi, elmi, bədii və ya digər mədəni əhəmiyyəti olan maddi və mənəvi yaradıcılıq əsərləri tarix və mədəniyyət abidələri sayılır.

Azərbaycan SSR ərazisində yerləşən bütün tarix və mədəniyyət abidələri dövlət tərəfindən mühafizə edilir.

**Maddə 2. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında sovet qanunvericiliyinin vəzifələri**

Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında sovet qanunvericiliyi abidələrin indiki və gələcək nəsillər üçün qorunub saxlanmasını təmin etmək, abidələrin elmi cəhətdən öyrənilməsi və zəhmətkeşlərin kommunist tərbiyəsi xeyrinə təbliğ olunması üçün onlardan istifadə etmək məqsədilə abidələrin mühafizəsi və onlardan istifadə sahəsində ictimai münasibətləri tənzim edir.

**Maddə 3. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyi**

Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyi "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" SSR İttfiqı qanunundan və SSR İttifaqının həmin qanuna müvafiq surətdə qəbul edilən digər qanunvericilik aktlarından bu qanundan və tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında Azərbaycan SSRİ-nin və başqa qanunvericilk aktlarından ibarətdir.

**Maddə 4. Tarix və mədəniyyət abidələri üzərində mülkiyyət**

Tarix və mədəniyyət abidələri dövlətin habelə kolxozların digər kooperativ təşkilatlarının onların birliklərinin ictimai təşkilatların mülkiyyətində və vətəndaşların şəxsi mülkiyyətində olur.

**Maddə 4. Tarix və mədəniyyət abidələrini özgəsinə vermək qaydası**

Tarix və mədəniyyət abidələrinin satılmasına, bağışlanmasına və başqa şəkildə özgəsinə verilməsinə dövlət

abidələri mühafizə orqanlarını əvvəlcədən xəbərdar etməklə yol verilir. Abidələr satılarkən onların satın alınmasında üstünlük dövlətə məxsusdur.

Tarixi, elmi, bədii və digər mədəni əhəmiyyəti olan əşyalar, onların sahibi olmadıqda və ya sahibi məlum olmadıqda, yaxud da sahibi qanuna görə həmin əşyalara hüququnu itirdikdə, qanunla başqa şərt nəzərdə tutulmursa, dövlətin mülkiyyətinə keçir.

**Maddə 6. Tarix və mədəniyyət abidələrinin növləri**

Tarix və mədəniyyət abidələrinə bu qanunun 1-ci maddəsinə uyğun olaraq aşağıdakılar aiddir:

tarix abidələri – xalqın həyatında çox mühüm tarixi hadisələrlə, cəmiyyətin və dövlətin inkişafı ilə, inqilabi hərəkatla, Böyük Oktyabr sosialist inqilabı, vətəndaş müharibəsi və Böyük vətən müharibəsi, sosializm və komunalizm quruculuğu, beynəlxalq həmrəyliyin möhkəmləndirilməsi ilə, habelə elm və texnikanın, xalqların mədəniyyət və məişətinin inkişafı ilə, görkəmli siyasi dövlət və hərbi xadimlərin xalq qəhrəmanlarının, elm, ədəbiyyat və incəsənət xadimlərinin həyatı ilə əlaqədar binalar, qurğular, xatirə yeriləri və əşyalar;

arxeologiya abidələri – qədim şəhər yerləri, kurqanlar, qədim məskənlərin, istehkamların, istehsalatların, kanalların, yolların qalıqları, qədim qəbiristanlar, daş heykəllər, qayaüstü təsvirlər, qədim əşyalar, qədim yaşayış məntəqələrinin tarixi mədəni təbəqəsinin sahələri;

şəhərsalma və arxitektura abidələri – arxitektura ansamblları, kompleksləri, tarixi mərkəzlər, məhəllələr, meydanlar, küçələr, şəhərlərin və digər yaşayış məntəqələrinin qədim planlaşdırılmasının və tikilişinin qalıqları; mülki, sənaye, hərbi, dini arxitektura, xalq memarlığı qurğuları, habelə bunlarla əlaqədar manumental, təsviri, dekrativ-tətbiqi, bağ-park sənət əsərləri, təbii landşaftlar;

incəsənt abidələri – monumental, təsviri, dekorativ-tətbiqi və başqa növ sənət əsərləri;

sənədli abidələr – dövlət hakimiyyəti və dövlət idarə orqanlarının aktları, digər yazılı və qrafik sənədlər, kino-foto sənədləri və səsyazıları, habelə qədim və digər əlyazmaları və arxivlər, folklor və musiqi yazıları, nadir çap nəşrləri.

Tarixi, elmi, bədii və ya digər mədəni əhəmiyyəti olan başqa obyektlər də tarix və mədəniyyət abidələrinə aid edilər bilər.

**Maddə 7. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə sahəsində dövlət idarəetmə işləri**

Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə sahəsində dövlət idarəetmə işlərini "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" SSRİ qanununa uyğun olaraq SSRİ Nazirlər Soveti, Naxçıvan MSSR Nazirlər Soveti, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi, rayon, şəhər, kənd və qəsəbə xalq deputatları Sovetlərinin icraiyyə komitələri, habelə SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyinə müvafiq surətdə buna xüsusi vəkil edilmiş dövlət abidələri mühafizə orqanları həyata keçirirlər.

**Maddə 8. Tarix və mədəniyyət abidələrinin mühafizə üçün xüsusi vəkil edilmiş dövlət orqanları**

Azərbaycan SSR-də abidələri mühafizə üçün xüsusi vəkil edilmiş dövlət orqanları Azərbaycan SSR Mədəniyyət Nazirliyi, Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Arxiv İdarəsi və onların yerlərindəki orqanlarıdır.

**Maddə 9. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə sahəsində yerli xalq deputatları Sovetlərin icraiyyə komitələrinin səlahiyyəti**

Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin İcraiyyə komitəsi, rayon, şəhər, kənd və qəsəbə xalq deputatları Sovetlərinin icraiyyə komitələri Sovetin ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin aşkara çıxarılmasını, uçota alınmasını, mühafizə edilməsini və onlardan istifadə olunmasını öz hüquqları çərçivəsində təmin edir, abidələrin mühafizəsi, onlardan istifadə edilməsi və onların təbliği sahəsində tədbirlər görülməsinə ictimaiyyəti cəlb edir, müəssisə, təşkilat və

idarələrin onlar üzərində hamiliyini təşkil edir, tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqındakı qanunvericiliyə əməl olunmasını təmin edirlər.

**Maddə 10. Xüsusi olaraq vəkil edilmiş dövlət abidələri mühafizə orqanlarının səlahiyyəti**

Xüsusi olaraq vəkil edilmiş dövlət abidələri mühafizə orqanlarının səlahiyyəti SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyi ilə, habelə həmin orqanlara dair müəyyən edilmiş qaydada təsdiq olunan əsasnamələrlə müəyyən edilir.

**Maddə 11. Xüsusi olaraq vəkil edilmiş tarix və mədəniyyət abidələrinin mühafizə orqanlarının göstərişlərinin məcburiliyi**

Azərbaycan SSR Mədəniyyət və Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinin səlahiyyətinə aid edilmiş tarix və mədəniyyət abədələrinin mühafizəsi və onlardan istifadə məsələləri barəsində onların göstərişləri bütün nazirliklər və baş idarələr, müəssisələr, təşkilatlar və idarələr üçün habelə vətəndaşlar üçün məcburidir.

**Maddə 12. Tarix və mədəniyyət abidələri ilə əlaqədar olan ətraf təbii obyektlərinin mühafizəsi və onlardan istifadə edilməsi**

Tarix və mədəniyyət abidələri ilə əlaqədar olan təbiət abidələrinin və digər ətraf təbii mühit obyektlərinin mühafizəsi və onlardan istifadə edilməsi lazımi hallarda Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Təbiəti Mühafizə Komitəsi ilə və digər əlaqədar orqanlarla razılaşdırılmaqla, dövlət abidələri mühafizə orqanları tərəfindən həyata keçirilir.

**Maddə 13. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə üzərində dövlət nəzarəti**

Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə üzərində dövlət nəzarətində məqsəd abidələrin mühafizəsinin, abidələrdən istifadə edilməsinin, onların uçota alınmasının və bərpa olunmasının müəyyən edilmiş qaydasına, habelə SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyi ilə nəzərdə tutulan digər qaydalara əməl etmək vəzifələrinin bütün

nazirliklər baş idarələr, dövlət, kooperativ, ictimai müəssisələr, təşkilatlar, idarələr və vətəndaşlar tərəfindən yerinə yetirilməsini təmin etməkdir.

**Maddə 14. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə üzərində dövlət nəzarətini həyata keçirən orqanlar**

Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə üzərində dövlət nəzarətini xalq deputatları Sovetləri, onların icra və sərəncam orqanları, SSR İttifaqı və Azərbaycan SSR-in qanunvericiliyinə uyğun olaraq buna xüsusi vəkil edilmiş dövlət orqanları həyata keçirirlər.

**Maddə 15. Abidələrinin mühafizəsi və onlardan istifadə tədbirlərinin həyata keçirilməsinə ictimai təşkilatların və vətəndaşların iştirakı**

Həmkarlar ittifaqları, gənclər təşkilatları, elmi cəmiyyətlər, yaradıcılıq ittifaqları və digər ictimai təşkilatlar, habelə vətəndaşlar tarix və mədəniyyət abidələrinin mühafizəsi, onlardan istifadə edilməsi, onların aşkara çıxarılması, uçota alınması, bərpası və həmin abidələr haqqında biliklərin yayılması tədbirlərinin həyata keçirilməsində dövlət orqanlarına yardım göstərirlər.

İctimai təşkilatlar tarix və mədəniyyət abidələrinin qorunmasının təmin edilməsi işində həmin təşkilatların nizamnamələrinə (əsasnamələrinə), SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq iştirak edirlər.

Tarix və mədəniyyət abidələrinin qorunmasına qalmaq vətəndaşların borcu və vəzifəsidir.

**Maddə 16. Abidələrinin mühafizəsində və onlardan istifadə olunmasında Azərbaycan Tarix və Mədəniyyət Abidələrini Könüllü Mühafizə Cəmiyyətinin iştirakı**

Azərbaycan Tarix və Mədəniyyət Abidələrini Könüllü Mühafizə Cəmiyyəti əhalinin geniş təbəqələrinin abidələrin mühafizəsində fəal surətdə və bilavasitə iştirak etməyə cəlb olunmasına kömək edir, abidələri, abidələrin mühafizəsi və onlardan istifadə haqqındakı qanunları təbliğ edir, dövlət abidələri

mühafizə orqanlarının işinə fəal kömək edir, abidələrin qorunmasına və onlardan düzgün istifadə olunmasına ictimai nəzarət edir, tarix və mədəniyyət abidələri üzərində müəssisə, təşkilat və idarələrin hamiliyini təşkil edir.

Tarix və mədəniyyət abidələrini könüllü mühafizə cəmiyyəti tarix və mədəniyyət abidələrinin qorunmasının təmin edilməsinə yönəldilən işdə öz nizamnaməsinə, SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyinə uyğun surətdə iştirak edir.

**Maddə 17. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə olunmasında Azərbaycan SSR Elmlər Akademiyasının iştirakı**

- Azərbaycan SSR Elmlər Akademiyası ona tapşırılmış vəzifələrə uyğun olaraq tabeliyindəki muzeylərdə və başqa idarələrdə olan tarix və mədəniyyət abidələrinin mühafizəsini və onlardan istifadə olunmasını təmin edir, Akademiyanın Nizamnaməsi, SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyi ilə ona tapşırılan digər sanksiyaları yerinə yetirir.

**Maddə 18. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə olunması sahəsindəki tədbirlərin həyata keçirilməsində müəssisə, təşkilat və idarələrin iştirakı**

Dövlət müəssisələri, təşkilatları və idarələri, kolxozlar və digər kooperativ təşkilatları tarix və mədəniyyət abidələrinin aşkara çıxarılması, mühafizəsi, onlardan istifadə olunması, onların uçota alınması, bərpa edilməsi, onlar haqqındakı biliklərin yayılması sahəsindəki tədbirlərin həyata keçirilməsində abidələri mühafizə və onlardan istifadə orqanlarına yardım göstərirlər.

Müəssisə, təşkilat və idarələr tarix və mədəniyyət abidələrinə hamilik edə bilərlər.

**Maddə 19. Tarix və mədəniyyət abidələrinin təbliğində və tanıdılmasında mədəniyyət, xalq maarifi, elm orqanlarının və idarələrinin iştirakı**

Mədəniyyət, xalq maarifi, elm orqanları və idarələri tarix və mədəniyyət abidələri haqqında biliklərin əhali arasında təbliğ olunmasında və yayılmasında fəal iştirak edir, bu abidələrin

öyrənilməsinə uşaqların və gənclərin geniş cəlb olunmasına, onların mühafizəsində əhalinin iştirakına kömək edirlər.

## II TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN DÖVLƏT UÇOTU

**Maddə 20. Tarix və mədəniyyət abidələrinin dövlət uçotunun təşkili**

Tarix və mədəniyyət abidələri, kimin mülkiyyətində olmasına baxmayaraq, dövlət uçotuna alınmalıdır.

Tarix və mədəniyyət abidələrinin və onlardan istifadə haqqında SSRİ qanununa uyğun olaraq tarix və mədəniyyət abidələri SSRİ Nazirlər Sovetinin müəyyən etdiyi qaydada dövlət uçotuna alınır.

**Maddə 21. Tarix və mədəniyyət abidələrinin ümumittifaq, respublika və yerli əhəmiyyətli abidələrə aid edilməsi**

Tarix və mədəniyyət abidələrinin uçotunu və mühafizəsini təşkil etmək məqsədi daşınmaz abidələr ümumittifaq, respublika və yerli əhəmiyyətli abidələrə bölünür.

Tarix və mədəniyyət abidələri ümumittifaq, respublika və yerli əhəmiyyətli abidələr kateqoriyasına SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq aid edilir.

Respublika əhəmiyyətli tarix və mədəniyyət abidələrinin siyahıları Azərbaycan SSR Mədəniyyət Nazirliyinin təqdimi üzrə Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təsdiq edilir.

Yerli əhəmiyyətli tarix və mədəniyyət abidələrinin siyahıları rayon, şəhər (respublika tabeliyində olan şəhər) xalq deputatları Sovetləri icraiyyə komitələrinin Azərbaycan SSR Mədəniyyət Nazirliyi ilə razılaşdırılmış təqdimi üzrə Azərbaycan SSR Nazirlər Soveti tərəfindən Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində isə müvafiq surətdə Naxçıvan MSSR Nazirlər Soveti tərəfindən, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi tərəfindən təsdiq edilir.

Respublika və yerli əhəmiyyətli tarix və mədəniyyət abidələrinin siyahılarından obyektlərin çıxarılmasına yalnız Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə yol verilir.

**Maddə 22. Muzeylərdə, kitabxanalarda və arxivlərdə olan tarix və mədəniyyət abidələrinin dövlət uçotu**

Muzeylərdə, kitabxanalarda, arxivlərdə digər təşkilatlar və idarələrdə olan tarix və mədəniyyət abidələri "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" SSRİ qanununa uyğun olaraq SSRİ-nin muzey və arxiv fondlarına dair SSR İttifaqı qanunvericiliyi ilə müəyyən edilən qaydada dövlət uçotuna alınır.

**Maddə 23. Vətəndaşların şəxsi mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin dövlət uçotu**

Vətəndaşların şəxsi mülkiyyətində olan və böyük tarixi, elmi, bədii və ya digər mədəni əhəmiyyətə malik qədim əşyalar təsviri və dekorativ-tətbiqi sənət əsərləri, tikililər, əlyazmaları, kolleksiyalar, nadir çap nəşrləri və digər əşyalar və sənədlər tarix və mədəniyyət abidələri sayılır, abidələrin daha tam aşkara çıxarılması və onların qorunmasının təmin edilməsinə yardım göstərilməsi məqsədilə dövlət uçotuna alınmalıdır.

Şəxsi mülkiyyətində tarix və mədəniyyət abidələri olan vətəndaşlar abidələrin mühafizəsi, onlardan istifadə edilməsi, onların uçota alınması və bərpa olunması qaydalarına əməl etməyə borcludurlar.

**Maddə 24. Tarixi və mədəni dəyəri olub satışa buraxılan əşyalar haqqında ticarət müəssisələrinin məlumat vermək vəzifəsi**

Komissiya, əntiq şeylər, bukinist mağazaları və digər ticarət müəssisələri bu qanunun 23-cü maddəsində göstərilən, tarixi, elmi, bədii və ya digər mədəni dəyəri olub, satış üçün onlara daxil olan əşyalar və ya sənədlər haqqında Azərbaycan SSR Mədəniyyət Nazirliyinə, sənədli abidələr barəsində isə Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinə məlumat verməyə borcludurlar.

# III. TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASININ TƏMİN EDİLMƏSİ, ABİDƏLƏRDƏN İSTİFADƏ QAYDASI VƏ ŞƏRTLƏRİ

**Maddə 25. Tarix və mədəniyyət abidələrindən istifadə edilməsi**

Tarix və mədəniyyət abidələrindən elmin, xalq maarifinin və mədəniyyətin inkişaf etdirilməsi, vətənpərvərlik, ideya-mənəvi, beynəlmiləl və estetik tərbiyə məqsədilə istifadə olunur.

Tarix və mədəniyyət abidələrindən təsərrüfat məqsədlərilə və digər məqsədlərlə istifadə edilməsinə bu şərtlə yol verilir ki, abidələrin qorunmasına zərər vururlmasın və onların tarixi-bədii dəyərinə xələl gəlməsin.

Tarix və mədəniyyət abidələri elm, mədəni-maarif, turizm məqsədləri və başqa məqsədlər üçün dövlət, kooperativ, ictimai müəssisələrin, təşkilatların, idarələrin, habelə digər təşkilatların və şəxslərin istifadəsinə SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyi ilə müəyyən edilən qaydada və şərtlərə əməl olunmaqla verilir.

Respublika və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri bu maddənin 3-cü hissəsində göstərilən məqsədlər üçün hər bir ayrıca halda Azərbaycan SSR Mədəniyyət Nazirliyinin icazəsi ilə istifadəyə verilə bilər. Onların istifadəyə verilməsi müvafiq öhdəliklərlə rəsmiləşdirilir.

Tarix və mədəniyyət abidələrindən istifadə üçün icazə haqqının dərəcələri Azərbaycan SSR Nazirlər Soveti tərəfindən müəyyən edilir.

**Maddə 26. Tarix və mədəniyyət abidələrindən istifadə edilməsindən daxil olan vəsaitin xərclənmə qaydası**

Tarix və mədəniyyət abidələrindən istifadə edilməsindən daxil olan pul vəsaiti, habelə bu qanunun 51-ci maddəsinə uyğun surətdə daxil olan vəsait ixtiyarında abidələr olan dövlət abidələri mühafizə orqanlarının xüsusi hesablarına müəyyən edilmiş qaydada verilir və həmin orqanlar tərəfindən yalnız abidələrin

mühafizəsi, bərpası, konservasiyası, təmiri sahəsindəki tədbirlərə xərclənir.

**Maddə 27. Mülkiyyətində və ya istifadəsində abidələr olan müəssisələrin, təşkilatların, idarələrin vəzifələri**

Mülkiyyətində və ya istifadəsində tarix və mədəniyyət abidələri olan müəssisələr, təşkilatlar, idarələr onların qorunması üçün məsuliyyət daşıyırlar və abidələrin mühafizəsi, onlardan istifadə edilməsi, onların uçota alınması və bərpa olunması qaydalarına borcludurlar.

**Maddə 28. Tarix və mədəniyyət abidələrinin mühafizəsi, onlardan istifadə edilməsi və onların bərpa olunması qaydalarının müəyyən edilməsi**

Tarix və mədəniyyət abidələrinin mühafizəsi, onlardan istifadə edilməsi və onların bərpa olunması qaydaları "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" SSRİ qanununa uyğun olaraq SSRİ Nazirlər Sovetinin qoyduğu qaydada müəyyən edilir.

**Maddə 29. Kolxozların kooperativ təşkilatlarının, ictimai təşkilatların və vətəndaşların mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin əldə edilməsi**

Kolxozların, digər kooperativ təşkilatlarının onların birliklərinin, ictimai təşkilatların mülkiyyətində və vətəndaşların şəxsi mülkiyyətində olan tarix və mədəniyyət abidələrin qorunmasını və onlardan daha səmərəli istifadə olunmasını təmin etmək məqsədilə mülkiyyətçi ilə sazişə görə dövlət tərəfindən əldə edilə bilər.

**Maddə 30. Tarix və mədəniyyət abidələrinin alınması**

Öz xarakterinə və təyinatına müvafiq olmayan məqsədlərlə istifadə edilən, məhv olmaq və ya korlanmaq təhlükəsinə məruz qalan tarix və mədəniyyət abidələrinin müəssisələrdən, təşkilatlardan, idarədən SSR İttifaqı qanunvericiliyi ilə müəyyən olunmuş qaydada alına bilər.

Vətəndaş özünə məxsus olan tarix və mədəniyyət abidəsinin qorunmasını təmin etmədikdə, bu abidə Azərbaycan

SSR Mülki Məcəlləsinin 135-ci maddəsinə uyğun olaraq məhkəmə yolu ilə müvafiq haqqı ödənilməklə alına bilər.

Vətəndaş özünə məxsus olan tarix və mədəniyyət abidəsindən zəhmətsiz gəlir götürmək üçün müntəzəm surətdə istifadə etdikdə, bu abidə Azərbaycan SSR Mülki Məcəlləsinin 106-cı maddəsinə uyğun olaraq məhkəmə qaydası ilə əvəzsiz alına bilər.

**Maddə 31. İstifadəyə verilmiş torpaqlarda yerləşən tarix və mədəniyyət abidələrinin qorunmasının təmin edilməsi**

Müəssisələr, təşkilatlar, idarələr və vətəndaşlar onların istifadəsinə verilmiş torpaqlarda yerləşən tarix və mədəniyyət abidələrinin qorunmasını təmin etməyə borcludurlar.

**Maddə 32. Tarix və mədəniyyət abidələrinin bərpası, konservasiyası və təmiri**

Tarix və mədəniyyət abidələri yalnız dövlət abidələri mühafizəsi orqanlarının razılığı il əvə onların nəzarəti altında bərpa, konservasiya və təmir edilir.

Abidələr onlardan istifadə edənlərin və ya abidə sahiblərinin habelə dövlət abidələri mühafizəsi orqanlarının vəsaiti hesabına bərpa, konservasiya və təmir olunur.

Göstərilən işlər dövlət abidələri mühafizə orqanlarının cəlb etdikləri ixtisaslaşdırılmış elmi-bərpa təşkilatları və ya digər təşkilatlar tərəfindən görülür.

Tarix və mədəniyyət abidələrinin bərpası, konservasiyası və təmirinin layihələri müvafiq dövlət abidələri mühafizə orqanları ilə razılaşdırılmalıdır.

**Maddə 33. Tarix və mədəniyyət abidələrinin mühafizəsi zonası**

Tarix, arxeologiya, şəhərsalma və arxitektura, manumental sənəd abidələrinin mühafizəsini təmin etmək məqsədilə SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyi ilə müəyyən olunan qaydada mühafizə zonaları, tikilişi tənzimetmə zonaları və mühafizə olunan təbii landşaft zonaları müəyyən edilir.

Göstərilən zonaların hüdudları daxilində SSR İttifaqının və Azərbaycan SSR-in müvafiq abidələri mühafizə orqanlarının

icazəsi olmadan torpaq, tikinti işləri və digər işlər görülməsi, habelə təsərrüfat fəaliyyəti qadağan edilir.

Mühafizə zonaları, tikilişi tənzimetmə zonaları və mühafizə olunan təbii landşaft zonaları müvafiq dövlət abidələri mühafizə orqanlarının təqdimi ilə Azərbaycan SSR Nazirlər Soveti tərəfindən müəyyən edilir.

Tarix və mədəniyyət abidələrinin mühafizə zonaları şəhərlərin və digər yaşayış məntəqələrinin baş planlarına, onların planlaşdırılması, tikilişi və yenidən qurulması layihələrinə daxil edilir.

**Maddə 34. Tarix və mədəniyyət abidələrinin ərazisindən keçən yol sahələrində nəqliyyat vasitələri hərəkətinin məhdudlaşdırılması**

Tarix və mədəniyyət abidələrinə yaxın olan və ya onların mühafizə zonasında keçən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunması üçün təhlükə yaratdıqda bu yol sahələrində nəqliyyatın hərəkəti Azərbaycan SSR Mədəniyyət Nazirliyinin təqdimi üzrə müəyyən edilmiş qaydada müvafiq yerli xalq deputatları Soveti icraiyyə komitəsinin qərarı ilə məhdudlaşdırıla bilər, yaxud da qadağan edilə bilər.

**Maddə 35. Tarix-mədəniyyət qoruqlarının mühafizəsi**

Xüsusi tarixi, elmi, bədii və ya digər mədəni əhəmiyyəti olan tarix və mədəniyyət abidələrinin ansambl və kompleksləri "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" SSRİ qanununa uyğun olaraq SSRİ Nazirlər Sovetinin və ya Azərbaycan SSR Nazirlər Sovetinin qərarları ilə tarix-mədəniyyət qoruqları elan edilə bilər və bu qoruqlar onların hər biri haqqında xüsusi əsasnaməyə görə mühafizə olunur.

Azərbaycan SSR Nazirlər Sovetinin qərarları ilə tarix-mədəniyyət qoruqları elan edilmiş abidələrin ansambl və kompleksləri həmin qoruqlar haqqında Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təsdiq edilən əsasnamələrə görə mühafizə olunur.

**Maddə 36. Yeni aşkara çıxarılan tarix və mədəniyyət abidələrinin mühafizəsi**

Yeni aşkara çıxarılıb tarixi, elmi, bədii və ya digər mədəni əhəmiyyəti olan obyektlər onların tarix və mədəniyyət abidələri kimi dövlət uçotuna alınması məsələsi həll edilənədək "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" SSRİ qanununun və bu qanunun tələblərinə uyğun surətdə mühafizə olunmalıdır.

Göstərilən obyektlərin müvəqqəti mühafizə rejimi dövlət abidələri mühafizə orqanları tərəfindən müəyyən edilir.

Maliyyə orqanları, elmi və ya digər idarələr yeni aşkara çıxarılıb tarixi, elmi, bədii və ya digər mədəni əhəmiyyəti olan dəfinələri, yaxud da obyektləri öz sərəncamına aldıqda bu barədə müvafiq dövlət abidələri mühafizə orqanlarına məlumat verməlidirlər, bu orqanlar isə onları tarix və mədəniyyət abidələri kimi dövlət uçotuna götürmək məsələlərini həll edirlər.

**Maddə 37. Ərazisində tarix və mədəniyyət abidələri olan şəhərlərin və digər yaşayış məntəqələrinin planlaşdırılması, tikilişi və yenidən qurulması layihələrinin abidələri mühafizə orqanları ilə razılaşdırılması**

Ərazisində tarix, arxeologiya, şəhərsalma və arxitektura, monumental sənəd abidələri olan şəhərlərin və digər yaşayış məntəqələrinin planlaşdırılması, tikilişi və yenidən qurulması Azərbaycan SSR Mədəniyyət Nazirliyi ilə razılaşdırılmalıdır.

**Maddə 38. Tarix və mədəniyyət abidələrinin uçurulmasının, köçürülməsinin, dəyişilməsinin qadağan edilməsi**

Daşınmaz tarix və mədəniyyət abidələrinin uçurulması, köçürülməsi, dəyişilməsi qadağan edilir.

Bu maddənin birinci hissəsində müəyyən edilmiş qaydada istisnaya "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" SSRİ qanununa uyğun olaraq yalnız hər bir ayrıca halda Ümumittifaq əhəmiyyətli abidələr barəsində SSRİ Nazirlər Sovetinin, respublika və yerlə əhəmiyyətli abidələr barəsində Azərbaycan SSR Nazirlər Sovetinin xüsusi icazəsi ilə yol verilə bilər.

**Maddə 39. Tarix və mədəniyyət abidələrinin uçurulmasına, köçürülməsinə, dəyişilməsinə icazə almış müəssisələrin, təşkilatların, idarələrin vəzifələri**

Daşınmaz tarix və mədəniyyət abidələrinin uçurulmasına, köçürülməsinə və ya dəyişilməsinə icazə almış müəssisə, təşkilat, idarə abidəni uçurarkən, köçürərkən və ya dəyişərkən SSR İttifaqı və ya Azərbaycan SSR qanunvericiliyində nəzərdə tutulmuş şərtlərə əməl olunmasını təmin etməyə, müvafiq dövlət abidələri mühafizə orqanı isə abidələrin elmi cəhətdən öyrənilməsi və ya təsbit olunması işlərini görməyə borcludur.

Göstərilən işlərin görülməsi ilə əlaqədar xərclər abidənin uçurulmasına, köçürülməsinə və ya dəyişilməsinə icazə almış müəssisənin, təşkilatın, idarənin hesabına çəkilir.

**Maddə 40. Tikinti işləri və digər işlər görülərkən tarix və mədəniyyət abidələrinin qorunmasının təmin edilməsi**

Tarix və mədəniyyət abidələrinin varlığı üçün təhlükə yarada bilən tikinti, maliorasiya, yol işləri və digər işlər yalnız dövlət abidələri mühafizə orqanlarının razılığı ilə abidələrin qorunmasını təmin edən tədbirlər həyata keçirildikdən sonra görülür.

Göstərilən tədbirlər tikinti, maliorasiya, yol işləri və digər işlər görən təşkilatların hesabına maliyyələşdirilir.

Müəssisələr, təşkilatlar, idarələr işlərin görülməsi prosesində tarixi, elmi, bədii və ya digər mədəni əhəmiyyəti olan arxeoloji və başqa obyektlər aşkara çıxardıqda bu barədə dövlət abidələri mühafizə orqanına məlumat verməyə və işlərin davam etdirilməsini dayandırmağa borcludurlar.

**Maddə 41. Tikinti işləri və başqa işlər görülərkən tarix və mədəniyyət abidələrinin qorunmasını təmin etmək tədbirlərinin həyata keçirilməsi**

Tarix və mədəniyyət abidələrinin qorunmasını təmin etmək tədbirləri abidələrin aşkara çıxarılmasını, onların tədqiq və təsbit edilməsini, tapıntıların muzeylərə və ya digər dövlət xəzinələrinə verilməsini və dövlət tarix və mədəniyyət abidələrini

mühafizə orqanlarının göstərişi ilə başqa işlər görülməsini əhatə edir.

Göstərilən tədbirlər Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən təşkil olunur və əlaqələndirilir.

**Maddə 42. Tarix və mədəniyyət abidələri üçün təhlükəli olan tikinti işlərinin və digər işlərin dayandırılması**

Tikinti, maliorasiya, yol işlərinin və digər işlərin görülməsi prosesində tarix və mədəniyyət abidələri üçün təhlükə yarandıqda və ya abidələrin mühafizəsi qaydaları pozulduqda dövlət abidələri mühafizə orqanları həmin işləri dayandırmaq hüququna malikdirlər.

Bu maddənin birinci hissəsində, habelə 40-cı maddənin üçüncü hissəsində nəzərdə tutulmuş hallarda işlərin davam etdirilməsinə yalnız müvafiq dövlət abidələri mühafizə orqanlarının icazəsi ilə yol verilir.

**Maddə 43. Arxeologiya abidələrinin qazılması və kəşf edilməsi**

Arxeologiya abidələrinin qazılması və kəşf edilməsinə yalnız müəyyən edilmiş qaydada verilən və qeydə alınan icazə (vəkalətnamə) olduqda yol verilir.

Respublika və yerli əhəmiyyətli arxeologiya abidələrinin qazılması və kəşf edilməsi üçün icazə (vəkalətnamə) Azərbaycan SSR Elmlər Akademiyası tərəfindən verilir və Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən qeydə alınır.

Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri arxeologiya işlərinin aparılmasında təşkilatlara və vətəndaşlara yardım göstərirlər.

Təşkilatlar və vətəndaşlar tərəfindən arxeologiya işlərinin aparılmasına Azərbaycan SSR Elmlər Akademiyası nəzarət edir.

Qazıntı və kəşfiyyat işləri başa çatdırıldıqdan sonra, lakin ən geci icazənin (vəkalətnamənin) müddəti qurtaranadək təşkilatlar və vətəndaşlar qazıntı və kəşfiyyat işlərinin nəticələri haqqında Azərbaycan SSR Elmlər Akademiyasına məlumat verməli və aşkara çıxarılıb tarixi, elmi, bədii və ya digər mədəni əhəmiyyəti olan əşyaları müvafiq dövlət orqanlarına verməlidirlər.

Arxeoloji işlər görən təşkilatlar və vətəndaşlar abidələrin qorunmasını təmin etməyə borcludurlar.

**Maddə 44. Tarix və mədəniyyət abidələrinin toplanması**

Qədim sənədli abidələrin, qədim boyakarlıq və qədim dekorativ-tətbiqi sənət əsərlərinin təşkilatlar və ya vətəndaşlar tərəfindən toplanmasına müəyyən edilmiş qaydada verilən və qeydə alınan xüsusi icazə olduqda yol verilir.

**Maddə 45. Tarix və mədəniyyət abidələrinin toplanması üçün xüsusi icazənin verilməsi və qeydə alınması**

Azərbaycan SSR ərazisində qədim sənədli abidələrin təşkilatlar və ya vətəndaşlar tərəfindən toplanmasına xüsusi icazə Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Arxiv İdarəsi tərəfindən verilir və onun yerli orqanları tərəfindən qeydə alınır.

Azərbaycan SSR ərazisində qədim boyakarlıq və qədim dekorativ-tətbiqi sənət əsərlərinin təşkilatlar və ya vətəndaşlar tərəfindən toplanmasına xüsusi icazə Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən verilirvə onun yerli orqanları tərəfindən qeydə alınır.

**Maddə 46. Tarix və mədəniyyət abidələrinin SSRİ-dən xaricə aparılmasının qadağan edilməsi**

Tarix və mədəniyyət abidələrinin SSRİ-dən xaricə aparılması "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" SSRİ qanununa uyğun olaraq qadağan edilir.

Bu qaydada istisnaya hər bir ayrıca halda SSR İttifaqı qanunvericiliyi ilə müəyyən edilmiş qaydada verilən xüsusi icazə ilə yol verilir.

**Maddə 47. Tarix və mədəniyyət abidələrinin SSRİ-dən xaricə müvəqqəti aparılması qaydası**

Beynəlxalq mədəni mübadiləni inkişaf etdirmək məqsədilə tarix və mədəniyyət abidələrinin SSRİ-dən xaricə müvəqqəti aparılmasına "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" SSRİ qanununa uyğun olaraq hər bir hal üçün SSR İttifaqının müvafiq dövlət orqanı tərəfindən xüsusi

olaraq müəyyən edilən qaydalara və şərtlərə əməl olunmaqla icazə verilir.

**Maddə 48. Azərbaycan SSR-ə gətirilən tarix və mədəniyyət abidələrinin mühafizəsi**

Xarici dövlətlərin, təşkilatların və şəxslərin mülkiyyəti olub, müvafiq sazişlər əsasında mədəni mübadilə məqsədilə Azərbaycan SSR-ə müvəqqəti gətirilən tarix və mədəniyyət abidələri dövlət tərəfindən mühafizə edilir.

## IV. TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜHAFİZƏSİ VƏ ONLARDAN İSTİFADƏ HAQQINDA QANUNVERİCİLİYİ POZMAĞA GÖRƏ MƏSULİYYƏT

**Maddə 49. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında qanunvericiliyi pozmağa görə məsuliyyət**

Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə olunması, onların uçota alınması və bərpa edilməsi qaydalarını yerinə yetirmədikdə, orları mühafizə zonalarının rejimini pozmaqla, habelə abidələrin mühafizəsi və onlardan istifadə haqqında qanunvericiliyi başqa şəkildə pozmaqda müqəssir olan şəxslər SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyəti, inzibati və ya başqa məsuliyyət daşıyırlar.

**Maddə 50. Tarix və mədəniyyət abidisinin bərpa edilməsi və abidəyə ziyan vurulduqa zərərin ödənilməsi**

Tarix və mədəniyyət abidisinə və ya onun mühafizə zonasına ziyan vurmuş müəssisələr, təşkilatlar, idarələr və vətəndaşlar abidəni və ya onu mühafizə zonasını əvvəlki vəziyyətdə bərpa etməyə bu mümkün olmadıqda isə dəymiş zərərin SSR İttiqafı və Azərbaycan SSR qanunvericiliyinə uyğun surətdə ödəməyə borcludurlar. Abidə və ya onun mühafizə zonası tarix və mədəniyyət abidələrinin bərpasının müəyyən olunmuş qaydasına əməl edilməklə bərpa olunur.

Vəzifəli şəxslərin və ya digər işçilərin təqsiri üzündə müəssisələr, təşkilatlar, idarələr bu maddənin birinci hissəsində göstərilmiş zərərin ödənilməsi ilə əlaqədar xərclər çəkdikdə, həmin vəzifəli şəxslər və işçilər müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyırlar.

## V. BEYNƏLXALQ MÜQAVİLƏLƏR VƏ SAZİŞLƏR

**Maddə 51. Tarix və mədəniyyət abidələri haqqında beynəlxalq müqavilələr və sazişlər**

SSRİ-nin və ya Azərbaycan SSR-in iştirak etdiyi beynəlxalq müqavilə və ya benəlxalq sazişlə tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında SSR İttifaqı və ya Azərbaycan SSR qanunvericiliyində keçirilən qaydalar müəyyən olunmuşsa, onda beynəlxalq müqavilənin və ya beynəlxalq sazişin qaydaları tətbiq edilir.

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri Q.Xəlilov**
**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin katibi G.Əbilova**

Bakı şəhəri, 21 iyul 1978-ci il.

# "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜHAFİZƏSİ VƏ ONLARDAN İSTİFADƏ HAQQINDA" AZƏRBAYCAN SSR QANUNUNUN QÜVVƏYƏ MİNMƏSİ QAYDASI BARƏSİNDƏ

## AZƏRBAYCAN SSR ALİ SOVETİNİN QƏRARI

"Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" Azərbaycan SSR qanununun qəbul edilməsi ilə

əlaqədar olaraq Azərbaycan Sovet Sosialist Respublikasının Ali Soveti qərara alır:

1. “Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında” Azərbaycan SSR qanununu 1979-cu il yanvarın 1-dən qüvvəyə minsin.

2. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə tapşırılsın ki, Azərbaycan SSR qanunvericiliyini “Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında” Azərbaycan SSR qanununa uyğunlaşdırılsın.

3. Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, Azərbaycan SSR hökumətinin qərarlarını “Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında” Azərbaycan SSR qanununa uyğunlaşdırsın.

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət**
**Heyətinin sədri Q.Xəlilov**
**Azərbaycan SSR Ali Sovetinin Rəyasət**
**Heyətinin katibi G.Əbilova**

Bakı şəhəri, 21 iyul 1978-ci il.

****

## RESPUBLIKANIN XALQ MAARIFI VƏ MƏDƏNIYYƏT IŞÇILƏRINƏ FƏXRI ADLAR VERILMƏSI HAQQINDA AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Böyüməkdə olan nəslin kommunist tərbiyəsi işində xidmətlərinə görə və V.İ.Lenin adına Ümumittifaq pioner təşkilatının 50 illiyi ilə əlaqədar olaraq aşağıdakılara fəxri adlar verilsin:

**Azərbaycan SSR əməkdar müəllimi**

Aleksandrova Yelena Aleksandrovna – Kirovabad şəhərindəki 30 nömrəli orta məktəbin direktor müavini.

Həsənov Kamal Davud oğlu – Göyçay şəhərindəki 3 nömrəli məktəbin direktoru.

Qafarov İbrahim Cəlil oğlu – Bakı şəhərindəki 132 nömrəli məktəbin direktor müavini.

Kərimli Lətif Əmiraslan oğlu – pioner baş dəstə rəhbəri

**Azərbaycan SSR əməkdar mədəniyyət işçisi**

Ağayeva Məsmə Pəncəli qızı – Y.Qaqarin adına Bakı pioner və məktəblilər sarayının rəsm və rəngkarlıq dərnəyinin rəhbəri.

Ağamov Arkadi Meliksetoviç – Y.Qaqarin adına Bakı pioner və məktəblilər sarayı xalq çalğı alətləri dərnəyinin rəhbəri.

Əliyev Əhməd Məmməd oğlu – Y.Qaqarin adına Bakı pnoner və Məktəblilər sarayının direktoru.

Cabbarov Zeynal Əlabbas oğlu – "Pioner" jurnalının redaktoru.

Qasımov Balağa Əliqulu oğlu – M.Qorki adına Azərbaycan Gənc Tamaşaçılar Teatrının direktoru.

Azərbaycan SSR əməkdar incəsənət xadimi

Zülfüqarov Oqtay Qədir oğdu – bəstəkar.

**Azərbaycan SSR əməkdar kitabxanaçısı**

İsmayılzadə İrma Əkbər qızı – Bakı şəhərindəki 199 nömrəli orta məktəbin kitabxanaçısı.

## RESPUBLIKANIN MUSIQI IFAÇILIĞI SƏNƏTI XADIMLƏRINƏ AZZRBAYCAN SSR FƏXRI ADLARININ VERILMASI HAQQINDA AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Sovet musiqi ifaçılığı sənətinin inkişafında xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

**Azərbaycan SSR xalq artisti**

Əliyev Habil Mustafa oğlu – M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti.

Bədəlbəyli Fərhad Şəmsioğlu – M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti.

Qriqoryan Nevton Avanesoviç – M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti.

Məlikova Afaq Süleyman qızı – Azərbaycan Dövlət rəqs ansamblının solisti.

**Azərbaycan SSR əməkdar artisti**

Babayev Rafiq Fərzi oğlu – Dövlət mahnı teatrının musiqi rəhbəri.

Babayev Rauf Yusif oğlu – "Qaya" Azərbaycan Dövlət konsert-estrada orkestrinin solisti.

Babazadə Zitta Şakir qızı – Dövlət mahnı teatrının solisti.

Hacıyev Arif Nüseyn oğlu – "Qaya" Ayzərbaycan Dövlət konsert-estrada orkestrinin solisti.

Hüseynov İlyas Hüseyn oğlu – Üzeyir Hacıbəyov adına Azərbaycan, Dövlət simfonik orkestrinin solisti.

Yelesavetski Lev Abramoviç – "Qaya" Azərbaycan Dövlət konsert-estrada orkestrinin solisti.

Qədimov Davud Bala oğlu – Azərbaycan SSR Mədəniyyət Nazirliyi repertuar-redaksiya kollegiyasının üzvü.

Quluzadə Fərhad Qasım oğlu – Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin solisti.

Mirzəyev Teymur İbrahim oğlu – "Qaya" Azərbaycan Dövlət konsert-estrada orkestrinin bədii rəhbəri.

Rəsulova Validə Tələt qızı – pianoçu, Üzeyir Hacıbəyov adına Azərbaycan Dözlət Konservatoriyasının müəllimi.

Sardarov Yuri Qriqoryeveç – Dövlət mahnı teatrı orkestrinin solisti.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azvrbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 11, yanvar 1978-ci il.

## --AZƏRBAYCAN KP MƏRKƏZI KOMITƏSINDƏ AZƏRBAYCAN KP MK "MOZALAN" SATIRIK KINOJURNALININ TƏNQIDI ÇIXIŞLARINA RESPUBLIKANIN BƏZI NAZIRLIKLƏRININ VƏ BAŞ IDARƏLƏRININ YANLIŞ MÜNASIBƏTI HAQQINDA QƏRAR QƏBUL ETMIŞDIR.

Azərbaycan KP MK qeyd etmişdir ki, 1970-ci ildə yaradılmış "Mozalan" satirik kinojurnalının yaradıcı kollektivi zəhmətkeşlərin kommunist tərbiyəsi sahəsində böyük və faydalı iş aparır, təsərrüfat və mədəniyyət quruculuğunda nöqsanlara qarşı, kommunist əxlaqı prinsiplərindən kənara çıxmaq hallarına qarşı mübarizədə fəal iştirak edir. Jurnal öz operativliyi ilə, tənqidi çıxışlar üçün bacarıqla mövzu seçməsi, bunları yaxşı formada əks etdirməsk ilə zəhmətkeşlər arasında şöhrət qazanmışdır. Zəhmətkeşlərin gündəlik həyatı ilə bağlı olması, şəhər və kənd əməkçilərinin siqnallarına və ərizələrinə diqqətlə yanaşması sayəsində jurnal irəliləyişimizə mane olan hallara qarşı kəskin publisistik formada çıxış edə bilir.

L.İ.Brejnev Bakı şəhərinə Lenin ordeni təqdim edərkən söylədiyi nitqində xalq təşəbbüsünün, mətbuatın, o cümlədən də "Fitil" satirik kinojurnalının tənqidi çıxışlarının nöqsanlara qarşı mübarizədə mühüm rolunu göstərmiş və xüsusi olaraq qeyd etmişdir ki, "partiyanın və xalqın mənafeyi üçün ən zərərli bir şey varsa, o da nöqsanları ört-basdır etmək, haqlı təiqiddən yayınmaq, onun üstündən sükutla keçmək, ələlxüsus tənqidi boğmaq və tənqid edənləri gözümçıxdıya salmaq cəhdləridir".

"İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşlırmaq haqqında" Sov.İKP MK-nın qərarı mətbuatın tənqidi çıxışlarına operativ surətdə, işgüzarcasına yanaşmağı, iqtisadi quruculuğun, kommunist tərbiyəsinin, ictimai həyatın mühüm məsələlərini

qaldıran materialları prinsipiallıqla müzakirə etməyi, tənqidin boğulması faktlarını geniş surətdə üzə çıxarmağı tələb edir.

Bir çox təşkilatlar "Mozalan" kinojurnalının tənqidi çıxışlarına əsasən düzgün yanaşırlar. Onun siqnalları kollegiyaların iclaslarında, müşavirələrdə müzakirə olunur, bunların əsasında əməli tədbirlər görülür. "Mozalan"ın çıxışından sonra Bakı şəhərində yeraltı keçidlərin, Tovuz rayonunda kino-teatrın, Ucar rayonunda mineral gübrə anbarlarının tikintisinin başa çatdırılması sürətləndirilmiş, Qobustanda daş karxanası bağlanmışdır. 1978-ci ildə jurnalda göstərilmiş tənqidi materialların yoxlanması nəticəsində bəzi vəzifəli şəxslər məsuliyyətə cəlb olunmuşlar.

Lakin respublikanın nazirlik və baş idarələrinin heç də bütün rəhbərləri və partiya təşkilatları "Mozalan"ın çıxışlarına lazımi diqqətlə yanaşmır, çox zaman jurnaldakı tənqidin üstündən sükutla keçir, bəzən də bu tənqidə tamamilə etinasızlıq göstərirlər. Elə rəhbərlər də vardır ki, tənqidlə sözdə razılaşır, işdə isə aşkara çıxarılan nöqsanların kökünü kəsmək üçün heç bir tədbir görmürlər.

1974-cü ildə "Dəyirman bildiyini eləyir" və "Keyfiyyət nişanı" sənədli süjetlərində jurnal Bakı ət kombinatının və Bakı karamel fabrikinin məhsulunu kəskin tənqnd etmişdir. Bundan sonra karamel fabriki məhsulunun üç növü keyfiyyət nişanından məhrum olunmuşdur. Lakin nazirliklərin rəhbərləri tənqiddən müvafiq nəticələr çıxarmamış, prinsipsizlik göstərmişlər. Karamel fabrikinin direktoru T.Mustafazadə öz xahişi ilə vəzifəsindən azad edilmişdir. Bakı ət kombinatında işin öhdəsindən kədməyən A.Nəbilini isə karamel fabrikinin direktoru vəzifəsinə keçirmişlər, sonralar burada böyük məbləğdə oğurluq faktları aşkara çıxarılmış və buna "Mozalan"da təkrar süjet həsr edilmişdir. A.Nəbili və fabrikin 14 işçisi cinayət məsuliyyətinə cəlb olunmuşlar.

Respublika Yeyinti Məhsulları Sənayesi Nazirliyinin rəhbərləri və partiya təşkilatı "Mozalan"ın "Çörəyi ver çörəkçiyə" çıxışına düzgün yanaşmamışlar. Bişirilən çörək məhsullarının aşağı keyfiyyəti məsələsinin bu ilin əvvəllərində Azərbaycan KP

MK bürosunda müzakirəsi haqlı – tənqidə nazirliyin etinasızlığını bir daha təsdiq etmişdir. Nazirliyin rəhbərləri təsirli tədbirlər görüləcəyi barədə redaksiyaya vəd vermiş, əslində isə çörək məmulatının keyfiyyətini və çeşidini yaxşılaşdırmaq üçün heç bir iş görməmişlər.

Bəzi başqa nazirliklərin və baş idarələrin rəhbərləri də "Mozalan"ın tənqidi çıxışlarına lazımi diqqətlə yanaşmırlar. 1974-cü ildə Ceyrançöl otlaqlarında qoyunçuluğun vəziyyətinə jurnalın xüsusi nömrəsi həsr edilmişdir. Yemin dağıdılması, qoyun yataqlarının pis vəziyyətdə olması, otlaqların su və elektrik enerjisi ilə yarıtmaz təchiz edilməsi, çobanların məişət şəraitinə fikir verilməməsi kəskin tənqid edilmişdir. Bu çıxış kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı nazirliklərinin, Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinin, Azərbaycan Baş Energetika və Elektrikləşdirmə İdarəsinin rəhbərliyini və partiya təşkilatlarını narahat etməmiş, işgüzarcasına müzakirə olunmamış və tənqid edilən nöqsanları aradan qaldırmaq üçün əməli tədbirlər həyata keçirilməmişdir. Otlaqlarda vəziyyət o qədər də yaxşılaşmamışdır.

Hələ 1976-cı ilin əvvəllərində "Mozalan" kinojurnalı "Qunduzdan söhbət açaq" süjetində Qarayazı xəzli heyvanlar sovxozunun pis vəziyyətindən bəhs etmişdir. Respublikanın bu nadir xəzçilik təsərrufatı son illərdə mənfəətli təsərrüfatdan zərərlə işləyən təsərrüfata çevrilmişdir. Bir sıra illər ərzində kənd tösərrüfatı məhsulları istehsalı və xüsusən qunduz dərisi təhvili planlarının yerinə yetirilməsi müntəzəm olaraq pozulur. Lakin Kənd Təsərrüfatı Nazirliyi də, onun respublika Sovxozlar Birliyi də "Mozalan"ın tənqidi çıxışına laqeyd yanaşmış, təsərrüfatda vəziyyəti düzəltmək üçün təsirli tədbirlər görməmişlər. Ötən üç il ərzində burada əslində heç bir şey dəyişilməmiş, qiymətli xəzli heyvanların tələf olmasına əvvəlki kimi yenə də yol verilir, dünyada ilk dəfə olaraq məhz Qarayazıda yetişdirilən və dünya bazarında çox böyük tələbat olan rəngli qunduzların saxlanması üçün şərait yaradılmamışdır. Bu ilin əvvəllərnndə "Mozalan" həmin təsərrüfatda işlərin vəziyyətini yenə də tənqid etmişdir.

"Mozalan" kino-jurnalının düzgün mövqeyi yenə də müdafiə edilməmişdir. Bu hələ bir yana qalsın, Sovxozlar Birliyinin keçmiş rəisi N.Volodin ona jurnal redaksiyasının qərəzkar münasibətindən Azərbaycan KP MK-ya şikayət etmişdir. Həmin məsələnin öyrənilməsi isə jurnalın düzgün mövqeyini tamamilə təsdiq etmişdir.

Zəhmətkeşlərin kollektiv şikayətinə əsasən 1978-ci ildə "Mozalan" Bakı şəhərinnn Engels küçəsində doqquzmərtəbəli evin hələ 1971-ci ildə başlanmış tikintisinin yubadılması haqqında tənqidi süjetlə çıxış etmişdir. Həmin obyektin tikintisi vəsait olmadığına görə dayandırılmışdır, halbuki indiyədək 272 min manat pul xərclənmişdir. Şəhərdə mənzil tikintisinin yeganə sifarişçisi olan Bakı Şəhər İcraiyyə Komitəsi bu obyektin tikintisini öz öhdəsinə götürmək məsələsini həll etmir. Nəticədə başlı-başına buraxılan tikinti zibilliyə, cəmiyyətə zidd ünsürlərin məskərəsinə çevrilmişdir.

Respublika Maarif Nazirliyinin rəhbərliyi "Medalın o biri üzü" və "Şişirdilmiş beşlər" adlı kəskin sənədli süjetlərin üstündən sükutla keçmişdir. Bu süjetlərdə ümumtəhsil məktəbləri məzunlarının attestat qiymətlərinin şişirdilməsi və onlara layiq olmaya-olmaya qızıl medallar verilməsi hallarından bəhs edilirdi. Nazirliyin rəhbərliyi Bakı şəhərində həddi-büluğa çatmayanlar arasında təsadüf edilən və uşaq cinayətinin artmasına səbəb olan möhtəkirlik faktları haqqında "Mozalan"ın süjetlərinə əsla əhəmiyyət verməmişdir.

Ali və Orta İxtisas Təhsili Nazirliyi, respublika ali məktəblərinin rektorluqları, partiya və komsomol təşkilatları "dədə" maşınlarında gəzən tələbələr haqqında "Mozalan"ın kəskin satirik tənqidinin üstündən sükutla keçmişlər.

Bəzi partiya komitələri "Mozalan"ın tənqidi çıxışlarına heç də həmişə düzgün yanaşmırlar. Onlar jurnalın materiallarını müzakirə etmir, aşkara çıxarılan mənfi hallara prinsipial partiya qiyməti vermir, həmin halların aradan qaldırılması üçün əməli tədbirlər görməyi müvafiq rəhbər işçilərdən tələb etmirlər.

“Mozalan” kinojurnalının işini əsasən müsbət qiymətləndirməklə yanaşı Azərbaycan KP MK belə hesab edir ki, jurnalın yaradıcı kollektivi öz tənqidi çıxışlarının formalarını daha da təkmilləşdirməli, ideya və bədii səviyyəsini yüksəltməlidir. Kinojurnalda işıqlandırılan məsələlərin dairəsi kifayət qədər rəngarəng deyildir, bəzi materialların məzmunu səthi olur, mövzular və tənqid obyektləri seçilərkən partiyanın həmin mərhələdə qarşıda qoyduğu vəzifələrin aktuallığı heç də həmişə nəzərə alınmır.

Görkəmli yazıçılar və dramaturqlar kinojurnalın işinə zəif cəlb olunurlar.

Respublika Dövlət Televiziya və Radio Verilişləri Komitəsi “Mozalan” kinojurnalının televiziya ilə geniş verilməsinə çalışmamışdır, cəmi beş belə veriliş olmuşdur.

Respublika mətbuatı kino publisistnkasının yeni forması olan satirik kinojurnalın işinə lazımınca fikir vermir. “Mozalan”ın varlığının səkkiz ili ərzində bircə qəzet də onun materiallarını təhlil etməmiş, müsbət iş təcrübəsini ümumiləşdirməmişdir.

Dövlət Kinomatoqrafiya Komitəsinin və Azərbaycan Kinomatoqrafçılar İttifaqının rəhbərləri “Mozalan”ın işinə əsassız laqeydlik göstərir, jurnalın fəaliyyətinin yaxşılaşdırılması ilə əlaqədar məsələlərin müzakirəsinə və həllinə lazımi qayğı ilə yanaşmırlar.

Azərbaycan KP MK “Mozalan” kinojurnalının tənqndi çıxışlarına düzgün yanaşmadıqlarını ət və süd sənayesi naziri A.H.Məmmədov yoldaşın, yeyinti məhsulları sənayesi naziri K.S.Məmmədov yoldaşın, kənd təsərrüfatı naziri M.H.Əsgərov yoldaşın, meliorasiya və su təsərrüfatı naziri N.H.Rüstəmov yoldaşın, maarif naziri M.M.Mehdizadə yoldaşın, Dövlət Üzümçülük va Şərabçılıq Komitösinin sədri Y.Q.Rzayev yoldaşın, Azərbaycan Baş Energetika və Elektrikləşdirmə İdarəsinin rəisi Y.M.Kərimov yoldaşın nəzərinə çatdırmış və onlardan tələb etmişdir ki, jurnalın aşkara çıxardığı nöqsanları aradan qaldırmaq üçün təcili tədbirlər görsünlər. Nəticələr haqqında Azərbaycan KP MK-ya məlumat versinlər.

Partiya, sovet, həmkarlar ittifaqı və komsomol təşkilatlarının, təsərrüfat orqanlarıın rəhbərləri “Mozalan” kinojurnalının tənqidi çıxışlarına vaxtında cavab verilməsini təmin etməli, göstərilən nöqsanların aradan qaldırılması üçün əməli tədbirlər görməlidirlər. Nəticələr haqqında kinojurnalın redaksiyasına məlumat verilməlidir.

“Mozalan” satirik kino jurnalının redaksiyası, bütün yaradıcı kollektivi öz çıxışlarının təsirliliyini artırmalı, mövcud nöqsanları, qüsurları və sui-istifadə hallarını prinsipial mövqelərdən tənqid etməli, əxlaqa zidd hallara qarşı, rüşvətxorlara, bürokratlara, dövlət və əmək intizamını pozanlara, sərxoşluğa və xuliqanlığa, təsərrüfatsızlıq faktlarına qarşı barışmaz mübarizə aparmalıdırlar. Kinojurnalda göstərilən materiallarda tam obyektivlik təmin edilməli, aşkara çıxarılan qüsurların ictimai xarakteri nəzərə alınmaqla tənqid obyektləri düzgün seçilməlidir.

“Mozalan” satirik kinojurnalı redaksiyası C.Cabbarlı adına “Azərbaycan-film” kinostudiyasının tərkibindən ayrılıb Azərbaycan SSR Dövlət Kinomatoqrafiya Komitəsinin orqanına - “Mozalan” respublika satirik kinojurnalının təsarrüfat hesablı müstəqil baş redaksiyasına çevrilsin.

Azərbaycan SSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə təklif edilmişdpr ki, “Mozalan” kinojurnalını televiziya ilə müntəzəm göstərsin.

Respublika qəzetlərinin redaksiyalarına tapşırılmışdır ki, vaxtaşırı olaraq “Mozalan” satirik kinojurnalının, onun aktual məsələlərə dair ayrı-ayrı süjetlərinin və tematik çıxışlarının xülasələrini dərc etsinlər.

Azərbaycan KP MK-da Azərbaycan KP MK Azərbaycan aşıqlarının IV qurultayını keçirmək haqqında məsələ müzakirə etmişdir.

Qəbul olunmuş qərarda qeyd edilir ki, respublika aşıqlarının 1961-ci ildə keçirilmiş III qurultayından sonrakı dövr musiqili-poetik xalq yaradıcılığının məşhur janrlarından biri olan aşıq yaradıcılığının daha da inknşaf etməsi ilə səciyyələnir.

Bu illər ərzindö aşıqların peşə və ifaçılıq məharəti yüksəlmiş, yeni aşıq kollektivləri, ansamblları yaranmış, onlar böyük şöhrət qazanmışlar. Aşıqlar özlərinin ilhamlı yaradıcılığı ilə sovet adamlarının əmək nailiyyətlərini, SSRİ xalqlarının dostluğunu və qardaşlığını tərənnüm edir, zəhmətkeşlərin kommunist tərbiyəsi işində fəal iştirak edirlər.

Azərbaycan KP MK toplanmış təcrübəni ümumiləşdirmək, aşıq sənətinin kələcək inkişaf yollarını müəyyənləşdirmək, əhalinin geniş kütlələr arasında aşıq yaradıcılığını təbliğ etmək və məşhurlaşdırmaq məqsədilə 1982-ci ilin noyabrında Azərbaycan aşıqlarının IV qurultayını çağırmaq haqqında respublika Elmlər Akademiyasının, Mədəniyyət Nazirliyinin, Yazıçılar İttifaqının vö Bəstəkarlar Ittifaqının təklifini qəbul etmişdir.

Qurultayı hazırlayan və keçirən təşkilat komitəsi təsdiq edilmişdir. Komitəyə elm, incəsənət, ədəbiyyat xadimləri, aşıqlar daxildirlər.

Azərbaycanın Mədəniyyət Nazirliyinə, Elmlər Akademiiyasına, Yazıçılar İttifaqına və Bəstəkarlar İttifaqına tapşırılmışdır ki, respublikada aşıqlar cəmiyyəti yaradılması məsələsini öyrənsinlər.

Dövlət Nəşrkomuna təklif edilmişdir ki, respublikanın Elmlər Akademiyası və Mədəniyyət Nazirliyi ilə birlikdə aşıq sənətinin təşəkkülü və inkişafı haqqında Azərbaycan və rus dillərində kitab hazırlayıb aşıqlar qurultayınadək buraxsın.

Dövlət Kinomatoqrafiya Komitəsi, Mədəniyyət Nazirliyi, Yazıçılar və bəstəkarlar ittifaqları birlikdə aşıq sənətinin inkişafından bəhs edən iki hissəlik sənədli film yaratmalıdırlar.

Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə respublika qəzetlərinin, ədəbi-bədii nəşrlərin redaksiyalarına təklif edilmişdir ki, respublikada aşıq sənətinin inkişafına həsr olunan verilişlər təşkil etsinlər, məqalələr və materiallar dərc etsinlər.

Respublikanın Mədəniyyət Nazirliyinə, Yazıçılar İttifaqına və Bəstəkarlar İttifaqına tapşırılmışdır:

- üç ildən bir aşıq sənəti festivalı və Vətən, partiya, sovet adamlarının qəhrəmancasına əməyi, xalqlar dostluğu və qardaşlığı

haqqında aşıq mahnılarının müsabiqəsini keçirsinlər. İstedadlı aşıqların aşkara çıxarılması və ən istedadlı gənc ifaçılar arasından aşıqlar hazırlanması üçün lazımi şərait yaratsınlar, aşıqların repertuarının ideya-bədii səviyyəsinin, onların peşə və ifaçılıq məharətinin yüksəlməsinə kömək etsinlər;

- aşıq sənətini geniş təbliğ etsinlər, zəhmətkeşlərin beynəlmiləl, ideya-estetik tərbiyəsi işində, onların vətəndaşlıq hisslərinin, yüksək mənəvi keyfiyyətlərinin, fəal həyat mövqeyinin formalaşdırılması işində aşıq sənətindən daha fəal istifadə etsinlər;
- aşıq mahnılarının va havalarının, xüsusən müasir aşıq sənətinin ən yaxşı nümunələrinin qrammofon vallarına və maqnitofon lentinə yazılmasını təşkil etsinlər, məşhur aşıq kollektivlərini və ifaçıları, respublikanın görkəmli ədəbiyyat və incəsənət xadimlərini bu işə daha yaxından cəlb etsinlər.

## ƏDƏBIYYAT, INCƏSƏNƏT VƏ ARXITEKTURA SAHƏSINDƏ 1978-CI IL AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARININ VERILMƏSI HAQQINDA AZƏRBAYCAN KP MK-NIN VƏ AZƏRBAYCAN SSR NAZIRLƏR SOVETININ QƏRARI

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Nazirlər Soveti yanında Ədəbiyyat, İncəsənət və Arxitektura Sahəsində Azərbaycan SSR Dövlət Mükafatları Komitəsinin təqdimatını müzakirə edərək 1978-ci il Dövlət mükafatlarını aşağıdakılara verməyi qərara alırlar:

Bəstəkar Aqşin Əliqulu oğlu Əlizadəyə - "İyirmi altılar" kantatası üçün.

SSRİ xalq artisti Rəşid Məcid oğlu Behbudova - son illərin konsert proqramları üçün.

Şair Hüseyn Arifə (Hüseyn Camal oğlu Hüseynzadəyə) - 1976-1977-ci illərdə dərc edilmiş şerlər və poemalar üçün.

Heykəltəraş Telman Heydər oğlu Zeynalova, heykəltəraş Eldar Heydər oğlu Zeynalova, arxitektor Əlibəy Nəzərəli oğlu

Novruziyə - həlak olmuş döyüşçülər şərəfinə lənkəran şəfərində memorial üçün.

Azərbaycan SSR əməkdar incəsənət xadimi, ssenari müəllifi və quruluşcu-rejissor Eldar Tofiq oğlu Quliyevə, Gürcüstan SSR əməkdar incəsənət xadimi, quruluşcu operator Rasim Rza oğlu İsmayılova, quruluşçu-rəssam Rafis Rza oğlu İsmayılova, aktyor Əlabass Qulu oğlu Qədirova - C.Cəbbarlı adına "Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş iki seriyalı "Sevinc buxtası" bədii filmi üçün. (Əsas rollardan birinin ifaçısı, Azərbaycan SSR əməkdar artisti H.S.Turabov Azərbaycan SSR Dövlət mükafatına bundan əvvəl layiq görülmüşdür). Əbədiyyatşünas Bəkir Əhməd oğlu Nəbiyevə - "Böyük vətən müharibəsi və Azərbaycan ədəbiyyatı" kitabı üçün.

**Azərbaycan KP Mərkəzi**
**Komitəsinin katibi**
**H. ƏLİYEV**
**Azərbaycan SSR Nazirlər**
**Sovetinin sədri**
**Ə. İBRAHİMOV**

# 1979

## --RESPUBLİKANIN YARADICI İŞÇİLƏRİNƏ AZƏRBAYCAN SSR FƏXRİ ADLARI VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet ədəbiyyatının və incəsənətinin xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

AZƏRBAYCAN SSR
XALQ ŞAİRİ

Dilbazi Mirvarid Paşa qızı – şairə

AZƏRBAYCAN SSR
XALQ ARTİSTİ

Bədirov Mürsəl tağı oğlu – M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti.

AZƏRBAYCAN SSR
XALQ RƏSSAMI

Hüseynov Yusif İsmayıl oğlu – rəssam, Azərbaycan Rəssamlar İttifaqı idarə heyətinin sədri.

AZƏRBAYCAN SSR
ƏMƏKDAR İNCƏSƏNƏT
XADİMİ

Nəcəfov Mürsəl Nəcəf oğlu – sənətşünas, Azərbaycan Rəssamlar İttifaqı idarə heyətinin katibi.

AZƏRBAYCAN SSR
ƏMƏKDAR ARTİSTİ

Aleksandrov Konstantin Petroviç – Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin solisti.

Levtin İsaak Veniaminoviç – Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin solisti.

Mustafazadə Vaqif Əziz oğlu – "Muğam" caz ansamblının rəhbəri.

Sultanov Saleh Hidayət oğlu – Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin solisti.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri
Q.Xəlilov

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi

G.Əbilova

Bakı şəhəri, 23 fevral 1979-cu il.

## RESPUBLİKA ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNİN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Ukrayna SSR-də Azərbaycan SSR ədəbiyyatı və incəsənti günlərinin hazırlanmasında və keçirilməsində fəal iştirak etdiklərinə görə aşağıdakılar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsinlər:

Abdullayev Rauf Canbaxış oğlu – M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının baş drijoru.

Adıgözəlzadə Zöhrab Əfrasiyab oğlu – Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti.

Əhmərova Tanilla Aysayevna – Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının aktrisası.

Bədəlbəyli Fərhad Şəmsi oğlu – Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti.

Bayramov Həbibulla Əbdülhüseyn oğlu – Azərbaycan Dövlət Qastrol-konsert Birliyinin solisti.

Hasilova Xalidə Məmməd qızı – "Azərbaycan qadını" jurnalının baş redaktoru.

Qasımov İldırım Əlinəzər oğlu – Azərbaycan Dövlət Qastrol-konsert Birliyinin solisti.

Kərimova Rumiyə Həmid qızı – M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti.

Quliyev Əlağa Eyvaz oğlu – R.Mustafayev adına Dövlət İncəsənət Muzeyinin direktoru.

Məmmədova Şəfiqə Haşım qızı – M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının aktrisası.

Rəhimova Elmira Allahverdi qızı – Azərbaycan Dövlət Qastrol-konsert Birliyinin solisti.

Rzayev Nazim Əsədulla oğlu – Azərbaycan Dövlət kamera orkestrinin bədii rəhbəri.

Sultanov Fəxr Nəsib oğlu – Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin solisti.

Tumarkina Dina İosifovna – S.Vurğun adına Azərbaycan Rus Dram Teatrının aktrisası.

Eminova Rimma Rəhim qızı – Azərbaycan Rəssamlar İttifaqının üzvü.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 24 fevral 1979-cu il.

## M. QORKİ ADINA AZƏRBAYCAN DÖVLƏT GƏNC TAMAŞAÇILAR TEATRININ “ŞƏRƏF NIŞANI” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet teatr sənətinin inkişafındakı xidmətlərinə görə **M. Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı “Şərəf Nişanı”** ordeni ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**L. BEREJNEV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**M. GEORQADZE**

**Moskva.** Kreml. 4 yanvar 1979-cu il.

## Ə.H.HƏSƏNOV YOLDAŞIN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan sovet musiqi ifaçılıq sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının yetmiş illiyi ilə əlaqədar olaraq Azərbaycan SSR xalq artisti Əşrəf Həsən oğlu Həsənov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q. XƏLİLOV**
**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri.23 yanvar 1979-cu il.

***

## RESPUBLİKANIN ƏDƏBİYYAT XADİMLƏRİNƏ AZƏRBAYCAN SSR FƏXRİ ADLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

AZƏRBAYCAN SSR XALQ YAZIÇISI

Ə.Əbülhəsən (Ələkbərzadə Əbülhəsən Əlibala oğlu)
Qasımov İmran Haşım oğlu
Əfəndiyev İlyas Məhəmməd oğlu

AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ

Abbaszadə Hüseyn Abbas oğlu
Cabir Novruz (Novruzov Cabir Mirzəbə oğlu)
İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu
İbrahimov İshaq İbrahim oğlu
Kürçaylı Əlağa Həsənoğlu oğlu
Nəbi Xəzri (Babayev Nəbi Ələkbər oğlu)
Fikrət Qoca (Qocayev Fikrət Göyüş oğlu)
Yusif Səmədoğlu (Vəkilov Yusif Səməd oğlu)

AZƏRBAYCAN SSR ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ

Babayeva Ələviyyə Hənifə qızı
Qafarov Vladimir Əbdüləzim oğlu
Məmməd Araz (İbrahimov Məmməd İnfil oğlu)

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin**
**sədri Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin**
**katibi G.Əbilova**

Bakı şəhəri, 30 iyul 1979-cu il

## X.R.ZÜLFÜQAROVA YOLDAŞA AZƏRBAYCAN SSR XALQ ARTISTI FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALI SOVETININ RƏYASƏT HEYƏTININ FƏRMANI

Respublikada özfəaliyyat rəqs sənətinin inkişafında xidmətlərinə görə Azərbaycan konsert-qastrol birliyinin baletmeysteri Xumar Rza qızı Zülfüqarova yoldaşa Azərbaycan SSR xalq artisti fəxri adi verilsin.

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

**Bakı şəhəri, 2 aprel 1979-cu il**

## C.R.GÖZƏLOV YOLDAŞIN AZƏRBAYCAN SSR RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Ədəbiyyat sahəsində uzun illər səmərəli işinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq yazıçı Cahangir Rəcəb oğlu Gözəlov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri
Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi
G.Əbilova

Bakı şəhəri, 14 dekabr 1979-cu il.

***

## T.M. TAĞIZADƏ YOLDAŞIN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet kino sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar olaraq, kinorejissor, Azərbaycan SSR xalq artisti Tofiq Mehdi oğlu **Tağızadə** Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q. XƏLİLOV**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 6 fevral 1979-cu il.

## N.M.NƏZİROVA YOLDAŞA AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ ADI VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Respublikada xoreoqrafiya sənətinin inkişafında xidmətlərinə görə M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının quruluşçu baletmeysteri Nelya Məmməd qızı Nəzirova yoldaşa Azərbaycan SSR əməkdar incəsənət fəxri adı verilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri
Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi
G.Əbilova

Bakı şəhəri, 27 noyabr 1979-cu il.

## RESPUBLİKA ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNİN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Ukrayna SSR-də Azərbaycan SSR ədəbiyyatı və incəsənti günlərinin hazırlanmasında və keçirilməsində fəal iştirak etdiklərinə görə aşağıdakılar Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsinlər:

Abdullayev Rauf Canbaxış oğlu – M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının baş drijoru.

Adıgözəlzadə Zöhrab Əfrasiyab oğlu – Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti.

Əhmərova Tanilla Aysayevna – Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının aktrisası.

Bədəlbəyli Fərhad Şəmsi oğlu – Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti.

Bayramov Həbibulla Əbdülhüseyn oğlu – Azərbaycan Dövlət Qastrol-konsert Birliyinin solisti.

Hasilova Xalidə Məmməd qızı – “Azərbaycan qadını” jurnalının baş redaktoru.

Qasımov İldırım Əlinəzər oğlu – Azərbaycan Dövlət Qastrol-konsert Birliyinin solisti.

Kərimova Rumiyə Həmid qızı – M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti.

Quliyev Əlağa Eyvaz oğlu – R.Mustafayev adına Dövlət İncəsənət Muzeyinin direktoru.

Məmmədova Şəfiqə Haşım qızı – M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının aktrisası.

Rəhimova Elmira Allahverdi qızı – Azərbaycan Dövlət Qastrol-konsert Birliyinin solisti.

Rzayev Nazim Əsədulla oğlu – Azərbaycan Dövlət kamera orkestrinin bədii rəhbəri.

Sultanov Fəxr Nəsib oğlu – Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin solisti.

Tumarkina Dina İosifovna – S.Vurğun adına Azərbaycan Rus Dram Teatrının aktrisası.

Eminova Rimma Rəhim qızı – Azərbaycan Rəssamlar İttifaqının üzvü.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

Bakı şəhəri, 24 fevral 1979-cu il.

## N.VƏZİROV ADINA LƏNKƏRAN DÖVLƏT DRAM TEATRININ İŞÇİLƏRİNƏ AZƏRBAYCAN SSR-nin FƏXRİ ADLARININ VERİLMƏSİ HAQQINDA

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fərmanı

Sovet Azərbaycanı teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakılara fəxri adlar verilsin:

### AZƏRBAYCAN SSR ƏVƏKDAR İNCƏSƏNƏT XADİMİ

İsmayılzadə Məbud İbrahim oğlu – teatrın direktoru və baş rejissoru

### AZƏRBAYCAN SSR ƏVƏKDAR ARTİSTİ

Əliyeva Böyükxanım Həsənbala qızı – aktrisa
Quliyev Qabil Əzizulla oğlu – artist

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

**Bakı şəhəri, 2 aprel 1979-cu il**

## T.M. TAĞIZADƏ YOLDAŞIN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet kino sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar olaraq, kinorejissor, Azərbaycan SSR xalq artisti Tofiq Mehdi oğlu **Tağızadə** Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q. XƏLİLOV**
**Azərbaycan Ssr Ali Soveti Rəyasət Heyətinin katibi**
**G.ƏBİLOVA**

Bakı şəhəri, 6 fevral 1979-cu il.

## N.VƏZİROV ADINA LƏNKƏRAN DÖVLƏT DRAM TEATRININ İŞÇİLƏRİNƏ AZƏRBAYCAN SSR FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fərmanı

Sovet Azərbaycanı teatr sənətinin inkişafında xidmətlərinə görə aşağıdakılar Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsinlər:

Əliyev Nəzir Kərim oğlu – artist
Hüseynova Nəcibə İbrahim qızı – aktrisa
Məmmədov Füzuli Şahbalı oğlu – artist

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

**Bakı şəhəri, 2 aprel 1979-cu il**

## R.A.TƏHMASİB YOLDAŞIN AZƏRBAYCAN SSR FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fərmanı

Sovet teatr və kino sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının səksən illiyi ilə əlaqədar olaraq Azərbaycan SSR xalq artisti, professor Rza Abasqulu oğlu Təhmasib Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin katibi**
**G.Əbilova**

**Bakı şəhəri, 19 aprel 1979-cu il**

## ---Azərbaycan KP Mərkəzi Komitəsində

**Azərbaycan KP MK Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında məsələ müzakirə etmişdir.**

Qəbul olunmuş qərarda qeyd edilir ki, Sovet hakimiyyəti illərində Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri, təbliği və onun xatirəsinin əbədiləşdnrilməsi sahəsində böyük iş görülmüşdür. Respublikada Nizaminin bütün beş poeması: «Sirlər xəzinəsi», «Leyli və Mvcnun», «Xosrov və Şirin». «Yeddi gözəl», «Isgəndərnamə» poemaları və lirik şerləri Azərbaycan və rus dillərində kütləvi surətdə nəşr edilmiş və bu əsərlərin akademik nəşrləri buraxılmışdır. Dörd poemanın fars dilində tənqidi mətnləri çapdan çıxmışdır. Moskva nəşriyyatlarında şairin şərhlərlə və giriş məqalələri ilə birlikdə «Lirika» adlı şerlər kitabı və bütün poemaları (nəşr edilmişdir. Görkəmli sovet alim və yazıçıları Y.Bertelsin, Y.Marrın; M.Şakinyanın, H. Araslının, M.Rəfilinin və başqalarının Nizami haqqında monoqrafiyaları və məqalələrindən ibarət məcmuələr çap edilmişdir. Nizami mövzularında qiymətli poeziya, nəsr, dram, musiqi və təsviri sənət əsərləri yaradılmışdır. Şairin əsərləri dəfələrlə SSRI xalqlarının dillərində nəşr edilmişdir.

Bununla birlikdə respublikanın nəşriyyatları, elmi tədqiqat idarələri, yaradıcılıq ittifaqları Nizaminin ədəbi irsinə diqqəti bir qədər zəiflətmişlər ki, bunun da nəticəsində son illərdə onun əsərlərinin nəşri əslində dayandırılmışdır. Əvvəllər nəşr edilmiş əsərlərin çoxu həm tərcümənin keyfiyyətnə görə həm də bədii-poliqrafik tərtibatına görə müasir tələblərə cavab vermir.

Nizaminin dərc edilməmiş lirik şerlərinin aşkara çıxarılması sahəsində zəif iş aparılır. Nizami «Xəmsə»sinin Azərbaycan dilində sətri tərcuməsi şairin Yaxın və Orta Şərq ölkələrinin xalqları üçün ərəb əlifbası ilə (Azərbacan dilində) əsərləri, «Xəmsə»nin fars dilində akademik nəşri buraxılmamışdır.

Nizami yaradıcılığı sahəsində elmi tədqiqat işlərinin əlaqələndirilməsində və planlaşdırılmasında müəyyən bir sistem

yoxdur. Nizaminin ədəbi irsi problemləri sahəsində işləmək üçün kadrlar hazırlanmasına lazımına fikir verilmir. Mütəxəssislər Nizami yaradıcılığı, dünya ədabiyyatında onun rolu ilə əlaqədar məsələlər barəsində mərkəzi və respublika qəzet və jurnallarının səhifələrində az-az çıxış edirlər ki, bu da bir sıra xarici nəşrlərdə və sovet nəşrlərində yanlış fikirlərin meydana gəlməsinə səbəb olur. Yazıçılar və alimlər şairin həyat və yaradıçılığı haqqında az elmi-kütləvi əsər yazırlar. Azərbacan bəstəkarları və rəssamları Nizami yaradıcılığına nadir hallarda müraciət edirlər.

Respublikanın mədəniyyət, maarif, ali və orta ixtisas təhsili, rabitə, yerli sənaye, yüngül sənaye, yeyinti məhsulları sənayesi, əhaliyə məişət xndməti iazirlikləri Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyəti, Azərbaycan Teatr Cəmiyyəti, respublikanın rəssamlıq fondu və digər idarələr Nizami əsərlərinin mövzularını əks etdirən xatirə hədiyyələrinin suvenirlərinin, döş nişanlarının, poçt markalarının otkrıtkaların, zərflərin və digər məmulatın geniş buraxılışı üçün mövcud imkanlardan az istifadə edirlər.

Azərbaycan KP MK Dövlətnəşrkoma, Elmlər Akademiyasına, Yazıçılar Ittifaqına, Rəssamlar Ittifaqına, Bəstəkarlar Ittifaqına, respublikanın Mədəniyyət Nazirliyinə, Dövlət Kinematoqrafiya Komitəsinə, Azteleradioya, qəzet və jurnalların redaksiyalarına bir vəzifə olaraq tapşırılmışdır ki, Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və təbliği işinin kökündən yaxşılaşdırılmasını təmin etsinlər.

Nizaminin ədəbi irsinin öyrənilməsi, onun əsərlərinin nəşr olunması və təbliğ edilməsi işi daim, səmərəli və keyfiyyətcə yüksək səviyyədə şairin yaradıcılığının dünya ədəbiyyatında tutduğu görkəmli yerə muvafiq surətdə aparılmalıdır.

Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılıq irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq sahəsindəki bütün işləri əlaqələndirmək üçui Azərbaycan SSR Elmlər Akademiyası yanında Elmlər Akademiyasının prezidenti H.B. Abdullayevin sədrliyi ilə komissiya yaradılmışdır.

Təsdiq edilmiş tədbirlər planında «Xəmsə»yə daxil olan bütün poemaları Azərbaycan və rus dillərində təshih edilmiş şəkildə yenidən nəşr etmək nəzərdə tutulur.

Nizaminin bir cildliyinin (Azərbaycan və rus dillərində), lirikasının (Azərbaycan, rus, ingilis. alman və fransız dillərində), hikmətli sözlərnin (Azərbaycan və rus dillərində) suvenir nəşrlərini buraxmaq nəzərdə tutulmuşdur.

Nizaminin Azərbaycan (ərəb əlifbası ilə), ingilis, fransız və türk dillərində bircildliyi, onun əsərlərinii Azərbaycan və rus dillərində uşaqlar və gənclər uçün uyğunlaşdırılmış variantları buraxılacaqdır.

Həmçinin abunə üçün «Xəmsə»ni rus dilində nəşr -etmək və onun fars dilində akademik (ilk dəfə) nəşrini buraxmaq nəzərdə tutulmuşdur.

«Xəmsə»nin Azərbaycan və rus dillərində sətri tərcüməsi, Nnzami dilinin üç cildlik lüğəti və «Yeddi gözəl» poemasının fars dilində tənqid mətni, böyük söz ustadının həyat və yaradıcılığı haqqında elmi monoqrafiyalar və kütləvi kitablar, iki ildə bir dəfə «Ni-zami» almanaxı buraxılacaqdır.

Nizami adına muzeyin materialları əsasında «Nizami nurlu muzey» albomu buraxılacaqdır. Sovet Ittifaqının və xarici ölkələrin kitabxanalarındakı kolleksiyalardan hazırlanacaq «Nizami poemalarına aid miniatürlər» albomu da maraqla qarşılanacaqdır. Rəngli-plakatlar seriyası Nizaminin portretlərini və onun əsərlərnin süjetlərini əks etdirəcəkdir. Nizami mövzularında yazılmış musiqi əsərlərini — Q. Qarayevin «Yeddi gözəl» baletini və «Leyli və Məcnun» simfonik-poemasını. F. Əmirovun «Nizaminin xatirəsi» simfoniyası A.Məlikovun «Məhəbbət əfsanəsi» baletini, Üzeyir Hacıbəyovun romanslarını və başqa əsərləri yenidən nəşr etmək planlaşdırılmışdır.

Bakıda, Moskvada, habelə bir sıra xarici ölkələrdə Nizamiyə həsr edilən rəssamlıq sərgiləri təşkil olunacaqdır.

Nizaminin hayat və yaradıcılığından bəhs edən iki seriyalı rəngli bədii film çəkiləcəkdir. Nizami mövzularında ədəbi-bədii,

musiqili, təsviri əsərlər və səhnə əsərləri yaratmaq nəzərdə tutulmuşdur.

Böyük şairə həsr edilən müxtəlif suvenirlər, döş nişanları, poçt markaları, zərflər və otkrıtkalar buraxılması planlaşdırılmışdır.

Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat Institutunda Nizaminin həyat və yaradıcılığını öyrənmək üçün xüsusi şöbə yaradılır. Iki ildə bir dəfə Moskvadan, Leninqraddan, müttəfiq respublikalardan və xarici ölkələrdən mütəxəssislərin iştirakı ilə Nizami konfransları keçirmək nəzərdə tutulmuşdur.

Hər ilpn sentyabr ayıida Nizami poeziya günləri keçirilməsi üçün Azərbaycan Yazıçılar Ittifaqı yanında komissiya yaradılmışdır.

# 1980

## ƏDƏBIYYAT, INCƏSƏNƏT VƏ ARXITEKTURA SAHƏSINDƏ 1980-CI IL LENIN MÜKAFATLARININ VERILMƏSI HAQQINDA

SOV.IKP MK-NIN VƏ SSRI NAZIRLƏR SOVETININ QƏRARI

Sov.IKP Mərkəzi Komitəsi və SSRI Nazirlər Soveti SSRI Nazirlər Soveti yanında Ədəbiyyat, Incəsənət və Arxitektura Sahəsində Lenin və SSRI Dövlət Mükafatları Komitəsinin təklifini müzakirə edərək, aşağıdakılara 1980-ci il Lenin mükafatlarını verməyi qərara alırlar:

1. Ssenari müəllifləri, RSFSR əməkdar mədəniyyət işçisi Kuşel Leyboviç Slavinə, Iqor Moiseyeviç Itskova, tarix elmləri namizədi, ssenari müəllifi və baş məsləhətçi Andrey Mixayloviç Aleksandrova (Aleksandrov Agentova), Sovet Ittifaqı Qəhrəmanı, ordu generalı, professor, baş hərbi məsləhətçi Pavel Alekseyeviç Kuroçkinə, rejissorlar Iqor Iqoreviç Geleynə, İiqor Andreyeviç Qriqoryevə, RSFSR əməkdar incəsənət xadimi Ilya Semyonoviç

Qutmana, Lev Stefanoviç Danilova, Vasili Vasilyeviç Katanyana, Semyon Qriqoryeviç Kiselyova, RSFSR xalq artisti Leonid Mixayloviç Kristiyə, Semiramida Nikolayevna Pumpyanskayaya, Tengiz Aleksandroviç Semyonova, Nina Vasilyevna Solovyovaya, Aleksandra Yakovlevna Rıbakovaya, Çemma Sergeyevna Firsovaya (Mikoşaya), Zoya Petrovna Fominaya, RSFSR əməkdar mədəniyyət işçisi, səs operatoru Iqor Feliksoviç Qunkerə, RSFSR xalq artisti Vasili Semyonoviç Lanovoya – 20 tammetrajlı filmdən ibarət «Böyük Vətən müharibəsi» sənədli-publisistik kinoepopeyası üçün (kinoepopeyanın bədii rəhbəri və baş rejissoru Sosialist Əməyi Qəhrəmanı, SSRI xalq artisti Roman Lazareviç Karmenə Lenin mükafatı bundan əvvəl verilmişdir).

2. Yazıçı Nodar Vladimiroviç Dumbadzeyə – «Ədəbiyyat qanunu» - romanı üçün.

3. Latviya SSR xalq rəssamı Indulis Auqustoviç Zarinə – «1945-ci ilin baharı». «Müharibəyə gedərkən (Sovet hakimiyyəti uğrunda)», «Biçin mahnısı» rəsmləri, SSRI xalq rəssamı Teodor Zalkalnın portreti üçün.

4. Sosialist Əməyi Qəhrəmanı, SSRI xalq artisti Iqor Vladimiroviç Ilinskiyə – teatrda və televiziyada son illərin işləri üçün.

5. Şair Yeqor Aleksandroviç Isayevə – «Uzaq xatirələr». «Yaddaş məhkəməsi» poetik dilogiyası üçün.

6. SSRI xalq artisti Boris Aleksandroviç Pokrovskiyə – SSR Ittifaqı Dövlət Akademik Böyük Teatrında və Kamera Musiqisi Teatrında sovet bəstəkarlarının operalarının tamaşası üçün.

7. SSRI xalq artisti Arkadi Isaakoviç Raykinə – Leninqrad Dövlət Miniatür Teatrında son illərin tamaşalarında rejissorluq və rolların ifası üçün.

8. SSRI xalq rəssamı Nikolay Mixayloviç Romadinə – «Moskva vilayətində qış», «Kudinsk gölü», «Berendey meşəsi», «Şimali Qafqazda bahar», «Yesenin Rusiyası», «Meşə kəndi», «Yağışdan xəbər verən şimşək» mənzərə rəsmləri üçün.

9. SSRI xalq artisti, rejissor Stanislav Iosifoviç Rostotskiyə, RSFSR əməkdar incəsənət xadimi, operator Vyaçeslav Mixayloviç Şumskiyə, SSRİ xalq artisti, rol ifaçısı Vyaçeslav Vasilyeviç Tixonova – «Qaraqulaq ağ Bim» bədii filmi üçün (uşaqlardan ötrü ədəbiyyat və incəsənət əsərlərinə görə mükafat).

10. Qırğızıstan SSR xalq rəssamı Turqunbay Sadıkova – Frunze şəhərində «Inqilab mübarizlərinə» abidəsi üçün.

11. SSRI xalq artisti Anatoli Borisoviç Solovyanenkoya – son illərin opera partiyaları və konsert proqramları üçün.

12. SSRI xalq rəssamı Dementi Alekseyeviç Şmarinova – A.S.Puşkinin «Kapitan qızı», «Belkinin hekayələri», «Dubrovski», «Qaratoxmaq qadın» (Dövlət Uşaq Ədəbiyyatı Nəşriyyatı, 1976-1978-ci illər), L.N.Tolstoyun «Qərb və sülh» («Художественная литература» nəşriyyatı, 1978-ci il) kitablarının illüstrasiyası və tərtibatı üçün.

**Sov.IKP Mərkəzi Komitəsinin katibi L.Brejnev**
**SSRI Nazirlər Sovetinin sədri A.Kosıgin**

**ƏDƏBIYYAT, INCƏSƏNƏT VƏ ARXITEKTURA SAHƏSINDƏ 1980-CI IL AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARININ VERILMƏSI HAQQINDA**
AZƏRBAYCAN KP MK-NIN VƏ AZƏRBAYCAN SSR NAZIRLƏR SOVETININ QƏRARI

Azərbaycan KP Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Nazirlər Soveti yanında Ədəbiyyat, Incəsənət və Arxitektura Sahəsində Azərbaycan SSR Dövlət Mükafatları Komitəsinin təklifini müzakirə edərək, 1980-ci il Dövlət Mükafatlarını aşağıdakılara verməyi qərara alırlar:

1. Yazıçı Imran Haşım oğlu Qasımova, rejissor Muxtar Baba oğlu Dadaşova – C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında istehsal olunmuş «Brejnev Bakıda» tammetrajlı sənədli filmi üçün.

2. Şair Əhməd Cəmilə (Əhməd Səttar oğlu Cəmilzadəyə) – son illərdə yazılmış və «Vaxtında gəlmişik bu dünyaya biz» kitabında toplanmış şerlər üçün (ölümündən sonra).

3. Yazıçı, pyesin müəllifi Anara (anar Rəsul oğlu Rzayevə), rolların ifaçıları Səməndər Mənsim oğlu Rzayevə, Şəfiqə Haşım qızı Məmmədovaya – M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında göstərilmiş «Şəhərin yay günləri» tamaşası üçün.

4. Şair Əlağa Həsənağa oğlu Kürçaylıya – son illərdə yazılmış və «Bütövlük» kitabında toplanmış şerlər üçün (ölümündən sonra).

5. Yazıçı, ssenari müəllifi Rüstəm Məmmədibrahim oğlu Ibrahimbəyova, quruluşçu rejissor Rasim Mirqasım oğlu Ocaqova, rəssam Kamil Nəcəf oğlu Nəcəfzadəyə, rolların ifaçıları Hacı Məmməd oğlu Ismaylova, David Georgiyeviç Uplisaşviliyə – C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında istehsal olunmuş «Ad günü» bədii televiziya filmi üçün.

6. Bəstəkar Tofiq Ələkbər oğlu Quliyevə – son illərdə bəstələdiyi mahnılar və kinofilmlərə yazdığı musiqi üçün.

7. Heykəltəraş Əhməd Batskoyeviç Salikova – F.E.Dzerjinsikinin abidəsi üçün.

8. Tənqidçi Yaşar Vahid oğlu Qarayevə «Poeziya və nəsr» ədəbiyyatşünaslıq tədqiqatı üçün.

9. Şair Məstan Rəsul oğlu Əliyevə – uşaqlardan ötrü «Çalğıçı quşlar» və «Bax, bu da Ibrahimdir» şerlər kitabları üçün.

**Azərbaycan KP MK katibi H.Əliyev**
**Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ə.Ibrahimov**

**1980-ci il**

## H.M.MƏMMƏDOV YOLDAŞIN AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏXRI FƏRMANI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar olaraqa Azərbaycan SSR xalq artisti Hacı Məmməd oğlu Məmmədov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi R.Qazıyeva**

**Bakı şəhəri, 25 aprel 1980-ci il.**

## YAZIÇI A.Y.MƏMMƏDOVUN AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏXRI FƏRMANI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Ədəbiyyat sahəsində xidmətlərinə görə və anadan olmasının əlli illiyi ilə əlaqədar olaraq, yazıçı Altay Yusif oğlu Məmmədov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi R.Qazıyeva**

**Bakı şəhəri, 14 may 1980-ci il.**

## YAZIÇI RƏSUL RZAYA (R.I.RZAYEVƏ) SOSIALIST ƏMƏYI QƏHRƏMANI ADI VERILMƏSI HAQQINDA

SSRI ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Sovet ədəbiyyatının inkişafında böyük xidmətlərinə, səmərəli ictimai fəaliyyətinə görə və anadan olmasının yetmiş illiyi ilə əlaqədar olaraq yazçı Rəsul Rzaya (Rəsul Ibrahim oğlu Rzayevə) Lenin ordeni və «Oraq və Çəkic» qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adı verilsin.

**SSRI Ali Soveti Rəyasət Heyətinin sədri L.Brejnev.**
**SSRI Ali Soveti Rəyasət Heyətinin katibi M.Georqadze**

**Moskva, Kreml, 16 may 1980-ci il**

**«AZƏRBAYCAN SSR ƏMƏKDAR ALI MƏKTƏB IŞÇISI» FƏXRI ADI MÜƏYYƏN EDILMƏSI HAQQINDA**
AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTINI FƏRMANI

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qərara alır:

1. «Azərbaycan SSR əməkdar ali məktəb işçisi» fəxri adı müəyyən edilsin.

2. Bu fərmanın 1-ci maddəsinə uyğun olaraq, «Azərbaycan SSR fəxri adlarını müəyyən etmək və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif etmək haqqında»Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1959-cu il 18 may tarixli fərmanında və «Azərbaycan SSR fəxri adları və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı haqqında» Əsasnamədə müvafiq dəyişikliklər və əlavələr edilsin.

A) Fərmanın 1-ci maddəsinə «Azərbaycan SSR əməkdar müəllimi» sözlərindən sonra «Azərbaycan SSR əməkdar ali məktəb işçisi» sözləri əlavə edilsin.

B) Əsasnamənin 1-ci bölməsinə aşağıdakı məzmunda 7-A maddəsi əlavə edilsin.

«7-A. Azərbaycan SSR əməkdar ali məktəb işçisi fəxri adı ali təhsil sahəsində ən azı 15 il işləmiş və təlim-tərbiyə işində, tələbə gənclərin kommunist tərbiyəsi və təlimi işində, xalq təsərrüfatı üçün yüksək ixtisaslı mütəxəssislər hazırlanmasında, elmin inkişafında mühüm xidmətləri olan, ictimai həyatda fəal iştirak edən ali məktəb professorlarına, dosentlərinə, assistentlərinə, müəllimlərinə, elmi əməkdaşlarına, Azərbaycan SSR Ali və Orta Ixtisas Təhsili Nazirliyinin inspektorlarına, metodistlərinə və digər yüksək ixtisaslı işçilərinə verilir».

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi R.Qazıyeva**

**Bakı şəhəri, 20 may 1980-ci il.**

**AZƏRBAYCAN SSR XALQ ARTISTI M.S.SƏNANININ QIRMIZI ƏMƏK BAYRAĞI ORDENI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA**

SSRI ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Sovet teatr sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının səksən illiyi ilə əlaqədar olaraq M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti Azərbaycan SSR xalq artisti Möhsün Sadıq oğlu Sənani Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilsin.

**SSRI Ali Soveti Rəyasət Heyətinin sədri**
**L.Brejnev**
**SSRI Ali Soveti Rəyasət Heyətinin katibi**
**M.Georqadze**

**Moskva, Kreml. 11 iyun 1980-ci il**

**Ə.ƏZİMZADƏ ADINA AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ MƏKTƏBİNİN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI TƏLTİF EDİLMƏSİ HAQQINDA**

**AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI**

Təsviri sənət ustaları hazırlanmsı işində qazanılmış müvəffəqiyyətlərə görə və yaradılmasının 60 illiyi ilə əlaqədar olaraq, Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**R.Qazıyeva**

Bakı şəhəri, 18 dekabr 1980-cı il.

## Ə.ƏZİMZADƏ ADINA AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ MƏKTƏBİNİN MÜƏLLİMLƏRİNƏ RESPUBLİKA FƏXRİ ADLARI VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Təsviri sənət ustaları hazırlanması işində xidmətlərinə görə və Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin yaradılmasının 60 illiyi ilə əlaqədar olaraq aşağıdakılara fəxri adlar verilsin:

**AZƏRBAYCAN SSR ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ**

Hüseynov Əyyub Müseyib oğlu – müəllim.
Məmmədov Hafiz Məmməd oğlu – müəllim.

AZƏRBAYCAN SSR ƏMƏKDAR RƏSSAMI
Mehdiyev Rafiq Mahmud oğlu – müəllim.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**R.Qazıyeva**

Bakı şəhəri, 18 dekabr 1980-cı il.

## Ə.ƏZİMZADƏ ADINA AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ MƏKTƏBİNİN AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Təsviri sənət ustaları hazırlanması sahəsində uzun illər səmərəli fəaliyyətinə görə və Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbinin yaradılmasının 60 illiyi Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsinlər.
Abdullayev Ağalar Bəhmən oğlu – müəllim.
Mahmudov Hüseyn Ağa oğlu - müəllim.
Şıxlı Sabir Məmməd oğlu - müəllim.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri
Q.Xəlilov
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi
R.Qazıyeva

Bakı şəhəri, 18 dekabr 1980-cı il.

***

## AZƏRBAYCAN YAZIÇI, «AZƏRBAYCAN QADINI» JURNALININ BAŞ REDAKTORU X.M.HASILOVA YOLDAŞIN QIRMIZI ƏMƏK BAYRAĞI ORDENI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

SSRI ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Sovet ədəbiyyatının inkişafında xidmətlərinə, mətbuatda səmərəli işinə görə və anadaan olmasının altmış illiyi ilə əlaqədar olaraq yazıçı, «Azərbaycan qadını» jurnalının baş redaktoru Xalidə Məmməd qızı Hasilova yoldaş Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi R.Qazıyeva**

**Moskva, Kreml, 18 aprel 1980-ci il.**

***

## SSRİ XALQ ARTİSTİ R.M.BEHBUDOVA SOSİALİST ƏMƏYİ QƏHRƏMANI ADI VERİLMƏSİ

SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN
FƏRMANI

Sovet musiqi sənətinin inkişafında görkəmli xidmətlərinə görə SSRİ xalq artisti Rəşid Məcid oğlu Behbudova Lenin ordeni və"Oraq və Çəkic" qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adı verilsin.

SSRİ ali soveti rəyasət heyətinin sədri
L.BREJNEV
SSRİ ali soveti rəyasət heyətinin
M.GEORQADZE

Moskva, Kreml, 23 aprel 1980-cı il.

## H.M.MƏMMƏDOV YOLDAŞIN AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏXRI FƏRMANI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ
FƏRMANI

Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar olaraqa Azərbaycan SSR xalq artisti Hacı Məmməd oğlu Məmmədov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilsin.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri**
**Q.Xəlilov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi**
**R.Qazıyeva**

**Bakı şəhəri, 25 aprel 1980-ci il.**

***

## YAZIÇI A.Y.MƏMMƏDOVUN AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏXRI FƏRMANI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

AZƏRBAYCAN SSR ALI SOVETI RƏYASƏT HEYƏTININ FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə İsmayıl Qəhrəman oğlu Şixlinski (İsmayil Şixlinin) "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikası Prezidenti**
**Heydər Əliyev**

Bakı şəhəri, 4 iyul 1994 –cü il

## MƏHƏMMƏD FÜZULININ ANADAN OLMASININ 500 ILLIK YUBILEYI ÜZRƏ DÖVLƏT KOMISSIYASININ YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ FƏRMANI

1994-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi tamam olur. Dünya klassikləri sırasında ensiklopedik biliyi, dəyərli bədii-fəlsəfi irsi ilə seçilən ölməz söz ustası Füzulinin Azərbaycan, ərəb və fars dillərində yaratdığı əsərlər ümumbəşəri mənəvi dəyər və sərvətlər xəzinəsinə əbədi daxil olmuşdur.

Məhəmməd Füzulinin 500 illik yubileyinin əsaslı hazırlanması və dövlət səviyyəsində keçirilməsi şairin xatirəsinə dərin ehtiram və məhəbbətin ifadəsi olmaqla Azərbaycan xalqının qədim və yüksək mədəniyyətinin bütün dünyada təbliği və tərənnümünə xidmət edir.

Məhəmməd Füzulinin dunya mədəniyyəti və ədəbiyyatı tarixindəki mövqeyini, onun yubleyinin beynəlxalq əhəmiyyətli hadisə olduğunu nəzərə alaraq dahi şair və mütəfəkkirin 500 illiyinin layiqincə hazırlanması və keçirilməsi məqsədi ilə qərara alıram:

1. Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi üzrə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

Dövlət Komissiyasının sədri:

Heydər Əliyev - Azərbaycan Respublikasının Prezidenti

Dövlət Komissiyası sədrinin müavinləri:

Elçin Əfəndiyev - Azərbaycan Respublikası Baş nazirinin müavini

Eldar Salayev - Azərbayçan Respublikası Elmlər Akademiyasının prezidenti

Anar Rzayev - Azərbaycan Yazıçılar Birliyinin sədri

Dövlət Komissiyasının üzvləri:

Qabil Hüseynli - Azərbaycan Respublikasının dövlət müşaviri

Hidayət Orucov - Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidenti Aparatının humanitar siyasət şöbəsinin müdiri

Ismayıl Sadıqov - Azərbaycan Respublikası Nazirlər Kabineti Işlər Idarəsinin elm, mədəniyyət və xalq təhsili şöbəsinin müdiri

Həsən Həsənov - Azərbaycan Respublikasının Xarici Işlər naziri

Lidiya Rəsulova - Azərbaycan Respublikasının təhsil naziri
Polad Bulbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri

Sabir Rüstəmxanlı - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Babək Məmmədov - Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

Ramiz Rizayev - Moskva şəhərində Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi

Allahşükür Paşazadə - Qafqaz Müsəlmanları Ruhani Idarəsinin sədri

Nazim Ibrahimov - «Azərbaycan» nəşriyyatının direktoru

Ismayıl Vəliyev - «Azərbaycan Ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru

Vaqif Rüstəmov - AzərTAC-ın baş direktoru

Ziya Bünyadov - Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, Şərqşünaslıq Institutunun direktoru

Aslan Aslanov - Azərbaycan Respublikası Elmlər Akademiyası tarix, iqtisadiyyat, fəlsəfə və hüquq bölməsinin akademik-katibi, Fəlsəfə və Hüquq Institutunun direktoru

Bəkir Nəbiyev - Azərbaycan Respublikası Elmlər Akademiyası ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi

Kamal Talıbzadə - Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki

Bəxtiyar Vahabzadə - Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

Əlyar Səfərli - Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

Fuad Qasımzadə - Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü

Iqrar Əliyev - Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, Tarix Institutunun direktoru

Rəfael Allahverdiyev - Bakı şəhər Icra hakimiyyətinin başçısı

Kamal Abdullayev - Azərbaycan Mədəniyyət Fondunun sədri

Çingiz Abdullayev - Azərbaycan Yazıçılar Birliyinin katibi

Tofiq Quliyev - Azərbaycan Bəstəkarlar Ittifaqının sədri

Fərhad Bədəlbəyli - Azərbaycan Musiqi Xadimləri Ittifaqının sədri

Rasim Balayev - Azərbaycan Kinematoqrafçılar Ittifaqının birinci katibi

Hacı Hacıyev - Azərbaycan Jurnalistlər Birliyinin sədri

Həsənağa Turabov - Azərbaycan Teatr Xadimləri Ittifaqının prezidenti

Fərhad Xəlilov - Azərbaycan Rəssamlar Ittifaqının sədri

Ilham Əliyev - Azərbaycan Memarlar Ittifaqının sədri

Oqtay Mirqasımov - «Azərkinovideo» Istehsalat Birliyinin sədri

Ismayıl Şıxlı - xalq yazıçısı

Nəbi Xəzri - xalq şairi

Balaş Azəroğlu - xalq şairi

Xəlil Rza - xalq şairi

Isa Hüseynov - xalq yazıçısı

Arif Məlikov - xalq artisti, bəstəkar

Cabir Novruz - xalq şairi

Yusif Səmədoğlu - yazıçı

Rüstəm Ibrahimbəyov - yazıçı, kinodramaturq

Ramiz Fətəliyev - kinodramaturq, «Azərbaycanfilm» kinostudiyasının direktoru

Sabir Əhmədli - «Ədəbiyyat» qəzetinin redaktoru

Yaşar Qarayev - Azərbaycan Respublikası Elmlər Akademiyası Nizami adına Ədəbiyyat Institutunun direktoru

Ağamusa Axundov - Azəobaycan Respublikası Elmlər Akademiyası Nəsimi adına Dilçilik Institutunun direktoru

Cahankir Qəhrəmanov - Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmaları Institutunun arxitektoru

Vasim Məmmədəliyev - Bakı Dövlət Universitetinin kafedra müdiri

Rüstəm Əliyev - Azərbaycan Respublikası Elmlər Akademiyası Şərqşünaslıq Institutunun şöbə müdiri

Samət Əlizadə - Bakı Dövlət Universitetinin professoru

Azadə Rüstəmova - Azərbaycan Respublikası Elmlər Akademiyası Ədəbiyyat Institutunun baş elmi işçisi, filologiya elmləri doktoru

Vəcihə Feyzullayeva - Azərbaycan Respublikası Elmlər Akademiyası Ədəbiyyat Institutunun böyük elmi işçisi, filologiya elmləri namizədi

Mail Əliyev - Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmaları Institutunun elmi işçisi

2. Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasına müvafiq ştat vahidləri ayırmaqla üç nəfərdən ibarət işçi qrup yaradılsın

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 31 avqust tarixli 102 №-li sərəncamı öz qüvvəsini itirmiş hesab edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLIYEV.**

Bakı şəhəri, 16 mart 1994-cü il.
№ 118.

# 1995

## S.M. ASLANOVUN «ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANİ

Azərbaycan milli teatr sənətinin inkişafında xidmətlərinə görə Səyavuş Məmmədağa oğlu Aslanov "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər Əliyev.**

**Bakı şəhəri, 9 dekabr 1995-ci il.**

## Y.S.VƏKİLOVUN «ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Vəkilov Yusif Səməd oğlu (Yusif Səməd oğlu) "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər Əliyev.**

**Bakı şəhəri, 19 dekabr 1995-ci il.**

## AKADEMİK ŞƏFAƏT FƏRHAD OĞLU MEHDİYEVİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASİ PREZİDENTİNİN SƏRƏNCAMI

Görkəmli alim, əməkdar elm xadimi, Dövlət (mükafatı laureatı, akademik Şəfaət Fərhad Mehdiyevin xatirəsini əbədiləşdirmək məqsədilə qərara alıram

1. Təhsil Nazirliyi Azərbaycan Dövlət Neft Akademiyasının geoloji-kəşfiyyat fakültəsinin və Bakı Dövlət Universitetinin geologiya fakültəsinin tələbələri üçün Şəfaət Mehdiyev adına təqaüd etsin.

2. Bakı şəhər icra hakimiyyəti:

- Şəfaət Mehdiyevin yaşadığı binaya (Adil İskəndərov küçəsi, 2) xatirə lövhəsinin vurulmasını təmin etsin;

- Bakı şəhərinin küçələrindən birinə akademik Şəfaət Mehdiyevin adının verilməsi məsələsini muvafiq qaydada həll etsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər Əliyev.**

**Bakı şəhəri, 19 dekabr 1995-ci il.**

## ÜZEYİR HACİBƏYOVUN ANADAN OLMASININ 110 İLLIK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

Azərbaycan Respublikası prezidentinin sərəncamı 1995-ci il sentyabr ayının 18-də görkəmli Azərbaycan bəstəkarı, - Azərbaycan milli operasının banisi, istedadlı musiqişünas-alim, publisist və pedaqoq Üzeyir Hacıbəyovun anadan olmasının 110 illiyi tamam olur.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq Üzeyir Hacıbəyovun, anadan olmasının 110 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın:

**Təşkilat komitəsinin sədri**

Elçin Əfəndiyev - Azərbaycan Respublikası baş nazirinin müavini

**Təşkilat komitəsinin sədrinin müavinləri**

Tofiq Quliyev - Azərbaycan Bəstəkarlar İttifaqının sədri

Anar Rzayev – Azərbaycan yazıçılar Birliyinin sədri

**Təşkilat komitəsinin üzvləri**

Rəfael Allahverdiyev - Bakı şəhəri icra hakimiyyətinin başçısı

Hasən Həsənov - Azərbaycan Respublikasının xarici işlər naziri

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezident Aparatının humanitar siyasət şöbəsinin müdiri

Polad Bülbüloğlu - Azərbaycan Rsspublikasının mədəniyyət naziri

Lidiya Rəsulova - Azərbaycan Respublikasının təhsil naziri

Sabir Rüstəmxanlı - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Eldar Salayev - Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti

Babək Məmmədov - Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

Nazim İbrahimov - «Azərbaycan» nəşriyyatının baş direktoru

Fərhad Bədalbəyli - Azərbaycan Dövlət Musiqi Akademiyasının rektoru

Bəkir Nəbiyev - Azərbaycan Respublikası Elmlər Akademiyasının ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi

2. Bu sərəncamdan irəli gələn məsələlərin həlli Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər Əliyev.**

**Bakı şəhəri, 1 sentyabr 1995-ci il**.

## SERGEY YESENİNİN ANADAN OLMASININ 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

Bu il görkəmli rus şairi Sergey Yeseninin anadan olmasının 100 illiyi tamam olur. Böyük sənətkarı yubileyinin Azərbaycanda keçirilməsi ilə əlaqədar olaraq qərara alıram:

1. Sergey Yeseninin 100 illik yubileyi Azərbaycan Respublikasında təntənəli şəkildə qeyd edilsin.
2. Yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi üçün aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın:

### Təşkilat komitəsinin sədri

Elçin Əfəndiyev - Azərbaycan Respublikası baş nazirinin müavini

### Təşkilat komitəsinin sədrinin müavini

Anar Rzayev – Azərbaycan yazıçılar Birliyinin sədri

### Təşkilat komitəsinin üzvləri

Rəfael Allahverdiyev - Bakı şəhəri icra hakimiyyətinin başçısı

Lidiya Rəsulova - Azərbaycan Respublikasının təhsil naziri

Eldar Salayev - Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti

Bəkir Nəbiyev - Azərbaycan Respublikası Elmlər Akademiyasının ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi

Mixail Şvidkoy - Rusiya Federasiyasının mədəniyyət nazirinin müavini

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər Əliyev.**

**Bakı şəhəri, 1 sentyabr 1995-ci il**.

## RƏŞİD BEHBUDOVUN 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1995-ci il dekabr ayının 14-də Azərbaycan musiqi sənətinin görkəmli xadimi, xalq artisti. Dövlət mükafatları laureatı Rəşid Məcid oğlu Behbudovun anadan olmasının 80 ili tamam olur.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq Rəşid Behbudovun anadan olmasının 80 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə q ə r a r a alıram:

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın.

**Təşkilat komitəsinin sədri**

Elçin Əfəndiyev - Azərbaycan Respublikası baş nazirinin müavini

**Təşkilat komitəsinin sədrinin müavini**

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri

**Təşkilat komitəsinin üzvləri**

Rəfael Allahverdiyev - Bakı şəhəri icra hakimiyyətinin başçısı

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezident Aparatının humanitar siyasət şöbəsinin müdiri

Sabir Rüstəmxanlı - Azərbaycan Respublikası Milli məclisin üzvü, şairdir.

Eldar Salayev - Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti

Babək Məmmədov - Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

Tofiq Quliyev - Azərbaycan Bəstəkarlar Ittifaqının sədri

Fərhad Bədəlbəyli - Azərbaycan Dövlət Musiqi Akademiyasının rektoru

Bəkir Nəbiyev- Azərbaycan Respublikası Elmlər Akademiyasının ədəbiyyat, dil və incəsənət bölməsinin akademik - katibi

Zeynəb Xanlarova- xalq artisti

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər Əliyev**

Bakı şəhəri, 19 oktyabr 1995-ci il

## R.H.XƏLİLOVUN «ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASİ PREZİDENTİNİN FƏRMANI

Azərbaycan mədəniyyətinin inkişafında, xüsusən dahi bəstəkar Üzeyir Hacıbəyovun ədəbi və musiqi irsinin qorunması və təbliğində böyük xidmətlərinə görə Ramazan Həmzət oğlu Xəlilov «Şöhrət» ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər ƏLIYEV.**
**Bakı şəhəri, 16 sentyabr 1995-ci il.**

## MÜSLÜM MAQOMAYEVIN ANADAN OLMASININ 110 ILLIK YUBILEYININ KEÇIRILMƏSI HAQQINDA AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ SƏRƏNCAMI

1995-ci ildə görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin anadan olmasının 110 ili tamam olur, Azərbaycan musiqi mədəniyyətinin inkişafında boyük xidmətlərini nəzərə alaraq Müslüm Maqomayevin anadan olmasının 110 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın:

**Təşkilat komitəsinin sədri**

Elçin Əfəndiyev - Azərbaycan Respublikası baş nazirinin müavini

**Təşkilat komitəsinin sədrinin müavinləri**

Tofiq Quliyev - Azərbaycan Bəstəkarlar İttifaqının sədri

Anar Rzayev – Azərbaycan yazıçılar Birliyinin sədri

**Təşkilat komitəsinin üzvləri**

Vasif Adıgözəlov - Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi

Rəfael Allahverdiyev - Bakı şəhəri icra hakimiyyətinin başçısı

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezident Aparatının humanitar siyasət şöbəsinin müdiri

Polad Bülbüloğlu - Azərbaycan Rsspublikasının mədəniyyət naziri

Fərhad Bədalbəyli - Azərbaycan Dövlət Musiqi Akademiyasının rektoru

Babək Məmmədov - Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

Lidiya Rəsulova - Azərbaycan Respublikasının təhsil naziri

Sabir Rüstəmxanlı - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Eldar Salayev - Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti

2. Bu sərəncamdan irəli gələn məsələlərin həlli Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər Əliyev.**

## A.Ə.PƏNAHOVANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Milli Teatr sənətinin inkişafında xidmətlərinə görə Amaliya Əliş qızı Pənahova "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasi Prezidenti**
**Heydər Əliyev**

Bakı şəhəri, 8 iyul 1995 –ci il

## N.Ə.BABAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə Babayev Nəbi Ələkbər oğlu (Nəbi Xəzri) "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasi Prezidenti**
**Heydər Əliyev**

Bakı şəhəri, 17 dekabr 1995 –ci il

## AKADEMİK MUSTAFA AĞABƏY OĞLU TOPÇUBAŞOVUN ANADAN OLMASININ 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLIKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1995-ci ildə Azərbaycanda tibb təhsili va səhiyyənin Təşkilatçısı, respublikada cərrahlıq elmi məktəbinin banilərindən biri akademik Mustafa Topçubaşovun anadan olmasının 100 ili tamam olur.

Azərbaycanda tibb elminin inkişafında xüsusi xidmət-lərini nəzərə alaraq akademik Mustafa Topçubaşovun anadan olmasının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə qarara alıram:

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın:

TƏŞKİLAT KOMİTƏSİNİN SƏDRİ

Elçin Əfəndiyev — Azərbaycan Respublikası baş nazirinin müavini

TƏŞKİLAT KOMİTƏSİ SƏDRİNİN MÜAVİNLƏRİ

Eldar Salayev — Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti

Əli İnsanov — Azərbaycan Respublikasının səhiyyə na-ziri

TƏŞKİLAT KOMİTƏSİNİN ÜZVLƏRİ

Fatma Abdullazadə — Azərbaycan Respublikası Prezidenti Aparatının humanitar siyasət şöbəsinin müdiri

Lidiya Rəsulova — Azərbaycan Respublikasının təhsil naziri

Polad Bülbüloğlu — Azərbaycan Respublikasının mədəniyyət naziri

Sabir Rüstəmxanlı —Azərbaycan Respublikasının mətbuat və informasiya nazirn

Babək Məmmədov — Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

Nəriman Quliyev— Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti

Asəf Nadirov — Azərbaycan Elmlər Akademiyasının akademik-katibi

Mirməmməd Cavadzadə — Ə. Əliyev adına Azərbaycan Dövlət HƏkimləri Təkmilləşdirmə İnstitutunun rektoru

Böyükkişi Ağayev — Qastro-enterolokiya Elmi-Tədqiqat İnstitutunun direktoru

Əhliman Əmiraslanov — Azərbaycan Tibb Universitetinin rektoru

2. Bu sərəncamdan irəli gələn məsələlərin həlli Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 31 iyul 1995-ci il.

# 1996

## MEHDI MƏMMƏDOVUN 80 ILLIK YUBILEYI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın görkəmli səhnə ustası və pedaqoqu xalq artisti Mehdi Əsodulla oğlu Məmmədovun 80 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Təhsil Nazirliyinə tapşırılsın ki, Mehdi Əsədulla oğlu Məmmədovun 80 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri. 14 iyun 1998-ci il
N 826

## AZƏRBAYCANDA GƏNC İSTEDADLARA DÖVLƏT QAYĞISI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Elmi və mədəni tərəqinin müstəqil Azərbaycanın gələcəyi üçun müstəsna əhəmiyyətini nəzərə alaraq istedadlı gənclərə Azərbaycan respublikası prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialını inkişaf etdirmək üçün dövlət qayğısını təmin etmək məqsədilə qərara alıram.

1. Azərbaycanın gənc istedadlarının "Qızıl kitab"ı təsis edilsin. Gənc istedadların adları "Qızıl kitab"a Azərbaycan Respublikası prezidentinin qərarı ilə yazılsın.

2. Azərbaycan Respublikası prezidenti yanında "Gənc istedadlar fondu" təsis edilsin.

3. "Qızıl kitab"a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edilsin.

4. Azərbaycan Respublikasının Prezidenti Aparatının humanitar siyasət şöbəsi Azərbaycan Elmlər Akademiyası, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və respublikanın yaradıcı təşkilatları ilə birlikdə bir ay müddətində "Gənc istedadlar fondu"nun əsasnaməsini və idarə heyətinin tərkibini, habelə gənc istedadların inkişafı üzrə dövlət proqramının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan respublikası prezidentinə təqdim etsin.

5. Bu fərmandan irəli gələn maliyyə xərclərinin ödənilməsi Azərbaycan Respublikası prezidentinin ehtiyat fondu hesabına təmin edilsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 22 iyun 1996-cı il

## AKADEMİK VƏLİ AXUNDOVUN 80 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanın görkəmli alimi və ictimai-siyasi xadimi, akademik Vəli Yusif oğlu Axundovun 80 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Elmlər Akademiyasına, Səhiyyə Nazirliyinə tapşırılsın ki, Vəli Axundovun 80 illiyi ilə əlaqədar lazımı tədbirlər hazırlayıb həyata keçirilsin.

Azərbaycan Respublikasının prezidenti
Heydər Əliyev.

Bakı şəhəri, 21 aprel 1996-cı il.

## SOFİYA HƏSƏN QIZI HÜSEYNOVANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN FƏRMANI

Azərbaycan teatr sənətinin inkişafındakı xidmətlərinə görə xalq artisti Sofiya Həsən qızı Hüseynova "Şöhrət" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının prezidenti
Heydər Əliyev.

Bakı şəhəri, 6 may 1996-cı il.

## M.Y.RƏHMANZADƏNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN FƏRMANI

Azərbaycan təsviri incəsənətinin inkişafında böyük nxidmətlərinə görə xalq rəssamı Maral Yusif qızı Rəhmanzadə "Şöhrət" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının prezidenti
Heydər Əliyev.

Bakı şəhəri, 22 iyul 1996-cı il.

## M.A.DALİNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN FƏRMANI

Azərbaycan elminin inkişafında böyük xidmətlərinə görə Mark Aleksandroviç Dalin "Şöhrət" ordeni ilə təltif olunsun.

Azərbaycan Respublikasının prezidenti
Heydər Əliyev.

Bakı şəhəri, 20 aprel 1996-cı il.

## XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın xalq şairi Səməd Vurğunun anadan olmasının 90 illiyi münasibətilə qərara alıram:

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tarkibdə təşkilat komitəsi yaradılsın:

**TƏŞKİLAT KOMİTƏSİNİN SƏDRİ**

Elçin Əfəndiyev — Azərbaycan Respublikası baş nazirinin müavini

**TƏŞKİLAT KOMİTƏSİNİN ÜZVLƏRİ**

Fatma Abdullazadə — Azərbaycan Respublikasının Prezident Aparatının humanitar siyasət şöbəsinin müdiri
Rəfael Allahverdiyev — Bakı şəhər icra hakimiyyətinin başçısı
Lidiya Rasulova — Azərbaycan Respublikasının təhsil naziri
Polad Bülbüloğlu — Azərbaycan Respublikasının mədəniyyat naziri
Babək Məmmədov — Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri
Nəriman Həsənzadə — Azörbaycan Respublikasının mətbuat və informasiya nazirinin müavini
Eldar Salayev — Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti
Anar Rzayev — Azərbaycan Yazıçılar Birliyinin sədri
Bəxtiyar Vahabzadə — xalq şairi
Bəkir Nəbiyev — Azərbaycan Respublikası Elmlər Akademiyasının ədəbiyyat, dil və incəsənət bölməsinin akademik katibi
Yusif Səmədoğlu — Azərbaycan Yazıçılar Birliyinin birinci katibi
Nazim İbrahimov — «Azərbaycan» nəşriyyatının baş direktoru.

2. Bu sərəncamdan irəli gələn məsələlərin həlli Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

**Azərbaycan**
**Respublikasının prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 5 fevral 1996-cı il.

# ASPIRANTURA, ALI, ORTA IXTISAS VƏ TEXNIKI PEŞƏ MƏKTƏBLƏRININ TƏLƏBƏLƏRINƏ VƏ ŞAGIRDLƏRINƏ VERILƏN TƏQAÜDLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dövlət büdcəsi hesabına təhsil alan aspirantlara, ali, orta ixtisas və texniki peşə məktəblərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin əməyin ödənilməsinin minimum məbləği əsasında müəyyən edilməsi qaydasının ləğv edilməsi ilə əlaqədar olaraq onların verilməsi qaydasını təkmilləşdirmək məqsədilə və "Azərbaycan Respublikasının 1996-cı il dövlət büdcəsinin təsdiqi haqqında" Azərbaycan Respublikasının qanununa müvafiq olaraq qərara alıram:

1. Dövlət büdcəsi hesabına təhsil alan aspirantlara, ali, orta ixtisas və texniki peşə məktəblərinin tələbələrinə və şagirdlərinə verilən aylıq təqaüdlərin miqdarı aşağıdakı məbləğlərdə müəyyən edilsin:

- aspirantlara 25000 manat məbləğində;
- ali təhsil müəssisələrinin tələbələrinə 16500 manat məbləğində;
- orta ixtisas təhsili müəssisələrinin şagirdlərinə 15500 manat məbləğində;
- texniki peşə məktəblərinin şagirdlərinə təhsil müddətindən asılı olaraq 13500-14500 manat məbləğində.

2. Təqaüdlərin ödənilməsi respublika büdcəsi hesabına həyata keçirilsin.
3. Bununla əlaqədar olaraq "Aspirantların, ali, orta ixtisas və texniki peşə məktəblərinin tələbələrinin və şagirdlərinin sosial müdafisəi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası prezidentinin 1992-ci il 18 dekabr tarixli fərmanı qüvvədən düşmüş hesab edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın icrası ilə əlaqədar olan məsələləri həll etsin.
5. Bu sərəncamı 1996-cı il may ayının 1-dən qüvvəyə minir.
6.

Azərbaycan Respublikasının prezidenti
Heydər Əliyev.

Bakı şəhəri, 21 may 1996-cı il.

**«FÜZULİ ENSİKLOPEDİYASI REDAKSİYASI»NIN YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 300 illik yubileyi münasibətilə «Füzuli ensiklopediyası»nın hazırlanması və nəşr edilməsini təmin etmək məqsədi ilə **qərara alıram;**

1. Azərbaycan Respublikası Elmlər Akademiyasının rəyasət heyəti nəzdində müstəqil hesablı «Füzuli ensiklopediyası redaksiyası» yaradılsın.

2. «Füzuli ensiklopediyasının nəşri ilə əlaqədar yeddi nəfərdən ibarət redaksiya heyəti yaradılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabineti bu sarənçamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 13 sentyabr 1996-cı il.

**AZƏRBAYCAN RESPUBLİKASI**

## ELMLƏR AKADEMİYASININ ƏLYAZMALAR İNSTİTUTUNA MƏHƏMMƏD FÜZULİNİN ADININ VERİLMƏSI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə **qərara alıram:**

Azərbaycan Respublikası Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna Məhəmməd Füzulinin adı verilsin.

**Azərbaycan Respublikasının prezidenti**

**Heydər ƏLİYEV**

Bakı şəhəri, 13 sentyabr 1996-cı il.

## AZƏRBAYCAN DÖVLƏT ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT ARXİVİNƏ SALMAN MÜMTAZIN ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Görkəmli ədəbiyyatşünas Salman Mümtazın Azərbaycan ədəbiyyatı, qarşısında xidmətlərini nəzərə alaraq **qərara alıram:**

Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə Salman Mümtazın adı verilsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 13 sentyabr 1996-cı il.

## MIRZƏ İBRAHİMOVUN XATİRƏSİNİN

## ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın xalq yazıçısı, görkömli ictimai-siyasi xadim Mirzə İbrahimovun xatirasini əbədiləşdirmək məqsədilə qarara alıram:

1. Azarbaycan Respublikası Mətbuat va İnformasiya Nazirliyi Elmlar Akademiyası ilə birlikdə M. İbrahimovun çap olunmamış əsərlərinin ikicildliyinin, eləcə də M. İbrahimov haqqında biblioqrafik göstəricinin hazırlanmasını va nəşrini təmin etsin.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi Asiya və Afrika ölkələrindən respublikamızda təhsil alan əlaçı tələbələrə verilmək üçün M.İbrahimov adına təqaüd tasis etsin.

3. Bakı şəhər içra hakimiyyəti:

M.İbrahimovun qəbrinin üstünün götürülməsini, Bakı şahərindəki küçələrdən birinə onun adının verilmasini, yaşadığı binaya (Xaqani küçəsi, 19/13) xatirə lövhəsinin vurulmasını həyata keçirsin.

**Azərbacan**
**Respublikasının**
**prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 5 fevral 1996-cı il.

## ÖZBƏKİSTAN RESPUBLİKASININ DAŞKƏND ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLI SƏFİRİNİN TƏYİN EDİLMƏSI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Aydın Əlibəy oğlu Əzimbəyov Özbəkistan Respublikasının Daşkənd şəhərində Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri təyin edilsin,

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 20 iyun 1996-çı il

## AYDIN ƏLİBƏY OĞLU ƏZİMBƏYOVA AZƏRBAYÇAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DƏRƏCƏSI VERİLMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

«Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin başçıları üçün dərəçələrin və rütbələrin müəyyən edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununu rəhbər tutaraq qərara alıram;

Aydın Əlibəy oğlu Əzimbəyova Azərbaycan Respublikasını fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 20 iyun 1996-cı il

## VƏLİ YUSİF OĞLU AXUNDOVUN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Respublikanın görkəmli alimi və dövlət xadimi akademik Vəli Yusif oğlu Axundovun xatirəsinin əbədiləşdirilməsi məqsədi i ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Milli Tibbi Profilaktika İnstitutuna Vəli Axundovun adı verilsin.

2. Azərbaycan Tibb Universitetinin tibbi profilaktika fakültəsinin tələbələri üçün Vəli Axundov adına təqaüd təsis edilsin,

3. Bakı şəhər içra hakimiyyəti Bakı şəhərində Vəli Axundovun yaşadığı binaya xatirə lövhəsi vursun.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 20 iyun 1996-cı il.

## Q.A.İMAMVERDIYEVIN "ŞÖHRƏT" ORDENI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLIKASİ PREZIDENTININ FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Qabil Allahverdi oğlu İmamverdiyev "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan respublikasının prezidenti**
**Heydər ƏLIYEV**

Azərbaycan 16 avqust 1996

## ŞƏHRİYARIN 90 İLLİK YUBİLEYİNİN KEÇRİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dahi Azərbaycan şairi, Azərbaycan və İran ədəbiyyatlarının inkişafında böyük xidmətləri olan Məmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsinin Azərbaycanın ədəbi-mədəni həyatı üçün müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Şəhriyarın 90 illik yubileyi Azərbaycan Respublikasında təntənəli şəkildə qeyd olunsun. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi məqsədi ilə aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın:

TƏŞKİLAT KOMİTƏSİNİN SƏDRİ

Elçin Əfəndiyev -Azərbaycan Respublikası baş nazirinin müavini

TƏŞKİLAT KOMİTƏSİNİN ÜZVLƏRİ

Həsən Həsənov -Azərbaycan Respublikasının xarici işlər naziri

Rəfael Allahverdiyev -Bakı şəhər icra hakimiyyətiiin başçısı

Fatma Abdullazadə -Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri

Polad Bülbüloğlu -Azərbaycan Respublikasının mədəniyyət naziri

Sirus Təbrizli Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Nizami Xudiyev Azərbaycan Dövlət Tele-Azərbaycan Respublika radio Verilişləri; Şirkətinin sədri

Fəraməz Maqsudov -Azərbaycan Elmlər Akademiyasının prezidenti

Anar Rzayev -Azərbaycan Yazıçılar Birliyinin sədri

Misir Mərdanov -M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin rektoru

İsa Həbibbəyli Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Uni-versitetinin rektoru

Bəkir Nəbiyev -Azərbaycan Elmlər Akademiyasının ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi

Yaşar Qarayev -Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun direktoru

Bəxtiyar Vahabzadə -xalq şairi

Nəbi Xəzri - xalq şairi

Balaş Azəroğlu - xalq şairi

2. Azərbaycan Elmlər Akademiyası və Mətbuat və İnformasiya Nazirliyi Şəhriyar irsindən seçmələrin hazırlanıb çap olunmasını təmin etsinlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

13 MART 1996 CI İL, ÇƏRŞƏNBƏ

# 1997

## AZƏRBAYCAN RESPUBLIKASINDA RUSIYA FEDERASIYASININ MƏDƏNIYYƏT GÜNLƏRININ KEÇIRILMƏSI HAQQINDA AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ SƏRƏNCAMI

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni və elmi əməkdaşlıq haqqında hökümətlərarası sazişə

uyğun olaraq Azerbaycanda Rusiya Federasiyasının mədəniyyət günlərinin keçirilməsi ilə bağlı Rusiya tərəfinin təklifini qəbul edərək qərara alıram:

1. 1997-ci il martın 31-dən aprelin 7-dək Azərbaycan Respublikasında Rusiya Federasiyasının mədəniyyət günləri keçirilsin.

2. Azərbaycan Respublikasında Rusiya Federasiyasının mədəniyyət günlərinin keçirilməsi üzrə tədbirlər planı təsdiq edilsin.

3. Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri, şəhər və rayon icra hakimiyyətlərinin başçıları mədəniyyət günlərinin keçirilməsi ilə bağlı tədbirlərin lazımi qaydada həyata keçirilməsini təmin etsinlər.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu tədbirlərin maliyyələşdirilməsi və həyata keçirilməsi ilə bağlı məsələləri həll etsin.

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər Əliyev.**

**Bakı şəhəri, 13 mart 1997-ci il.**

## Ö.H.ELDAROVUN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİN HEYDƏR ƏLİYEVİN FƏRMANI

Azərbaycan heykəltəraşlıq sənətinin inkişafında böyük xidmətlərinə görə Ömər Həsən oğlu Eldarov "İstiqlal" ordeni ilə təltif edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının prezidenti**

Bakı şəhəri, 20 dekabr 1997-ci il

## QƏDİR RÜSTƏMOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN FƏRMANI

Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Qədir Çərkəz oğlu Rüstəmov "Şöhrət" ordeni ilə təltif olunsun.

Azərbaycan Respublikasının prezidenti
Heydər Əliyev.

Bakı şəhəri, 14 fevral 1997-cı il.

## 2 FEVRAL — AZƏRBAYCAN GƏNCLƏRI GÜNÜ ELAN EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
S Ə R Ə N C A M I

Azərbaycanda dövlət quruculuğu sahəsində gənclərin müstəsna rolunu və 1996-cı il 2 fevral tarixində müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun keçirilməsini nəzərə alaraq qərara alıram:

2 fevral — Azərbaycan Gəncləri günü elan edilsin.

**Azərbaycan**
**Respublikasının prezidenti**
**Heydər ƏLIYEV**

Bakı şəhəri, 1 fevral 1997-ci il,

## MSTİSLAV ROSTROPOVİÇİN ANADAN OLMASININ 70 İLLİK YUBİLEYİNİN QEYD OLUNMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Görkəmli musiqiçi və ictimai xadim Mstislav Leopoldoviç Rostropoviçin anadan olmasının 70 illik yubileyinin onun vətəni Azərbaycanda qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın:

Elçin Əfəndiyev - Azərbaycan Respublikası baş nazirinin müavini;

Müslüm Maqomayev - xalq artisti;

Rəfael Allahverdiyev -Bakı şəhər icra hakimiyyətinin başçısı;

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidentinin icra aparatı humanitar siyasət şöbəsinin müdiri;

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri;

Tofiq Quliyev - Azərbaycan Bəstəkarlar İttifaqının sədri;

Fərhad Bədəlbəyli - Azərbaycan Musiqi Xadimləri İttifaqının sədri.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Bakı şəhər icra hakimiyyəti ilə birlikdə Leopold və Mstislav Rostropoviçlərin Bakı şəhərində yaşamış olduqları binaya bu faktı əks etdirən xüsusi lövhə vurulmasını təmin etsin.

3. Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının tələbələri üçün Leopold və Mstislav Rostropvviçlərin adını daşıyan xüsusi təqaüd təsis edilsin.

4. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Bakı şəhərindəki musiqi məktəblərindən birinə Leopold və Mstislav Rostropoviçlərin adının verilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan respublikasının prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 19 mart 1997-ci il.

**LÜTFİ MƏMMƏDBƏYOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Teatr sənətinin inkişafında xidmətlərinə görə xalq artisti Lütfi Şahbaz oğlu Məmmədbəyov "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasi Prezidenti**
**Heydər Əliyev**

Bakı şəhəri, 13 mart 1997 –ci il

**T.Ə.Quliyevin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan müli mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Tofiq Ələkbər oğlu Quliyev "İstiqlal" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri, 7 noyabr 1997-ci il
N640

## Azərbaycan Respublikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısmı artırmaq məqsədi ilə qərara alıram:

1.Qocaman ədəbiyyat və incəsənət xadimləri üçün ayda bir milyon manat məbləğində ömürlük 30 Fərdi təqaüd təyin olunsun. Fərdi təqaüdcülər Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 10 novabr 1997-ci il
N64l

## H.A.Abbaszadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafindakı xidmətlərinə görə Hüseyn Abbas oğlu Abbaszadə "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİVEV**

Bakı şəhəri, 22 novabr 1997-ci il
N 642

## E. Y. SALAYEVIN «ŞÖHRƏT» ORDENI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ FƏRMANI

Azörbaycan elminin inkişafında xidmətlərinə görə Eldar Yunis oğlu Salayev «Şöhrət» ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasının prizidenti**
**Heydər ƏLIYEV**

Bakı şəhəri, 31 Yanvar 1997-ci il

## AZƏRBAYCAN RESPUBLIKASININ ELMLƏR AKADEMIYASI IŞÇILƏRININ AYLIQ ƏMƏK HAQLARININ ARTIRILMASI HAQQINDA

AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ SƏRƏNCAMI

Azərbaycan Respublikası Elmlər Akademiyasının fəaliyyətin dövlət qayğısını artırmaq, onun elmi potensialını qoruyub saxlamaq və işçiləri elmi tədqiqat işlərinin yüksək səviyyədə aparılmasına həvəsləndirmək məqsədi ilö qərara alıram:

1. Azərbaycan Respublikasının Elmlər Akademiyası işçilərinin aylıq vəzifə maaşları 50 faiz artırılsın.
2. Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvlərinə 500 min manat, müxbir üzvlərinə 300 min manat məbləğində aylıq rütbə maaşları təyin edilsin.
3. Bu sərəncam ilə müəyyən olunmuş vəzifə və rütbə maaşları Azərbaycan Respublikasının dövlət büdcəsi

Hesabına 1997-ci il fevral ayının 1-dən tətbiq edilsin:

**Azərbaycan Respublikasının prezidenti**
**Heydər ƏLIYEV**

Bakı şəhəri, 31 yanvar 1997-ci il.

**Azərbaycan yazıçılarına dövlət qayğısının artırılması haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan yazıçılarının yaradıcılıq imkanlarının genişləndirilməsi üçün onlara dövlət qayğısını artırmaq, respublikada ədəbi mühiti canlandırmaq məqsədi ilə və Azərbaycan Yazıçılar Birliyinin onuncu qurultayında irəli sürülmüş fikir və təküfləri nəzərə alaraq qərara alıram:

l.Azərbaycan yazıçılarının "Azərbaycan'", "Qobustan", "Ulduz", "Literaturnıy Azərbaycan" jurnalları və "Ədəbiyyat" qəzetinin nəşri dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilsin.

2.Azərbaycan Respubükasının istedadlı gənc yazıçıları üçün ayda beş yüz min manat məbləğində on Fərdi təqaüd təyin olunsun. Fərdi təqaüdçülər Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırıllsın;

1998-ci iidən başlayaraq hər il üzrə dövlət büdcəsi layihəsində bu Fərmanın 1-ci bəndində adı çəkilən qəzet və jumalların nəşrini təmin etmək üçün müvafiq məbləğdə dotasiya ayrılmasını nəzərdə tutsun;

Azərbaycan xalqının ədəbi irsinin təbliği və müasir yazıçıların əsərlərinin çapı işini yaxşılaşdırmaq məqsədi ilə nəşriyyat, poüqrafiya və kitab satışı işlərinin yenidən qurulması və

təkmilləşdirilməsi barədə təkliflərini bir ay müddətində hazıriayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəlıəri, 24 noyabr 1997-ci il

**Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan aşıq sənətinin bövük ustadı Aşıq Ələsgorin 175 illik yubileyinin respublikada keçinlməsini təmin etmək məqsədi ilə qərara alıratn:

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsı yaradılsın:

Elçin **Əfəndiyev** - Azərbaycan Respublikası Baş nazirinin müavini, sədr

**Təşkilat Komitəsinin üzvləri**

Rəfael **Allahverdiyev** - Bakı şəlıəri İcra Hakimiyyətinin başçısı

Fatma **Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri

Polad **Bülbüloğlu** - Azərbaycan Respublikasınm mədəniyyət naziri

Sirus T**əbrizli** - Azərbaycan Respublikasınm mətbuat və informasiya naziri

Nizami **Xudiyev** - Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri
Fərəməz **Maqsudov** - Azərbaycan Elmlər Akademiyasmm prezidenti
Tofiq **Quliyev** - Azərbaycan Bəstəkarlar İttifaqmm sədri
Anar **Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri
Misir **Mərdanov** - M. Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin rektoru
Mübariz Yusifov - H. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun rektoru
Bəlyr Nəbiyev - Azərbaycan Elmlər Akademiyasmm Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik-katibi
Kamal Abdullayev- Mədəniyyət Fondunun sədri
Bəxtiyar Vahabzadə - xalq şairi
Zəlimxan Yaqub - şair
İslam Ələsgərov - Aşıq Ələsgərin nəvəsi, tədqiqatçı
Ədalət Nəsibov - Əməkdar incəsənət xadimi
Nannc Səfərova - Aşıq Pəri məclisinin rəhbəri.

2. Azərbaycan Elmlər Akademiyası və Mətbuat və İnformasiya Nazirliyi Aşıq Ələsgərin ədəbi irsinin, habelə onun həyat və yaradıcılığmı əks ctdirən tədqiqat işinin hazırlanıb çap olunmasmı təmin etsinlər.

3. Azorbaycan Respublikasmm Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Arərbavcan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 24 noyabr 1997-ci il
N694

## BALAŞ AZƏROĞLUNUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan poeziyasının inkişafındakı böyük xidmətlərinə görə xalq şairi Balaş **Azəroğlu** /Balaş Allahbaxış oğlu **Abizadə/** "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasının prezidenti Heydər ƏLİYEV.**

Bakı şəhəri, 17 mart 1997-ci il. .

## Həsən Əlirza oğlu Əliyevin 90 illik yubileyi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanm görkəmli alimi və ictimai-siyasi xadimi akademik Həsən Əlirza oğlu Əliyevin 90 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Elmlər Akademiyasına, Kənd Təsərrüfatı Nazirliyinə və Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinə tapşırılsın ki, Həsən Əliyevin 90 illik yubileyi ilə əlaqədar lazimi tədbirlər hazırlayıb həyata keçirsinlər.

**Azərbavcan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 24 noyabr 1997-ci il

## Cəmşid Naxçıvanski adına Bakı ibtidai hərbi məktəbi haqqında
## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Hal-hazırda "Cəmşid Naxçıvanski adına Bakı ibtidai hərbi məktəbi" adlandırılan məktəb 1971-ci ildə təsis edilmişdir. O, Azərbaycanda milli hərbi kadrlar yetişdirmək və keçmiş Sovet İttifaqının hərbi ali məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək məqsədi ilə orta ixtisaslaşdırılmış məktəb kimi yaradılmışdı. Təsis edilən zaman ona "Respublika ixtisaslaşdırılmış internat məktəbi" adı verilmiş və həmin ildən etibarən məktəb general Cəmşid Naxçıvanskinin adını daşımışdır.

1976, 1978, 1981-ci illərdə respublikada məktəbin fəaliyyətinin yaxşılaşdırılması, maddi-texniki bazasının genişləndirilməsi və möhkəmləndirilməsi üzrə tədbirlər haqqında mühüm qərarlar qəbul edilmiş və həyata keçirilmişdir. 1991-ci ildə məktəbin əvvəlki adı onun fəaliyyət mahiyyətini düzgün əks etdirməyən qərarla dəyişdirilərək kobud səhvə yol verilmişdir.

Buraxılmış səhvi aradan qaldırmaq, peşəkar hərbi kadrların hazırlanması işini təkmilləşdirmək və məktəbin adını müasir standartlara uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Cəmşid Naxçıvanski adına Bakı ibtidai hərbi məktəbi **Cəmşid Naxçıvanski adına hərbi litsey** adlandırılsın.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 24 noyabr 1997-ci il
N696

## AĞASADIQ AĞALI OĞLU GƏRƏYBƏYLİNİN ANADAN OLMASININ 100 İLLİYİNİN QEYD OLUNMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan teatr sənətinin görkəmli nümayəndəsi, xalq artisti Ağasadıq Ağəli oğlu Gəraybəylinin anadan olmasının 100 illiyi münasibətilə **QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Ağasadıq Gəraybəylinin 100 illiyinə həsr olunmuş yubiley tədbirlərinin keçirilməsini təmin etsin.
2. Mədəniyyət Nazirliyi Mətbuat və İnformasiya Nazirliyi ilə birlikdə Ağasadıq Gəraybəyliyə həsr olunmuş xatirələr kitabı hazırlayıb nəşr etdirsin.
3. Bakı şəhəri icra hakimiyyəti Ağasadıq Gəraybəylinin Bakı şəhərində yaşadığı binaya xatirə lövhəsinin vurulmasını təmin etsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının**
**prezidenti Heydər ƏLİYEV.**

Bakı şəhəri, 17 mart 1997-ci il.

# 1998

## Qara Qarayevin anadan olmasının 80 illik yubileyinin keçirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1998-ci il fevralın 5-də Azərbaycanın dahi bəstəkarı və görkəmli mədəniyyət xadimi, xalq artisti, Dövlət mükafatı laureatı, akademik Qara Əbülfəz oğlu Qarayevin anadan olmasının 80 ili tamam olur. Qara Qarayevin Azərbaycan və

dünya musiqi mədəniyyətinin inkişafındakı böyük xidmətlərini nəzərə alaraq və anadan olmasının 80 illiyi münasibəti ilə qərara alıram:

1. 1998-ci ilin fevral ayında Qara Qarayevin 80 illik yubileyi Azərbaycan Respublikasında geniş qeyd olunsun.

2. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Elçin **Əfəndiyev** - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsinin üzvləri**

Fatma **Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Rəfael **Allahverdiyev** - Bakı şəhəri İcra Hakimiyyətinin başçısı

Polad **Bülbüloğlu** - Azərbaycan Respublikasının mədəniyyət naziri

Sirus **Təbrizli** - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Fərəməz **Maqsudov** - Azərbaycan Elmlər Akademiyasının prezidenti

Nizami **Xudiyev** - Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

Tofiq **Quliyev** - Azərbaycan Bəstəkarlar İttifaqraının sədri

Vasif **Adıgözəlov** - Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi

Arif **Məlikov** - bəstəkar

Fərəc Q**arayev** - bəstəkar

Firəngiz **Əlizadə** - bəstəkar

Rauf **Abdullayev** - Uzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin baş dirijoru

Fərhad **Bədəlbəyli** - Bakı Musiqi Akademiyasının rektoru

Elmira **Abbasova** - Bakı Musiqi Akademiyasının professoru

Azər **Rzayev** - Bakı Musiqi Akademiyasının professoru

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 11 yanvar 1998-ci il
N726

## MIKAYIL ƏBDÜLQƏDIR OĞLU İSMAYILZADƏNIN (MIKAYIL MÜŞFIQIN) 90 ILLIK YUBILEYI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın görkəmli şairi Mikayıl Əbdülqədir oğlu İsmayılzadənin (Mikayıl Müşfıqin) 90 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Elmlər Akademiyasına tapşırılsın ki, Yazıçılar Birliyi ilə birlikdə Mikayıl Əbdülqədir oğlu İsmayılzadənin (Mikayıl Müşfiqin) 90 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 11 iyun 1998-ci il
N824

**Mehdi Məmmədovun 80 illik yubileyi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

■ Azərbaycanın görkəmli səhnə ustası və pedaqoqu xalq artisti Mehdi Əsədulla oğlu Məmmədovun 80 illik yubileyi ilə əlaqədar qərara alırasın:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Təhsil Nazirliyinə tapşırılsın ki, Mehdi Əsədulla oğlu Məmmədovun 80 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri. 14 iyun 1998-ci il
N 826

**Azərbaycanın Milll Ordusunun yaraddmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi haqqmda**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

80 il bundan öncə - 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilk Milli Ordu hissələrinin yaradılması haqqında qərar qəbul etmişdir. Bununla bağlı Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanı ilə 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü elan edilmişdir.

Azərbaycanm mühüm dövlət atributlarından biri olan Milli Ordunun yaradılmasının xüsusi əhəmiyyətini və respublikamızda ordu quruculuğuna verilən diqqət və önəmi nəzərə alaraq qərara alıram:

1. 1998-ci il iyunun 25-də Respublika sarayında Azərbaycanın Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yuıbiley mərasimi keçirilsin.
2. Azərbaycan Respublikası Nazirlər Kabineti və Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı bu Sərəncamdan irəli gələn məslələri həll etsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhərj, 22 iyun 1998-ci il
N838

## Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin qoyulması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi şair və mütəfəkkir Nizami Gəncəvinin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin qoyulması haqqında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Sankt-Peterburq şəhər meriyası ilə razılaşdırılmış təklifi qəbul olunsun.

2. Azərbaycan Respublikası tərəfindən qoyulacaq abidə Sankt-Peterburq şəhərinə hədiyyə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİVEV**

Barı şəhəri, 30 mart 1998-ci il
N769

## Akademik Heydər Hüseynovun anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1998-ci il aprelin 3-də görkəmli alim və ictimai xadim. Azərbaycan Elmlər Akademiyasının təşkilatçılarından və ilk həqiqi üzvlərindən biri Heydər Nəcəf oğlu Hüseynovun anadan olmasının 90 ili tamam olur.

Müasir dövrdə ilk peşəkar filosofumuz olan Heydər Hüseynov Azərbaycan xalqının ictimai-siyasi fikrinin əsas inkişaf mərhələlərini müəyyən etmiş, mədəni və ədəbi irsimizin fəlsəfi qaynaqlarını araşdırmışdır.

Siyasi repressiyaların yeni mərhələsində Heydər Hüseynov ittihamlara və təzyiqlərə məruz qalaraq tutduğu bütün vəzifələrdən azad edilmiş, hətta Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlüyündən çıxarılmışdır. Onun əleyhinə keçirilən genişmiqyaslı kampaniya zamanı Azərbaycan elminin görkəmli əsərlərindən

olan "XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" kitabına görə Heydər Hüseynova "pantürkist", "panislamist" damğaları vurulmuşdu. Bu təqiblər Heydər Hüseynovun faciəli və müəmmalı ölümünə səbəb olmuşdur.

Akademik Heydər Hüseynovun Azərbaycan elminin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq, anadan olmasının 90 illiyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikası Elmlər Akademiyası və Təhsil Nazirliyinə tapşırılsın ki, Heydər Hüseynovun 90 illiyi ilə əlaqədar lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 31 mart 1998-ci il
N 771

## KİTABXANA İŞİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafızəsi tələblərini, kitabxanaların maliyyələşdirilmə mənbələrini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir.

### I fəsil

### ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1. **Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

**kitabxana** - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut;

**kitabxana işi** - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi kitabxana sisteminin təşkili və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, hüquqi və fiziki şəxslərə kitabxana, informasiya və biblioqrafiya xidməti qaydalarını, kitabxanaçı-biblioqraf kadrlar hazırlanmasını, kitabxanaların inkişafının elmi-metodik təminatını əhatə edən fəaliyyət sahəsi;

**kitabxanaçı** - kitabxana işi sahəsində fəaliyyət göstərən müvafiq ixtisaslı mütəxəssis;

**sənəd** - informasiyanın mətn, səsyazma və təsvir formasında qeydə alınan, müəyyən zaman və məkan daxilində informasiyanın verilməsi və ya qorunması məqsədini daşıyan maddi obyekt;

**kitabxana fəaliyyəti** - oxucuların sərbəst surətdə informasiya almaq hüququnu təmin etmək, onların kitablara, dövri nəşrlərə və kitabxana fondunu təşkil edən digər sənədlərə olan tələbatını ödəmək məqsədi ilə həyata keçirilən fəaliyyət;

**mərkəzləşdirilmiş kitabxana sistemləri** - eyni sistemə aid olan kitabxanaların vahid strukturda könüllü birləşməsi;

**kitabxana fondu** - ictimai istifadə məqsədi ilə kitabxananın vəzifələrinə uyğun şəkildə formalaşmış çap əsərləri və digər məlumat daşıyıcılarının məcmusu.

M a d d ə 2. **Kitabxana işi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi**

Kitabxana işi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, Azərbaycan Respublikasının digər müvafiq qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

M a d d ə 3 . **Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri**

Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

kitabxanalarda mühafizə olunan mədəni sərvətlərdən və informasiya vasitələrindən istifadənin hamı üçün açıq olması;

milli sərvət olan kitabxanalara dövlət qayğısı, onların fondlarının toxunulmazlığı və üstün maliyyələşdirilməsi.

Kitabxana işi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

kitabxana işinin inkişafına dair Dövlət Proqramının hazırlanması və həyata keçirilməsi;

kitabxana fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının qəbul və tətbiq edilməsi;

kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (internetdən və s.) istifadə və milli fondların həmin sistemlərdə əks olunması;

milli və dünya mədəniyyəti sərvətlərinə yiyələnməyə yönəldilən informasiya sisteminin yaradılması;

dövlət kitabxana fondlarının mühafizəsi və inkişafı, dövlət kitabxanalarının milli və xarici ədəbiyyatla ardıcıl təchizatı sisteminin yaradılması;

xarici ölkə kitabxanalarında saxlanılan milli sərvət hesab olunan nadir kitabların və əlyazmaların (imkan olmadıqda surətlərinin) Azərbaycan Respublikasına qaytarılmasının təmin olunması;

dövlət kitabxana binalarının tikilməsi, əsaslı təmiri, dövlət kitabxanalarının müasir avadanlıq və texniki vasitələrlə təchiz edilməsi;

kitabxana işinə dair elmi tədqiqatların və metodik tədbirlərin həyata keçirilməsinə köməklik göstərilməsi;

kitabxana kadrları hazırlayan və ya onların ixtisasının artırılmasını həyata keçirən təhsil müəssisələrinin yaradılması və fəaliyyətinin təşkili;

təbii fəlakət, silahlı münaqişə və müharibə zamanı kitabxana fondlarının mühafizəsinin təmin olunması;

qeyri-dövlət kitabxanalarının inkişafına şərait yaradılması;

kitabxana işinə dair dövlət standartlarının müəyyən olunması;

kitabxana fondlarının statistik uçotunun aparılması.

M a d d ə 4 . **Kitabxana fəaliyyətinin əsas istiqamətləri**

Kitabxana fəaliyyətinin əsas istiqamətləri sənəd-informasiya fondlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsindən, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılmasından ibarətdir.

## II f ə s i l
## KİTABXANA SİSTEMİ

M a d d ə **5 . Kitabxana sisteminin təşkilinin əsasları**

Azərbaycan Respublikasında kitabxana sistemini ərazi, idarə, idarələrarası, sahəvi, sahələrarası və kompleks xidmət prinsiplərinə əsaslanan universal, ixtisaslaşdırılmış dövlət və qeyri-dövlət kitabxanaları təşkil edir.

M a d d ə 6 . **Kitabxana sisteminin tərkibi**

Azərbaycan Respublikasında kitabxana sisteminin tərkibinə dövlət və qeyri-dövlət kitabxanaları daxildir.

Dövlət kitabxanalarına aşağıdakılar daxildir:

Milli Kitabxana;

Naxçıvan Muxtar Respublikasının dövlət kitabxanası;

şəhər, rayon, qəsəbə, kənd kitabxanaları (kütləvi, elmi, xüsusi kitabxanalar, gənclər, uşaqlar, korlar üçün və sair kitabxanalar) və onların filialları, mərkəzləşdirilmiş kitabxana sistemləri;

respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar;

dövlət idarə, müəssisə və təşkilatlarının kitabxanaları;

Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası və onun filialları;

dövlət təhsil müəssisələrinin kitabxanaları.

Qeyri-dövlət kitabxanalarına aşağıdakılar daxildir:

bələdiyyə kitabxanaları;

ictimai birliklərin kitabxanaları;

özəl və digər kitabxanalar;

xarici hüquqi və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş kitabxanalar.

M a d d ə 7. **Milli Kitabxana**

Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitab saxlayıcısıdır.

Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq sahəsində elmi tədqiqat işləri üzrə aparıcı müəssisə və əlaqələndirici, ölkənin bütün kitabxanaları üçün metodik mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya və informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir.

Milli Kitabxana müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan əsasnaməyə uyğun fəaliyyət göstərir.

Milli Kitabxananın fondu və əmlakı milli sərvət hesab olunur və xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur.

Milli Kitabxana statusuna malik olan kitabxanaların işçilərinin əmək haqlarına müvafiq əlavələr müəyyən edilir.

Milli Kitabxananı ləğv etmək, mülkiyyət formasını dəyişmək qadağandır.

Milli Kitabxanaya əvəzsiz və müddətsiz istifadə üçün qanunvericilikdə müəyyən olunmuş qaydada torpaq sahəsi verilə bilər.

**M a d d ə 8 . Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar**

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar elm sahəsinə görə ixtisaslaşdırılan, milli və xarici ədəbiyyat fondlarına malik olan baş kitabxana-biblioqrafiya və informasiya müəssisələridir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar müvafiq sahədə fəaliyyət göstərən digər kitabxanalar üçün informasiya, kitabxanalararası abonement və metodik mərkəz funksiyasını yerinə yetirir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların fəaliyyəti bu Qanunla və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların, Azərbaycan Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının və onun filiallarının, Bakı Dövlət Universitetinin kitabxanasının işçilərinin əmək haqlarına müvafiq əlavələr müəyyən edilir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalarının statusu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**M a d d ə 9 . Kitabxanaların digər informasiya orqanları ilə əlaqələri**

Kitabxanalar sənəd-informasiya ehtiyatlarından səmərəli istifadə məqsədi ilə elmi-texniki və digər informasiya orqanları, arxivlər, başqa idarə və müəssisələrlə qarşılıqlı əlaqə yaradır. Bu əlaqələr birgə fəaliyyət proqramları və müqavilələr əsasında həyata keçirilir.

**M a d d ə 10. Kitabxanaların yaradılması və yenidən təşkili**

Dövlət və qeyri-dövlət kitabxanaları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş qaydada yaradılır və yenidən təşkil olunur.

Dövlət kitabxanalarının müvəqqəti olaraq köçürülməsinə müstəsna hallarda (təbii fəlakət, silahlı münaqişə, müharibə təhlükəsi və s.) müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yol verilir.

M a d d ə 11. **Kitabxanaların özəlləşdirilməsi və icarəyə verilməsi**

Tipindən, tabeliyindən asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən kitabxanaların (kitabxanalarda saxlanılan sərvətlərin, onların yerləşdiyi binaların və sahələrin) özəlləşdirilməsi və icarəyə verilməsi profilinə müvafiq olaraq qanunvericiliyə uyğun həyata keçirilir.

I I I f ə s i l

## KİTABXANA FONDU

**M** a d d ə **12. Kitabxana fondunun tərkibi**

Kitabxana fondunun tərkibinə kitab, jurnal, qəzet, digər çap məhsulları, audiovizual və texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və başqa informasiya daşıyıcıları daxildir.

Kitabxana fondları universal, sahəvi, çoxsahəli, ixtisaslaşdırılmış ola bilər.

M a d d ə 13. **Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu**

Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu kitabxanalararası əlaqələndirilmiş komplektləşdirmə, qarşılıqlı istifadə, depozitar mühafizə və mübadilə prinsipləri əsasında təşkil edilən, məlumat-axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir.

Kitabxanalarda olan nadir və qiymətli nəşrlər, xüsusi kolleksiyalar qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil edilir və xüsusi rejimdə mühafizə olunur. Onların mühafizəsi lazımi qaydada təmin edilmədikdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən digər kitabxanaya verilə bilər.

Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu dövlət mülkiyyətidir.

M a d d ə 14. **Kitabxana fondlarının təchizi**

Kitabxanalar dövlət və qeyri-dövlət nəşriyyatları tərəfindən buraxılan, profilinə uyğun çap məhsullarını və digər informasiya daşıyıcılarını birinci növbədə almaq hüququna malikdir.

Bu hüquq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları, ayrı-ayrı şəxslərlə aparılan müvafiq əməliyyatlar, məcburi nüsxələrin alınması, abunə, bağışlama və vərəsəlik əsasında miras qalmış nəşrlərin verilməsi, habelə beynəlxalq və ölkədaxili kitab mübadiləsi yolu ilə təmin edilir.

Təhsil müəssisələrinin kitabxanalarının dərsliklərlə komplektləşdirilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydalarla tənzimlənir.

Müvafıq icra hakimiyyəti orqanları tabeliyində olan kitabxana fondlarının yeni nəşrlərlə komplektləşdirilməsinə vəsait ayırırlar.

M a d d ə 15. **Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı**

Milli Kitabxana, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar və Bakı Dövlət Universitetinin kitabxanası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada ölkədə nəşr edilən çap məhsullarının məcburi nüsxələrini almaq hüququna malikdir.

Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafıya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından Milli Kitabxanaya 4 pulsuz məcburi nüsxə, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanalarına, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalara, Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına və Bakı Dövlət Universitetinin kitabxanasına profilinə uyğun olaraq 2 pulsuz məcburi nüsxə, Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyaları isə 2 pulsuz məcburi nüsxə göndərməlidirlər.

M a d d ə 16. **Kitabxanaların mübadilə fondları**

Azərbaycan Respublikasının Milli-mədəni sərvətlər reyestrinə daxil olmayan çap məhsulları və digər materiallar müəyyən olunmuş qaydada bir kitabxanadan digərinə əvəzsiz verilə bilər.

Qeyri-profil, dublet, nisbətən az istifadə edilən, habelə mübadilə fondu üçün ayrılan çap əsərləri və kitabxananın digər sənədləri həmin fonda verilir.

Müvafiq icra hakimiyyəti orqanları beynəlxalq və ölkədaxili kitab mübadiləsini həyata keçirən kitabxanaların mübadilə fondları üçün əlavə kitab almmasına vəsait ayırırlar.

M a d d ə 17. **Depozitar kitabxanalar**

Dövlət kitabxanalarında oxucular tərəfindən nadir hallarda istifadə edilən, lakin elmi, tarixi və bədii əhəmiyyətini saxlayan nəşrlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada depozitar fondlara verilir.

M a d d ə 18. **Dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və onlardan istifadə edilməsi**

Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafızəsi və istifadəsi müvafıq icra hakimiyyəti orqanı tərəfındən müəyyən olunmuş qaydalara uyğun həyata keçirilir.

M a d d ə 19. **Dövlət kitabxana fonduna vurulmuş ziyana görə məsuliyyət**

Dövlət kitabxana fonduna vurulmuş ziyana görə hüquqi və fıziki şəxslər, yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla, vurulmuş ziyanın 10 misli həcmində maddi məsuliyyət daşıyırlar.

İtirilmiş və ya yararsız vəziyyətə salınmış çap əsərləri və digər materiallar kitabxana ilə razılıq əsasında başqa müvafıq çap əsərləri və materiallarla əvəz edilə bilər. Bu qayda Azərbaycan Respublikasının Milli-mədəni sərvətlər reyestrinə daxil edilən nadir nüsxələrə şamil edilmir.

Nadir nüsxələr fonduna vurulan zərərə görə məsuliyyət mövcud qanunvericiliklə tənzimlənir.

Dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və istifadə qaydalarının pozulmasına görə kitabxana işçiləri qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## IV f ə s i l

## KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ

### M a d d ə **2 0. Kitabxana xidməti və onun vəzifəsi**

Kitabxanalar çap əsərlərindən və digər informasiya daşıyıcılarından səmərəli istifadə etmək məqsədi ilə kompleks kitabxana, biblioqrafiya və informasiya xidmətləri göstərir.

Bu xidmətlər abonentləri ədəbiyyat və informasiya ilə təmin etmək, informasiya daşıyıcılarının seçilməsində kömək göstərmək məqsədi daşıyır.

Kitabxana xidməti abonement, qiraət zalı, kitabxanalararası və beynəlxalq abonement, biblioqrafiya, elmi-texniki informasiya, fərdi və kütləvi, yazılı və şifahi, stasionar və qeyri-stasionar, qiyabi, kompleks vasitələrlə təşkil edilir.

Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir.

### M a d d ə 2 1. **Kitabxanaların hüquqları**

Kitabxanaların hüquqları aşağıdakılardır:

nizamnamələrində göstərilən məqsəd və vəzifələrin həyata keçirilməsi üsullarını və formalarını müəyyənləşdirmək;

kitabxana fondunu komplektləşdirmə mənbələrini müəyyənləşdirmək;

köhnəlmiş və ya yararsız hala düşmüş kitabları qanunvericilikdə müəyyən olünmuş qaydada kitabxananın fondundan çıxarmaq;

fiziki və hüquqi şəxslər tərəfindən kitabxanaya dəymiş ziyanın ödənilməsini qanunvericilikdə müəyyən olunmuş qaydada tələb etmək;

kitabxana birliklərinin yaradılmasında iştirak etmək;

beynəlxalq kitabxana təşkilatları ilə əlaqə yaratmaq, kitabxana biblioqrafiya və informasiya sahəsində keçirilən tədbirlərdə iştirak etmək.

M a d d ə 2 2. **Kitabxanaların vəzifələri**

Kitabxanalar oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını, habelə məlumat əldə etmək azadlığını təmin etməli, onların kitabxana fondlarından tam istifadə etməsi üçün hər cür şərait yaratmalıdırlar.

Maddə 23. **Kitabxanalardan istifadə sahəsində oxucuların hüquq və vəzifələri**

Azərbaycan Respublikasında hər kəsin kitabxanalardan istifadə etmək hüququ vardır.

Kitabxanalardan istifadə qaydaları və göstərilən xidmətlər kitabxanaların nizamnamələri və müvafiq normativ hüquqi aktlar ilə müəyyənləşdirilir.

Oxucuların kitabxanalardan istifadə hüquqlarını məhdudlaşdırmaq qadağandır.

Oxucular kitabxanalardan istifadə qaydalarına əməl etməli, kitab fonduna qayğı ilə yanaşmalı, çap materiallarının və digər vəsaitlərin itirilməsinə və ya yararsız hala salınmasına yol verməməlidirlər.

V f ə s i l

## KİTABXANA İŞİNİN İDARƏ OLUNMASI

M a d d ə 2 4. **Kitabxana işinə dövlət idarəetməsi**

Azərbaycan Respublikasında kitabxana işinə dövlət idarəetməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

M a d d ə 2 5. **Kitabxana işində ictimaiyyətin iştirakı**

Dövlət və qeyri-dövlət orqanları, kitabxana işi sahəsində ictimai birliklər, hüquqi və fiziki şəxslər kitabxana fondlarının zənginləşdirilməsi, oxuculara xidmət işinin təkmilləşdirilməsi, kitabxanaçılıq proqramlarının və tədbirlərinin hazırlanması və həyata keçirilməsində iştirak edirlər.

M a d d ə 2 6. **Kitabxana işinin elmi-metodik və kadr təminatı**

Mülkiyyət fomıasından asılı olmayaraq kitabxanaların elmi-metodik təminatı Milli Kitabxana və elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar tərəfindən həyata keçirilir.

Elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar kitabxanaşünaslığa, biblioqrafiyaya və informasiyaya dair metodik materiallar nəşr edir, kitabxanaçılıq nəzəriyyəsi və təcrübəsində mütərəqqi iş üsullarını ümumiləşdirib tətbiq edir, kadrların ixtisasının artırılmasını təmin edir.

Kitabxanaların kadr təminatında müvafiq peşə-ixtisas təhsili olan şəxslərə üstünlük verilir. Müstəsna hallarda müvafıq peşə-ixtisas təhsili olmayan, ancaq yüksək təcrübəyə və kitabxanada çoxillik iş stajına malik olan mütəxəssislər də kitabxanada işləyə bilərlər.

M a d d ə 2 7. **Kitabxanaların maliyyələşdirilməsi**

Dövlət kitabxanaları və büdcədən maliyyələşdirilən təşkilatların tabeliyində olan kitabxanalar dövlət büdcəsi vəsaitləri, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları və qanunvericilikdə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Dövlət kitabxanaları maliyyələşdirilərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq artırılmalıdır. Ayrılmış vəsait kitabxanaların sərəncamında qalır və onların nizamnamə fəaliyyətini həyata keçirmək üçün istifadə edilir.

İdarə, müəssisə və təşkilatların, habelə ictimai birliklərin kitabxanaları təsisçilərinin vəsaiti hesabına maliyyələşdirilir.

M a d d ə 2 8. **Dövlət kitabxanalarının büdcədənkənar vəsaitləri**

Dövlət kitabxanalarının işinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və əməyin stimullaşdırılması məqsədi ilə nizamnamələrində göstərilən qaydada təsərrüfat fəaliyyəti və pullu xidmət əsasında büdcədənkənar fondlar formalaşdırılır.

Dövlət kitabxanalarında pullu xidmət yalnız əlavə əmək sərfi tələb edən və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən xüsusi xidmət növlərinə aid edilir.

M a d d ə 2 9. **Kitabxanaların inkişaf fondu**

Kitabxanaların maddi-texniki bazasını möhkəm-ləndirmək məqsədi ilə dövlət və qeyri-dövlət inkişaf fondları təsis edilə bilər. Bu fondlar təsisçilərin payları, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları, qanunvericilikdə müəyyən olunmuş qaydada keçirilən lotereya və digər məqsədli kommersiya tədbirlərindən daxil olan vəsaitlər hesabına yaradılır.

M a d d ə 3 0. **Kitabxanaların maddi-texniki təchizatı**

Kitabxanalar kitab fondunun saxlanması və oxuculara xidmət etmək üçün xüsusi layihə ilə tikilmiş binalarla və kitabxana işini avtomatlaşdırmaq üçün zəruri vəsaitlərlə təmin edilməlidirlər.

M a d d ə 3 1. **Kitabxanaların əmlakı və təsərrüfat fəaliyyəti**

Kitabxana onun mülkiyyətində olan və ya idarəçiliyinə verilmiş əmlakdan Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq istifadə edir.

Xidmət fəaliyyətini genişləndirmək məqsədi ilə dövlət kitabxanalarına torpaq sahələri və əlavə binalar ayrıla bilər.

Kitabxanalar qanunvericilikdə müəyyən olunmuş qaydada nizamnamələrinə uyğun olaraq təsərrüfat fəaliyyəti ilə məşğul ola bilərlər. Bu fəaliyyətdən əldə edilən vəsait bütövlükdə kitabxananın sərəncamında qalır.

M a d d ə 3 2. **Kitabxana işçilərinin sosial müdafiəsi**

Dövlət kitabxana işçilərinin sosial müdafiəsinə təminat verir.

Kitabxana işçilərinin əmək haqları elm və təhsil sahələri işçilərinin əmək haqlarından aşağı olmamalıdır.

Kitabxanaların statusu, spesifik xüsusiyyətləri nəzərə alınmaqla işçilərə əmək haqqında əlavə digər ödənişlər tətbiq edilə bilər.

Müvafiq icra hakimiyyəti orqanları, müəssisə, idarə və təşkilatlar öz tabeliyində olan kitabxanaların işçilərinə əlavə kompensasiyalar müəyyən edə bilərlər.

Kitabxana işçiləri öz peşə və sosial hüquqlarını təmin etmək məqsədi ilə qanunvericilikdə müəyyən olunmuş qaydada ictimai birliklər yarada bilərlər.

## VI fəsil

## YEKUN MÜDDƏALARI

### Maddə 33. **Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq**

Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr əsasında həyata keçirilir.

Kitabxanalar və kitabxana işi sahəsində ictimai birliklər beynəlxalq kitabxana təşkilatları, xarici ölkələrin kitabxanaları və kitabxana işi sahəsində ictimai birlikləri ilə əməkdaşlıq edə bilərlər.

### Maddə 34. **Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasında təqsirli olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**

Bakı şəhəri, 29 dekabr 1998-ci il

## CƏMŞID NAXÇIVANSKI ADINA HƏRBI LITSEYIN NAXÇIVAN FILIALININ AÇILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan ordusunun peşəkar hərbi kadrlara olan tələbatını daha mükəmməl ödəmək, Naxçıvan Muxtar Respublikasında gənclərin hərbi təhsil alması üçün əlverişli şərait yaratmaq məqsədi ilə qərara alıram:

1. Cəmşid Naxçıvanski adına hərbi litseyin Naxçıvan filialı açılsın.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 13 mart 1998-ci il
N762

## AZƏRBAYCAN RESPUBLIKASININ ƏDƏBIYYAT VƏ INCƏSƏNƏT XADIMLƏRINƏ FƏRDI TƏQAÜDLƏR VERILMƏSI HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan aşağıdakı incəsənət xadimlərinə fərdi təqaüdlər verilsin:

**Abdullayeva** Həyat Həmdulla qızı

**Xəlilov** Ramazan Həmzət oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının**
**Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 23 avqust 1998-ci il
№884

**CƏLAL PAŞAYEVIN 90 ILIIK YUBILEYI HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycanm görkəmli alimi və yazıçısı Mir Cəlal Əli oğlu Paşayevin 90 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasmm Təhsil Nazirliyinə və Elmlər Akademiyasına tapşırılsın ki, yaradıcılıq ittifaqları ilə birlikdə Mir Cəlal Əli oğlu Paşayevin 90 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 16 aprel 1998-ci il
N782

**Ədəbiyyat və Incəsənət Xadimlərinə Fərdi Təqaüdlər Verilməsi**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 10 noyabr tarixli 641 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan aşağıdakı ədəbiyyat və incəsənət xadimlərinə fərdi təqaüdlər veriisin:

Abbaszadə Hüseyn Abbas oğlu
Abdullayev Tahir Abdulla oğlu
Babayev Mirzə Əbdülcabbar oğlu
Babayev Nəbi Ələkbər oğlu (Nəbi Xəzri)
Cəfərzadə Əzizə Məmməd qızı
Dadaşov Muxtar Baba oğlu
Əhmədov Sabir Məhəmməd oğlu
Əhmədova Firəngiz Yusif qızı
Ələsgərov Süleyman Əyyub oğlu
Əliyev Habil Mustafa oğlu
Həmzəyeva Zəroş Mirzəbağır qızı
Həsənova Gülxar İbrahim qızı
Mirqasımov Mirələsgər Mirəsədulla oğlu
Mirzəzadə Böyükağa Məşədi oğlu
Rəhmanzadə Maral Yusif qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEVDƏR ƏLİVEV**

Bakı şəhəri. 22 fevral 1998-ci il
N752

**Azərbaycan Respublikasının gənc yazıçılarına fərdi təqaüdlər verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 643 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının aşağıdakı istedadlı gənc yazıçılarına altı ay müddəti ərzində fərdi təqaüdlər verilsin:

Əhmədov Akif Qədim oğlu
Əliyev Fəxri Ağa oğlu
Cəfərov Mübariz İmran oğlu
Kərimov Əhməd Musa oğlu
Quliyev Musa İsa oğlu
Mahmudov Murad Piri oğlu
Məmmədov Akif Səməd oğlu
Məmmədova Güllü Yoloğlu qızı
Novruzov Salam Əlağa oğlu
Sadıqov Orxan Fikrət oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Rcspublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 22 fevral 1998-ci il
N753

**İslam Səfərlinin xatirəsinin əbədiləşdirilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**
**SƏRƏNCAMI**

Azərbaycanın görkəmli şairi və dramaturqu İslam Əhməd oğlu Səfərlinin xatirəsinin əbədiləşdirilməsi məqsedi ilə qərara alıram:

Bakı şəhər İcra Hakimiyyəti İslam Səfərlinin yaşadığı binaya (Həsən Seyidbəyli küçəsi, 30) xatirə lövhəsinin vurulmasını təmin etsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 16 aprel 1998-ci il
N783

# 1999

## Avropa Şurasının 50 illik yubileyinin keçirilməsi haqqında
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Rcspublikası Prezidentinin "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropa Şurasında mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında'" 1999-cu il 14 may tarixli Sərəncamından irəli gələn vəzifələri nəzərə alaraq, həmçinin Avropa Şurasının 50 illik yubileyinin Azərbaycan Respublikasında geniş surətdə qeyd edilməsi məqsədi ilə qərara alıram:

1. Avropa Şurasının 50 illik yubileyi və "Avropa - Ümumi İrs'" kampaniyası ilə bağlı tədbirlərin hazırlanıb həyata keçirilməsi məqsədi ilə aşağıdakı tərkibdə MiIli Komitə yaradılsın:

**Milli Komitənin sədri**

Elçin Əfəndiyev — Azərbaycan Respublikası Baş nazirinin müavini

**Milli Komitənin üzvləri**

Tofiq Zülfüqarov — Azərbaycan Respublikasının xarici işlər naziri
Ramil Usubov — Azərbaycan Respublikasının daxili işlər naziri
Südabə Həsənova — Azərbaycan Respublikasının ədliyyə naziri
Misir Mərdanov — Azərbaycan Respublikasının təhsil naziri

Əbülfəs Qarayev — Azərbaycan Respublikasınını gənclər və idman naziri
Polad Bülbüloğlu — Azərbaycan Respublikasının mədəniyyət naziri
Sirus Təbrizli — Azərbaycan Respublikasının mətbuat və informasiya naziri
Rəfael Allahverdiyev — Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
Nizami Xudiyev — Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri
Vəfa Quluzadə — Azərbaycan Respublikasının Xarici siyasət məsələləri üzrə Dövlət müşaviri
Fatma Abdullazadə — Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri
Fuad Ələsgərov — Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri
Əli Həsənov — Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri
Fərəməz Maqsudov — Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti
Anar Rzayev — Azərbaycan Yazıçılar Birliyinin sədri
Səttar Mehbalıyev — Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədri

2. Milli Komitəyə tapşırılsın ki, Avropa Şurasının 50 illik yubileyi münasibəti ilə və "Avropa - Ümumi İrs" kampaniyası çərçivəsində tədbirlər proqramını bir ay müddətində hazırlayıb təsdiq etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 5 iyul 1999-cu il
N 182

## "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

həmin Qanunun 18-ci maddəsində nəzərdə tutulmuş dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydalarını təsdiq etsin;

bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlərə dair digər müvafiq normativ hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin üçüncü hissəsində, 8-ci maddəsinin beşinci hissəsində, 10-cu maddəsinin ikinci hissəsində, 13-cü maddəsinin ikinci hissəsində, 14-cü maddəsinin ikinci hissəsində, 15-ci maddəsinin birinci hissəsində (ikinci halda), 17-ci maddəsində, 18-ci maddəsində, 28-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 15-ci maddəsinin birinci (birinci halda) və ikinci hissələrində göstərilən "müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları" dedikdə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin kitabxanaları nəzərdə tutulur;

həmin Qanunun 24-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Mədəniyyət Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir.

**Azərbaycan Respublikasının Prezidenti**

**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 12 mart 1999-cu il

**Cəfər Cabbarlının 100 illik yubileyinin keçirilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1999-cu ildə milli dramaturgiyamızın banilərindən biri olan böyük yazıçı və dramaturq Cəfər Cabbarlının anadan olmasının 100 illiyi tamam olur. Cəfər Cabbarlı dərin zəkası və milli ruhu ilə səciyyələnən dahi sənətkar kimi özündən sonra zəngin bədii irs qoyub getmişdir. Azərbaycanda kino sənətinin inkişafında da Cəfər Cabbarlının xüsusi xidmətləri olmuşdur.

Azərbaycan ədəbiyyatının və mədəniyyətinin görkəmli nümayəndəsi Cəfər Cabbarlının 100 illik yubileyinin respublikada layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Cəfər Cabbarlının 100 illik yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Elçin Əfəndiyev - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsinin üzvləri:**

Vasif **Talıbov** - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri

Rəfael **Allahverdiyev** - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Yusif **Hümbətov** - Azərbaycan Respublikası Prezidenti icra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Fatma A**bdullazadə** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Fərəməz **Maqsudov** - Azərbaycan Elmlər Akademiyasının prezidenti

Polad **Bülbüloğlu** - Azərbaycan Respublikasının mədəniyyət naziri

Misir **Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri

Sirus **Təbrizli** - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Nizami **Xudiyev** - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

Şamil **Şahməmmədov** - Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin Baş direktoru

Oqtay **Mirqasımov** - "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru

Anar **Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri

Tofiq **Quliyev** - Azərbaycan Bəstəkarlar İttifaqının sədri

Bəxtiyar **Vahabzadə** - xalq şairi

Nəbi **Xəzri** - xalq şairi

Bəkir **Nəbiyev** - Azərbaycan Elmlər Akademiyasının Ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi

Rasim **Daşdəmirov** - Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı

Vəfadar **Muradov** - Xızı Rayon İcra Hakimiyyətinin başçısı

Şəfiqə **Məmmədova** - xalq artisti

Amalya **Pənahova** - xalq artisti

Gülarə **Cabbarlı** - Cəfər Cabbarlının ev-muzeyinin direktoru

Yaşar **Qarayev** - Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun direktoru

Ağamusa **Axundov** - Azərbaycan Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun direktoru

Həsənağa **Turabov** - Azərbaycan Teatr Xadimləri İttifaqının prezidenti

Kamal **Abdullayev** - Mədəniyyət Fondunun sədri

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 23 fevral 1999-cu il
N 99

**"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

'Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının yubiley tədbirlər planının müzakirəsinin nəticələrini nəzərə alaraq qərara alıram:

1. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin.

**Azərbaycan Respublikasının Prczidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şshəri, 21 fevral 1999-cu il
N 98

**Qəzənfər Ələkbər oğlu Xalıqovun 100 illik yubileyi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi xalq rəssamı Qəzənfər Ələkbər oğlu Xalıqovun 100 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki, Qəzənfər Xalıqovun 100 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 3 yanvar 1999-cu il
N53

## İbrahim Tağı oğlu Həmzəyevin 90 illik yubileyi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan teatr sənətinin görkəmli nümayəndəsi xalq artisti İbrahim Tağı oğlu Həmzəyevin 90 illik yubileyi ilə əlaqədar qərara ahram:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki, İbrahim Həmzəyevin 90 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 3 yanvar 1999-cu il
N54

## Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövİət Komissiyasının tədbirlər planı haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının yubiley tədbirlər planının müzakirəsinin nəticələrini nəzərə alaraq qərara alıram:

1. Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə turulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİVEV

Bakı şəhəri, 12 fevral 1999-cu il
N 72

## L.A.BƏDİRBƏYLİ "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan teatr və kino sənətinin inkişafında böyük xidmətlərinə görə Leyla Aғalar qızı Bədirbəyli "İstiqlal" ordeni ilə təltif edilsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının prezidenti

Bakı şəhəri, 7 yanvar 1999-cu il

# 2000

## A.H.Rzayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Azər Hüseyn oğlu Rzayev "Şöhrət" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 14 iyul 2000-ci il
№ 365

"Kitabi-Dədə Qorqud" eposunun Almaniyanın Drezden şəhərinin Kral kitabxanasında saxlanılan əiyazmasının Azərbaycan Respubliltasının Prezidentinə bağışlanmış faksimilesinin Azərbaycan Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna verilməsi haqqında

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Xalqımızm möhtəşəm ədəbi abidosi olan "Kitabi-Dədə Qorqud" eposunun 1815-ci ildə Almaniyanm Drezden Kral kitabxanasmda aşkara çıxarılmış ən mükəmməl nüsxəsi bu günədək orada saxlanılmaqdadır.

Azərbaycan Respublikası Prczidentinin 1999-cu il 21 fevral tarixli, 98 saylı Sərəncamı ilə təsdiq edilmiş "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planının 25-ci bəndinə uyğun olaraq, 1999-cu il oktyabrın 8-də Drezden şəhərində "Kitabi-Dədə Qorqud"a həsr edilmiş yubiley mərasimi keçirilərkən Almaniyanın Saksoniya əyalətinin Elm və İncəsənət üzrə Dövlət Nazirliyi və Kral kitabxanası tərəfindən həmin əlyazmanın orijinala çox yaxın şəkildə hazırlanmış faksimilesi Azərbaycan Respublikasının Prezidentinə hədiyyə edilmək üçün Azərbaycan

nümayəndə heyətinə təqdim olunmuşdur. Həmin faksimile Azərbaycan tətbiqi sənət ustaları tərəfindən məharətlə, Dədə Qorqud dövrünü əks etdirən milli ornamentlərdən istifadə olunmaqla cildlənmişdir.

Belə bir aksiyanı Almaniya Federativ Respublikası ilə Azərbaycan Respublikası arasında dotsluq və əməkdaşlığın genişləndirilməsi istiqamətində atılmış addım kimi qiymətləndirərək "Kitabi-Dədə Qorqud" irsinin gələcək nəsillərə daha dolğun çatdırılmasını və onun tədqiqatçılarının mötəbər bir nüsxədən istifadəsini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Kitabi-Dədə Qorqud" eposunun Almaniyanın Drezden şəhərinin Kral kitabxanasında saxlanılan əlyazmasının Azərbaycan Respublikasının Prezidentinə bağışlanmış faksimilesi Azərbaycan Elmlər Akademiyasının Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutuna verilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 3 aprel 2000-ci il
N2 377

## Sabit Rəhmanın 90 illik yubileyinin keçirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci ildə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri - tanınmış yazıçı və dramaturq Sabit Rəhmanın anadan olmasının 90 illiyi tamam olur.

Azərbaycan nəsrinin və dramaturgiyasının, xüsusilə komediya janrının inkişafında Sabit Rəhmanın böyük xidmətləri olmuşdur. Azərbaycan ədəbiyyatında əsası Mirzə Fətəli Axundov tərəfindən qoyulmuş komediya janrı Sabit Rəhmanın yaradıcılığında öz davamını tapmış və inkişaf etmişdir. Mövzularının aktuallığı,

orijinallığı və incə xalq yumoru ilə səciyyələnən bu komediyalar Azərbaycanda musiqili komediya janrının və kinematoqrafiyanın inkişafinda da mühüm rol oynamışdır.

Azərbaycan ədəbiyyatı və mədəniyyəfinin inkişafinda böyük xidmətləri olan Sabit Rəhmanın 90 illik yubileyinin respublikada layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Sabit Rəhmanın 90 illik yubileyi tədbirlərinin hazırlanması və həyata keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Elçin **Əfəndiyev** - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsinin üzvləri:**

Rəfael **Allahverdiyev** - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
Fatma **Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri
Fərəməz **Maqsudov** - Azərbaycan Elmlər Akademiyasmm prezidenti
Polad **Bülbüloğlu** - Azərbaycan Respublikasının mədəniyyət naziri
Misir **Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri
Nizami **Xudiyev** - Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri
Oqtay **Mirqasımov** - "Azərkinovideo" İstehsalat Birliyinin sədri
Anar **Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri
Bəxtiyar **Vahabzadə** - xalq şairi
Yaşar **Qarayev** - Azərbaycan Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun direktoru

Hacıbaba **Bağırov** - Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru

Nəsibə **Zeynalova** - xalq artisti

Emin **Sabitoğlu** - bəstəkar

2. Azərbaycan Respublikasmm Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasınm Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 3 aprel 2000-ci il
N378

**Möhsün Sadıq oğlu Sənaninin 100 illik yubileyi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın görkəmli teatr və kino xadimi xalq artisti Möhsün Sadıq oğlu Sənaninin 100 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Təhsil Nazirliyinə və "Azərkinovideo" İstehsalat Birliyinə tapşırılsın ki, Möhsün Sadıq oğlu Sənaninin 100 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 20 may 2000-ci
N 422

**"Turizm haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Turizm haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi məqsədi ilə qərara alıram:

Müəyyən edilsin ki:

"Turizm haqqında" Azərbaycan Respublıkası Qanununun 5-ci maddəsinin 2-ci bəndində "razılaşdırmaqla" sözündən sonra 12-ci maddəsinin üçüncü, dördüncü və altıncı hissələrində və 16-cı maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Xarici Turizm Şurası həyata keçirir.

Azərbaycan Respublikasının
Prezidenti HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 15 iyul 2000-ci il
№ 376

**Xalq artisti bəstəkar Tofiq Quliyevin dəfninin təşkili üzrə Dövlət Komissiyası haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Xalq artisti bəstəkar Tofiq Ələkbər oğlu Quliyevin dəfni ilə əlaqədar qərara alıram:

1. Tofiq Quliyevin dəfnini təşkil etmək üçün aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

Artur Rasizadə (sədr)
Ramiz Mehdiyev
Elçin Əfəndiyev
Rəfael Allahverdiyev
Fatma Abdullazadə
Polad Bülbüloğlu

Vasif Adıgözəlov

2. Tofiq Quliyev Fəxri Xiyabanda dəfn edilsin.
3. Tofiq Quliyevin dəfni ilə bağlı bütün xərclər Azərbaycan Respublikası hökumətinin hesabına ödənilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 5 oktyabr 2000-ci il

**X. H. Mirzəzadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında**
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan musiqi sənətinin inkişafindakı xidmətlərinə görə Xəyyam Hadi oğlu Mirzəzadə "Şöhrət" ordeni ilə təltif edilsin.

Azərbaycan Rcspublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 4 oktyabr 2000-ci il

**Rəsul Rzanın 90 illik yubileyinin keçirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci ildə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, tanınmış ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimi, xalq şairi Rəsul İbrahim oğlu Rzayevin (Rəsul Rzanın) anadan olmasının 90 illiyi tamam olur.
Azərbaycan poeziyasını yeni forma və üslub keyfiyyətləri, məzmun rəngarəngliyi, orijinal obrazlarla zənginləşdirmiş novator

şair Rəsul Rzanın yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Rəsul Rza analitik bədii idrak, mövzuya dərindən nüfuz etmək bacarığı, həyat hadisələrinə fəlsəfi münasibətlə seçilən poeziyası ilə yanaşı ədəbi tənqid və publisistika, dünya poeziyasının ən gözəl nümunələrinin tərcüməsi sahələrində də zəngin irs qoymuşdur.

Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamış Rəsul Rzanın 90 illik yubileyinin respublikada layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Rəsul Rzanın 90 illik yubileyi tədbirlərinin hazırlanması və həyata keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Elçin Əfəndiyev - Azərbaycan Respublikası Baş nazirinin müavini

Təşkilat Komitəsinin üzvləri:

Rəfael Allahverdiyev - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Fərəməz Maqsudov - Azərbaycan Elmlər Akademiyasınm prezidenti

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri

Misir Mərdanov - Azərbaycan Respublikasının təhsil naziri

Nizami Xudiyev - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

Şamil Şahməmmədov - Azərbaycan Dövlət Teleqraf Agentliyinin (Azər-TAC) baş direktoru

Oqtay Mirqasımov - "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru
İsmayıl Vəliyev - "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru
Bəkir Nəbiyev- Azərbaycan Elmlər Akademiyasının Ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi
Anar Rzayev - Azərbaycan Yazıçılar Birliyinin sədri
Bəxtiyar Vahabzadə - xalq şairi
Balaş Azəroğlu - xalq şairi
Fikrət Qoca - xalq şairi
Qabil İmamverdiyev - xalq şairi
Vaqif Səmədoğlu - xalq şairi
Gülrux Əlibəyova - tədqiqatçı-alim
Rəfael Hüseynov - tədqiqatçı-alim

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 29 aprel 2000-ci il
№ 403

## Süleyman Rəhimovun 100 illik yubileyinin keçirilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASIPREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci ildə müasir Azərbaycan ədəbiyyatınn görkəmli nümayəndələrindən biri - xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rəhimovun anadan olmasının 100 illiyi tamam olur. Azərbaycan nəsrinin, xüsusilə roman janrının

inkişafında böyük xidmətləri olan Süleyman Rəhimov özündən sonra zəngin ədəbi irs qoyub getmişdir.

XX əsr Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamış Süleyman Rəhimovun 100 illik yubileyinin respublikada layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Süleyman Rəhimovun 100 illik yubileyi tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitesi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Elçin Əfəndiyev - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsinin üzvləri:**

Rəfael Allahverdiyev - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Fərəməz Maqsudov - Azərbaycan Elmlər Akademiyasının prezidenti

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri

Misir Mərdanov - Azərbaycan Respublikasının təhsil naziri

Nizami Xudiyev - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirketinin sədri

Oqtay Mirqasımov - "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru

Anar Rzayev - Azərbaycan Yazıçılar Birliyinin sədri

Bəxtiyar Vahabzadə - xalq şairi

Nəbi Xəzri - xalq şairi

İsa Hüseynov - xalq yazıçısı

Hüseyn Abbaszadə - xalq yazıçısı
Arif Rəhimov - yazıçı

2. Azərbaycan Respublikasıınn Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 11 mart 2000-ci il

# 2001

## N. Ə. Həsənzadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə "Şöhrət" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 3 dekabr 2001-ci il
№ 600

## Y. M. Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
FƏRMANI

Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Yaqub Məmməd oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 3 dekabr 2001-ci il
№ 601

## Ə. C. Qasımovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
FƏRMANI

Azərbaycanda iqtisad elminin inkişaf etdirilməsindəki xidmətlərinə görə Əbülfəz Cəbrayıl oğlu Qasımov "Şöhrət" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 19 dekabr 2001-ci il
№ 602

## Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Xarici Turizm Şurası ləğv edilsin.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinə çevrilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir aymüddətində:

Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin Əsasnaməsinin layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi aparatının işçilərinin say həddini təsdiq etsin;

bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 18 aprel 2001-ci il
№ 464

**Əbülfəz Mürsəl oğlu Qarayevin Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri təyin edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsini rəhbər tutaraq qərara alıram:

Əbülfəz Mürsəl oğlu Qarayev Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri təyin edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 18 aprel 2001-ci il
№ 465

**Əbülfəz Mürsəl oğlu Qarayevin Azərbaycan Respublikasının gənclər və idman naziri vəzifəsindən azad edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasıınn 109-cu maddesini rəhbər tutaraq qərara alıram:

Əbülfəz Mürsəl oğlu Qarayev Azərbaycan Respublikasının gənclər və idman naziri vəzifəsindən azad edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 18 aprel 2001-ci il
№ 466

№ 4 30 aprel.- 2001.

**Mirzə Əjdər oğlu İbrahimovun 90 illik yubileyi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

İctimai xadim, Azərbaycan ədəbiyyatı və elminin görkəmli nümayəndəsi, xalq yazıçısı Mirzə Əjdər oğlu İbrahimovun 90 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Təhsil Nazirliyinə və Milli Elmlər Akademiyasına tapşırılsın ki, Yazıçılar Birliyi ilə birlikdə Mirzə İbrahimovun 90 illik yubileyi ilə bağlı lazımi tədbirləri hazırlayıb həyata keçirsin.

Azərbaycan Respublikasının
Prezidenti HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 27 oktyabr 2001-ci il
№ 822

**R.H.Mustafayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
FƏRMANI

Azərbaycan musiqi sənətinin inkişafindakı xidmətlərinə görə Ramiz Hacı oğlu Mustafayev "Şöhrət" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 15 oktyabr 2001-ci il
№ 588

## Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Qədim və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfı olan yazı vasitəsi ilə Qobustan və Gəmiqaya təsvirləri, həmçinin epiqrafık abidələr şəklində daşların yaddaşına həkk olunaraq günümüzədək yaşamışdır. Tarixi faktlar sübut edir ki, bu qiymətli əsərləri yaradarkən Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə etmişdir.

İslamın qəbuluna qədər olan dövrün yazıları ilə yaradılan bu qiymətli xəzinənin böyük bir qismi məhv edilmiş, zaman keçdikcə həmin abidələrin qələmə alındığı yazı şəkilləri unudulmuş və ya ərəb qrafıkasına keçirilmişdir. İslamın yayıldığı dövrlərdən isə xalqımız ərəb əlifbasından istifadə yolu ilə min ildən artıq bir zaman ərzində tariximizin ən yeni mərhələsinədək zəngin mədəni irs yaratmışdır. Ərəb əlifbası yüzillər boyu geniş məkanda Müsəlman Şərqi xalqlarının ümumi yazı sistemi kimi formalaşmışdır. Böyük Azərbaycan ədibləri, alimləri, mütəfəkkirləri, İslam mədəniyyətinin təşəkkül tapıb inkişaf etməsində mühüm rol oynayaraq bəşər sivilizasiyasını zənginləşdirmişlər. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafıkasının dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməməsi, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmaması XIX əsrin ikinci yarısından etibarən Mirzə Fətəli Axundov başda olmaqla dövrün mütərəqqi maarifçi ziyalılarını əlifba islahatı problemi üzərində düşünməyə vadar etmişdir. Bu, Azərbaycan xalqının həmin dövrdə yaşadığı tarixi şəraitdən doğan zərurət idi. Öz qaynağını Avropadan alan yeni dövrün maarifçilik hərəkatı Azərbaycan mədəniyyətinin inkişaf istiqamətini

müəyyənləşdirmiş və bu da yeni mədəniyyət tipinə uyğun müasir əlifbaya olan ehtiyacı aktuallaşdırmışdı. XX əsrin əvvəllərində cərəyan edən ictimai-siyasi və mədəni proseslərin gedişatı möycud əlifbanı daha münasibi ilə əvəz etmək ideyasını meydana atmışdı.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni Əlifba Komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtibinin tapşırılması yeni qrafıkaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji qurultayın tövsiyələrinə
cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafıkalı əlifba tətbiq edildi.

Qısa bir müddət ərzində latın qrafıkasının işlədilməsi Azşrbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq, həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu. Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Lakin kiril qrafikasının dilimizin səs quruluşuna uyğun gəlməməsi Azərbaycan ziyalılarını bu əlifbanın təkmilləşdirilməsi yolunda mütəmadi iş aparmağa sövq etdi. Təcrübə göstərdi ki, kiril qrafikasının dilimizin səs quruluşuna uyğunlaşdırılması yolunda nə qədər cəhd göstərilsə də, optimal variantın əldə edilməsi mümkün deyildir, bu da onun nə vaxtsa dəyişdiriləcəyi ehtimalını gücləndirirdi.

Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanunun qəbul olunması ilə nəticələndi.

On ilə yaxın bir müddətdə latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqust ayında

bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq qərara alıram:

Hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilsin.

Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 9 avqust 2001-ci il
№ 552

**V.Y. Nərimanbəyovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan təsviri sənətinin inkişafındakı xidmətlərinə görə Vidadi Yaqub oğlu Nərimanbəyov "Şöhrət" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 10 avqust 2001-ci il
№ 553

**A. A. Xələfova "Əməkdar elm xadimi" fəxri adının verilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda kitabxanaşünaslıq elminin inkişaf etdirilməsindəki xidmətlərinə görə Abuzər Alı oğlu Xələfova "Əməkdar elm xadimi" fəxri adı verilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 24 dekabr 2001-ci il
№ 610

**Şuşinskinin 100 illik yubiieyinin keçirilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

2001-ci ildə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, məşhur xanəndə, xalq artisti İsfəndiyar Aslan oğlu Cavanşirovun (Xan Şuşinskinin) anadan olmasının 100 ili tamam olur.

Azərbaycan klassik xanəndəlik ənənələrinin layiqli davamçılarından biri olan Xan Şuşinski müstəsna fitri istedadı, geniş diapazonlu gur və məlahətli səsi, yüksək ifaçılıq mədəniyyəti sayəsində Azərbaycan muğam sənətini zənginləşdirmiş, bir neçə muğama yeni xallar, guşə və şöbələr əlavə etmişdir. Onun ifasmda səslənmiş muğam və xalq mahnıları əsl sənət inciləri kimi milli musiqi mədəniyyəti xəzinəmizə həmişəlik daxil olmuşdur. Öz 60 illik yaradıcılığı ilə Azərbaycan xanəndəlik sənəti tarixində özünəməxsus məktəb yaratmış Xan Şuşinski ölkəmizdə istedadlı ifaçılar nəslinin yetişdirilməsinə də böyük əmək sərf etmişdir.

XX əsrdə Azərbaycan milli musiqi sənətinin inkişafında mühüm rol oynamış Xan Şuşinskinin 100 illik yubileyinin ölkəmizdə layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Təhsil Nazirliyinə və Azərbaycan Milli Elmlər Akademiyasına tapşırılsın ki, Xan Şuşinskinin anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley tədbirləri hazırlayıb həyata keçirsinlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 20 iyul 2001-ci il

# 2002

## Azərbaycan Respublikası Prezidentinin "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarınm təsis edilməsi haqqında" 2002-ci il 28 may tarixli, 707 nömrəli Fərmanına dəyişiklik edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
FƏRMANI

Azərbaycan Respublikası Prezidentinin "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" 2002-ci il 28 may tarixli, 707 nömrəli Fərmanının birinci bəndindəki "Hər biri ayda iki milyon manat olmaqla on beş mükafat" sözləri "Hər biri ayda iki milyon manat olmaqla on doqquz mükafat" sözləri ilə əvəz edilsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 iyul 2002-ci il
№ 736

## İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının incəsənət xadimlərinə dövlət qayğısının artırılması, Azərbaycanda səhnə sənətinin inkişafı üçün daha əlverişli şərait yaradılması məqsədi ilə qərara alıram:

1. Səhnə fəaliyyəti ilə bağlı aparıcı incəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatları təsis edilsin:

Azərbaycan Respublikası Prezidentinin I dərəcəli mükafatı - hər biri ayda iki milyon manat olmaqla on beş mükafat;

Azərbaycan Respublikası Prezidentinin II dərəcəli mükafatı - hər biri ayda bir milyon beş yüz min manat olmaqla iyirmi beş mükafat;

Azərbaycan Respublikası Prezidentinin III dərəcəli mükafatı - hər biri ayda bir milyon manat olmaqla otuz mükafat.

Azərbaycan Respublikası Prezidentinin mükafatını alanlar hər ilin birinci rübündə Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.

2. Azərbaycan Respubhkasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 may 2002-ci il
№ 707

## Müslüm Maqomayevin 60 illik yubileyi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

2002-ci ilin avqust ayında Azərbaycan ifaçılıq sənətinin görkəmli nümayəndəsi, zəmanəmizin tanınmış müğənnisi, xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayevin anadan olmasının 60 illiyi tamam olur.

"Musiqi ifaçılığı sənətinin ınkişafında böyük xidmətləri olan Müslüm Maqomayevin 60 illik yubileyinin ölkəmizdə layiqincə kecirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi Müslüm Maqomayevin 60 illik yubileyi ilə bağlı tədbirlər hazırlayıb həyata keçirsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsətələri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyul 2002-ci il
№ 992

Rauf Hacıyevin 80 illik yubileyi haqqında

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**
**SƏRƏNCAMI**

2002-ci ilin may ayında Azərbaycanın görkəmli mədəniyyət xadimi, bəstəkar, SSRİ xalq artisti Rauf Soltan oğlu Hacıyevin anadan olmasının 80 illiyi tamam olur.

XX əsr Azərbaycan musiqi mədəniyyətinin inkişafında Rauf Hacıyevin böyük xidmətləri olmuşdur. Müxtəlif janrlı əsərlərin müəllifi kimi onun çoxşaxəli yaradıcılığı Azərbaycan bəstəkarlıq məktəbi tarixinin ən parlaq səhifələrindən birini təşkil

edir.Bəstəkarın yaradıcılığının mühüm bir hissəsini təşkil edən operettaları Azərbaycanda və xarici ölkələrdə uğurla tamaşaya qoyulmus, geniş şöhrət qazanmışdır. Rauf Hacıyevin vokal yaradıcılığı, xüsusilə lirik, vətənpərvər ruhlu mahnıları Azərbaycanda mahnı janrının inkişafına dəyərli töhfə vermişdir. Onun simfoniyaları , oratoriya və kantataları,teatr tamaşalarına və kinofilmlərə bəstələdiyi əsərləri Azərbaycan musiqi sənətinin xəzinəsinə həmişəlik daxil olmuşdur.

Rauf Hacıyev bəstəkar olmaqla yanaşı Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi, SSRİ Bəstəkarlar İttifaqının katibi, Azərbaycan Dövlət Filarmoniyasının direktoru,mədəniyyət naziri kimi də respublikamızın mədəni həyatında tədqirəlayiq rol oynamışdır.

Azərbaycan musiqi sənətininin inkişafında böyük xidmətləri olän Rauf Hacıyevin 80 illik yubileyinin ölkəmizdə layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Təhsil Nazirliyi Azərbaycan Bəstəkarlar İttifaqı ilə birlikdə Rauf Hacıyevin 80 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.

*2.* Bakı Şəhər İcra Hakimiyyəti Rauf Hacıyevin yaşadığı binaya (Səməd Vurğun küçəsi, 85) xatirə lövhəsinin vurulmasını təmin etsin.

3.Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Bakı şəhərindəki orta musiqi məktəblərindən birinə Rauf Häcıyevin adını versin.

4. Azərbaycan Respublikasının Nazirtər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2002-ci il
№903

## ŞÖVKƏT ƏLƏKBƏROVANIN 80 ILLIK YUBILEYI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2002-ci ilin oktyabr ayında Azərbaycan milli ifaçılıq sənətinin görkəmli nümayəndəsi, tanınmış müğənni və pedaqoq xalq artisti Şövkət Feyzulla qızı Ələkbərovanın anadan olmasının 80 illiyi tamam olur.

Şövkət Əlokbərova milli musiqi tariximizdə şərəfli yer tutmuş sənətkarlardan olmuşdur. Nadir məlahətli səsi, dərin musiqi duyumu, yüksək səhnə mədəniyyəti ona xalq arasında muğamların, xalq musiqisinin təkrarsız ifaçısı kimi böyük şöhrət gətirmişdir. Şövkət xanım görkəmli Azərbaycan bəstəkarları Fikrət Əmirovun, Cahangir Cahangirovun, Səid Rüstəmovun, Tofiq Quliyevin, Süleyman Ələsgərovun və başqalarının mahnılarının ilk ifaçısı olmuş, onların yüksək sənət əsərləri səviyyəsinə qalxmasına öz töhfəsini vermişdir. Onun ifasında səslənən hər bir muğam və mahnı Azərbaycan musiqi mədəniyyətinin qızıl fonduna daxil olaraq xalqın milli mədəni sərvətinə çevrilmişdir.

Milli ifaçılıq ənənələri əsasında öz məktəbini yaratmış Şövkət Ələkbərova mahnı janrının ustadı, peşəkar vokalçı olmaqla yanaşı, həm də mahir pedaqoq idi. O, gənc ifaçılar nəslinin yetişdirilməsi işinə bütün səy və bacarığını sərf etmişdir. Azərbaycanın bir çox tanınmış müğənniləri məhz Şövkət məktəbinin yetirmələridir, onun zəngin təcrübəsindən bəhrələnmişlər.

Şövkət xanım Azərbaycan musıqisinin yorulmaz təbliğatçısı ıdi. O, xarici ölkələrə çoxsaylı qastrollarında Azərbaycan musiqi mədəniyyətini yüksək səviyyədə təmsil etmişdir.

Milli ifaçılıq sənətinin inkişafında böyük xidmətləri olmuş Şövkət Ələkbərovanın 80 illik yubileyinin ölkəmizdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi Şövkət Ələkbərovanın 80 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Şövkət Ələkbərovanın ifasında musiqi əsərlərindən ibarət kompakt-diskin buraxılmasını və müğənni haqqında kitabın nəşr olunmasını təmin etsin.

Azərbaycan Respublikasınm Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 oktyabr 2002-ci il
№ 1063

## Hüseyn Cavidin 120 illik yubileyi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2002-ci ilin oktyabr ayında Azərbaycan ədəbiyyatının görkəmli numayəndəsi böyük şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 120 illiyi tamam olur.

Hüseyn Cavid klassik milli ədəbiyyatın ənənələri ilə yeni dövrün bədii və fəlsəfi axtarışları arasında vəhdət yaradaraq, XX əsr Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynamış qüdrətli sənətkarlardandır. Dünya romantizm poeziyası ilə qırılmaz tellərlə bağlı olan Hüseyn Cavid yaradıcılığı öz bədii-estetik qaynağını Azərbaycan mədəniyyətinin dərin tarixi qatlarından alır.

Azərbaycan poeziyasnda yeni zirvə fəth edən filosof-şair Hüseyn Cavid romantik bədii düşüncənin, fəlsəfi lirikanın orijinal nümunələrini yaratmışdır. Onun həyatın mənası ilə bağlı axtarışlarının ifadəsi olan yaradıcılığı bədii növ, janr və forma cəhətdən də çox rəngarəng və zəngindir.Yüksək bədii sənətkarlığı,

dərin emosionallığı ilə seçilən Hüseyn Cavid poeziyası milli ədəbiyyat ta-rixində yeni bir dövrün başlanğıcını qoymuşdur.

Zamanın ümumbəşəri problemlərinin qaldırıldığı dram əsərləri ilə Hüseyn Cavid romantizmin görkəmli nümayəndələrindən biri kimi Azərbaycan dramaturgiyası tarixində yeni bir mərhələ yaratmışdır. Azərbaycan ədəbiyyatında mənzum faciə və tarixi dramların ilk nümunələrini yaradan sənətkar ədəbiyya-tımızı həm mövzu baxımından, həm də parlaq xarakterlərlə zənginləşdirərək milli bədii fikir tariximizdə mühüm yer tutmuşdur. Özünün üslub, yazı tərzi və forma yeniliyi baxımından seçilən bu xarakterlər dramaturgiyası teatr mədəniyyətimizin inkişafına güclü təsir göstərmiş, milli teatr tarixində "Cavid teatrı" kimi səciyyələndirilmişdir.

Poeziyada və dramaturgiyada bənzərsiz sənət nümunələri olan əsərlər yaradan Hüseyn Cavid bir şəxsiyyət, mütəfəkkir və sənətkar kimi ibrətli həyat və yaradıcılıq yolu keçmişdir. Böyük şair Hüseyn Cavidin əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuşdur.

Azərbaycan ədəbiyyatının inkişafnda böyük xidmətləri olan Hüseyn Cavidin 120 illik yubileyinin ölkəmizdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

I. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Yazıçılar Birliyi ilə birlikdə Hüseyn Cavidin 120 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.

2.Azərbaycan Milli Elmlər Akademiyası Hüseyn Cavidin əsərlərinin külliyyatının hazırlanıb nəşr olunmasını təmin etsin.

3.Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Hüseyn Cavidin həyat və yaradıcılığına həsr olunmuş sənədli filmin və onun "İblis" əsəri əsasında bədii filmin çəkilməsini təmin etsin.

4.Azərbaycan Respublikasının Nazirlər Kabineti:

Hüseyn Cavidin ev-muzeyinin ekspozisiyasının tamamlanması üçün lazımi vəsait ayırsın;

bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 oktyabr 2002-ci ii
№ 1064

**Niyazinin 90 iliik yubileyi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2002-ci ilin avqust ayında Azərbaycanın görkəmli dirijoru və bəstəkarı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti, Dövlət mükafatları laureatı Niyazinin (Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyovun) anadan olmasının 90 illiyi tamam olur.

Bəstəkarlıq və dirijorluq fəaliyyətinə keçən əsrin 30-cu illərindən başlayan Niyazinin yaradıcılığı milli musiqi mədəniyyətimizin tarixində silinməz izlər buraxmışdır. Azərbaycan ifaçıdıq sənətinin inkişafında,milli musiqinin təbliğində onun böyük xidmtləri vardır. Milli dirijorluq məktəbinin formalaşması və inkişafı məhz Niyazinin adı ilə bağlıdtr. Azərbaycan bəstəkarlarının bir çox simfonik və musiqili səhnə əsərlərinin, kantata və oratoriyalarının ilk ifaçısı olmuş dirijorun yüksək sənətkarlığı sayəsində bu əsərlər çoxsayı dinləyicilər tərəfindən böyük rəğbət və məhəbbətlə qarşılanmışdır. Niyazinin gərgin əməyi nəticəsində yaranmış və uzun illər ərzində onun rəhbərlik etdiyi simfonik musiqi kollektivləri xarici ölkə klassiklərinin və müasir bəstəkarlarının əsərlərinin də Azərbaycanda uğurla təbliğ olunmasında mühüm rol oynamışdır.

Azərbaycan musiqisində ilk sımfonik əsərlərin müəlliflərindən biri kimi Niyazinin milli simfonizmin təşəkkülü və inkişafında böyük rolu olmuşdur. Onun opera, balet, simfonik muğam, süita, fortepiano ilə orkestr üçün konsert və mahnıları, dram tamaşalarına və kinofilmlərə bəstələdiyi musiqi məzmun dolğunluğu, güclü emosional təsiri və zəngin melodiyası ilə həmişəlik yaddaşlara həkk olunmuşdur.

Müxtəlif illərdə Azərbaycan Dövlət Sımfonik Orkestrinə, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına və Azərbaycan Dövlət Filarmoniyasına rəhbərlik etmiş Niyazinin ictimai fəaliyyəti də çox zəngin olmuşdur.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətləri olan Niyazinin 90 illik yubileyinin ölkəmizdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1.Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Bəstəkarlar İttifaqı ilə birlikdə Niyazinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.

2.Bakı Şəhər İcra Hakimiyyəti Niyazinin yaşadığı binaya (Biilbül prospekti, 21) xatirə lövhəsinin vurulmasını təmin etsin.

3.Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki:

Niyazinin seçilmiş əsərlərinin dörd cildliyinin, kompakt-diskinin buraxılmasını və bəstəkar haqqında kitabın nəşr olunmasını təmin etsin;

Bakı şəhərindəki musiqi məktəblərindən birinə Niyazinin adını versin.

4.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 avqust 2002-ci il № 1007

## Ə.V.Cəfərovun xüsusi təqaüdə layiq görülməsi haq qında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" 1996-cı il 22 iyun tarixli, 464 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

Gənc rəssam Əli Vaqif oğlu Cəfərovun adı "Qızıl kitab"a yazılsın və o, Azərbaycan Respublikası Prezidentinin təsis etdiyi xüsusi təqaüdə layiq görülsün.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 noyabr 2002-ci il N; 1081

**Təsviri sənət xadimlərinə Azərbaycan Respublikası fəxri adlarının verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan təsviri sənətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı incəsənət xadimlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

“Xalq rəssamı” fəxri adı

Ələkbərov Kamal Camal oğlu
Əiiyev Hüseynqulu Əli oğlu
Hacıyev Altay Əmir oğlu
Xəlilov Fərhad Qurban oğlu
Nəçəfov Fazil İmamverdi oğlu
Qasımov Cabbar Ağadadaş oğlu
Mehdiyev Ağa Cəfər oğlu
Müfidzadə Cəmil Miryusif oğlu
Rüstəmov Cahangir Mahmud oğlu
Salayev Fuad Məmmədəmin oğlu

"Əməkdar rəssam" fəxri adı

Abdinov Telman Manaf oğlu
Abdullayev Həmzə Yusif oğlu
Ağababayev Odtəkin İskəndər oğlu
Ağayev Vaqif Xosrov oğlu
Aslanov Elçin Muxtar oğlu
Babayev Görüş Nurəddin oğlu
Bəykişiyev Nazim Zöhrab oğlu
Dadaşov Namiq Əbdülxalıq oğlu
Əhmədov Xanlar Əhməd oğlu
Əliyev Natiq Kamal oğlu .
Əsgərov Ənvər Əsgər oğlu
Haqverdiyev Hüseyn Həsən oğlu
Haşımov Fikrət Məmməd oğlu
Həsənzadə Əkrəm Qulam oğlu
İbrahimov Faiq Rəhim oğlu
İsmayılov Arif Qəndi oğlu
İsmayılov Rəşid Məhərrəm oğlu
Qazıyev Arif Şamil oğlu
Qarayev Ənvər Vahid oğlu
Qulamov Fərman Səməd oğlu
Quliyev Cabbar Əli oğlıı
Quliyev Məmmədkərim Həbib oğlu
Qurbanov Eldar Hacıbaba oğlu
Məmmədov İsmayıl Əsed oğlu
Məmmədov Qüdrət Hacıbəy oğlu
Məmmədov Tahir Hidayət oğlu
Mirzəzadə Sirus Yədulla oğlu
Muradov Rəfail Həsən oğlu
Mustafayev Məmməd Əlihüseyn oğlu
Mustafayev Şəmil Murtuz oğlu
Nərimanbəyova Əsmər Toğrul qızı
Rəcəbov Aydın Rəcəb oğlu
Rəhmanov Nazim Şamil oğlu

Rəsulov Rəis Azər oğlu
Rüstəmov Adil Əliağa oğlu
Səmədzadə Kamal Əmirulla oğlu
Seyidov MircəliI Mirələkbər oğlu
Tahirov Tahir Rəşid oğlu
Yunusov Qəyyur Habil oğlu
Zeynalov Namiq Məmmədəli oğlu

## M. Ə. Babayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan musiqi mədəniyyətinin inkişaf etdirilməsindəki xidmətlərinə görə Mirzəağa (Mirzə) Əbdülcabbar oğlu Babayev "Şöhrət" ordeni ilə təltif edilsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 may 2002-ci il
№701

## İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının incəsənət xadimlərinə dövlət qayğısının artırılması, Azərbaycanda səhnə sənətinin inkişafı üçün daha əlverişli şərait yaradılması məqsədi ilə qərara alıram:

1. Səhnə fəaliyyəti ilə bağlı aparıcı incəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatları təsis edilsin:

Azərbaycan Respublikası - hər biri ayda iki milyon manat ol-

Prezidentinin I dərəcəli mükafatı maqla on beş mükafat;

Azərbaycan Respublikası - hər biri ayda bir milyon beş yüz min manat olmaqla
Prezidentinin II dərəcəli mükafatı iyirmi beş mükafat;

Azərbaycan Respublikası - hər biri ayda bir milyon manat ol-
Prezidentinin III dərəcəli mükafatı olmaqla otuz mükafat.

Azərbaycan Respublikası Prezidentinin mükafatını alanlar hər ilin birinci rübündə Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.

2. Azərbaycan Respubhkasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 may 2002-ci il
№ 707

## Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

## "Xalq artisti" fəxri adı

Bağırzadə Məmmədbağır Məmmədəli oğlu
Hüseynov Elxan Ağahüseyn oğlu
Əhmədov İlham Namiq-Kamal oğlu
Əliyeva Mədinə Vaqif qızı
Əyyubova Mələkxanım Yadigar qızı
İbrahimova Səfurə Ağabala qızı
Quliyev Nurəddin Əzulla oğlu
Mustafayeva Laləzər Bəşir qızı
Nemətov Azər Paşa Zəfər oğlu
Perlova İrina Aleksandrovna

## "Əməkdar artist" fəxri adı

Atakişiyeva Mətanət Ağazahir qızı
Bağırov Pərviz Sadıq Saleh oğlu
Bakıxanov Akif Məmməd oğlu
Bayramov Ağalar Xanlar oğlu
Bayramova Aygün Əliqulu qızı
Cahangirov İlqar Cümşüd oğlu
Dostəliyeva Nazpəri Əhmədəli qızı
Əhmədov Cəfər Namiq-Kamal oğlu
Əhmədova Nuriyyəxanım Əliağa qızı
Əliyev Firuz Əliabbas oğlu
Əsgər Məmmədoğlu
Hacıyev Əli Əliyusif oğlu
Heydərov Ramiz Ağahəsən oğlu
Həmidov Əjdər Qüdrət oğlu
Həsən Enami Oliya Əliabbas oğlu
Hümbətova Aygün Aydın qızı
Hüseynov Nicat Abbasəli oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Xanbabayeva Zülfiyyə Güloğlan qızı

Xanlarova Mehriban Aslan qızı
Xasıyeva Könül Kazım qızı
Xəlilova Sevil Rza qızı
Xudaverdiyev Firuz İslam oğlu
İsgəndərova Rimma Ramisovna
İsgəndərova Sənubər Sabir qızı
İskolski Lev Yakovleviç
Kazımova Aygün Ələsgər qızı
Qafarova Xanım Əbdülqafar qızı
Quliyev Elxan Əlibala oğlu
Lobaçov Yuri Nikolayeviç
Məmmədov Sabir Novruz oğlu
Məmmədov Seyidşah Qəmli oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Mirzəyev Nizami Əbülfəz oğlu
Mirzəyev Zakir Qulam oğlu
Nəbiyeva Gülər Nəbi qızı
Nurzadə Əli Qayıb oğlu
Poladov Əkrəm Nicat oğlu
Səmədov Şükür Hacıbala oğlu
Şərifova Leyli Fətulla qızı
Vəliyev Nofəl Abdulməcid oğlu

"Əməkdar incəsənət xadimi" fəxri adı

Ağayeva Kəmalə Ağa qızı
Əlikişizadə Yulana Yusufovna
Həsənbəyov Yusif Qonaq oğlu
Məmmədov Rafiq Həbib oğlu

"Əməkdar mədəniyyət işcisi" fəxri adı

Ağakərim Atakişioğlu
Boqdanov Sergey Vladimiroviç
Cabbarov Cabbar Ağadadaş oğlu

Kaşanlı Rafiq Rizvan oğlu
Məlikov Hüseyn Balababa oğlu

2002

**T. İ. Sinyavskayaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli Fərmanına uyğun olaraq qərara alıram:

Sinyavskaya Tamara İliniçnaya Azərbaycan Respublikası Prezidentinin fərdi teqaüdü verilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Serəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 sentyabr 2002-ci il
N 1038

**Y.S.Qusmana "Azərbaycan Respublikasının xalq artisti" fəxri adının verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə Yuli Solomonoviç Qusmana "Azərbaycan Respublikasının xalq artisti" fəxri adı verilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 9 mart 2002-ci il
N673

## A.S.VƏKILOVAYA "ƏMƏKDAR MƏDƏNIYYƏT IŞÇISI" FƏXRI ADININ VERILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda muzey işinin təşkili və inkişafındakı xidmətlərinə görə Aybəniz Səməd Vurğun qızı Vəkilovaya "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 9 mart 2002-ci il
№ 674

## X.Ə.VƏKILOVAYA "ƏMƏKDAR MƏDƏNIYYƏT IŞÇISI" FƏXRI ADININ VERILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda muzey işinin təşkili və inkişafındakı xidmətlərinə görə Xavər Əhməd qızı Vəkilovaya "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 9 mart 2002-ci il
N 675

## RAUF HACIYEVIN 80 ILLIK YUBILEYI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2002-ci ilin may ayında Azərbaycanın görkəmli mədəniyyət xadimi, bəstəkar, SSRİ xalq artisti Rauf Soltan oğlu Hacıyevin anadan olmasının 80 illiyi tamam olur.

XX əsr Azərbaycan musiqi mədəniyyətinin inkişafında Rauf Hacıyevin böyük xidmətləri olmuşdur. Müxtəlif janrlı əsərlərin müəllifi kimi onun çoxşaxəli yaradıcılığı Azərbaycan bəstəkarlıq məktəbi tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Bəstəkarın yaradıcılığının mühüm bir hissəsini təşkil edən operattaları Azərbaycanda və xarici ölkələrdə uğurla tamaşaya qoyulmuş, geniş şöhrət qazanmışdır. Rauf Hacıyevin vokal yaradıcılığı, xüsusilə lirik, vətənpərvər ruhlu mahnıları Azərbaycanda mahnı janrının inkişafına dəyərli töhfə vermişdir. Onun simfoniyaları, oratoriya və kantataları, teatr tamaşalarına və kino-filmlərə bəstələdiyi əsərləri Azərbaycan musiqi sənətinin xəzinəsinə həmişəlik daxil olmuşdur.

Rauf Hacıyev bəstəkar olmaqla yanaşı Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi, SSRİ Bəstəkarlar İttifaqının katibi, Azərbaycan Dövlət Filarmoniyasının direktoru, mədəniyyət naziri kimi də respublikamızın mədəni həyatında tədqirəlayiq rol oynamışdır.

Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətləri olan Rauf Hacıyevin 80 illik yubileyinin ölkəmizdə layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Təhsil Nazirliyi Azərbaycan Bəstəkarlar İttifaqı ilə birlikdə Rauf Hacıyevin 80 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.

Bakı Şəhər İcra Hakimiyyəti Rauf Hacıyevin yaşadığı binaya (Səməd Vurğun küçəsi, 85) xatirə lövhəsinin vurulmasını təmin etsin.

## R. M. OCAQOVA FƏRDI TƏQAÜD VERILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 10 noyabr tarixli, 641 saylı Fərmanına uyğun olaraq qərara alıram:

Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan Rasim Mirqasım oğlu Ocaqova fərdi təqaüd verilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2002-ci il
N904

## MSTISLAV LEOPOLDOVIÇ ROSTROPOVIÇ "İSTIQLAL" ORDENI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin möhkəmləndirilməsi və musiqi sənətinin inkişafındakı görkəmli xidmətlərinə görə Mstislav Leopoldoviç Rostropoviç "İstiqlal" ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti

HEYDƏR ƏLİYEV

Bakı şshəri, 3 mart 2002-ci il
№670

## Ə. N. NAIBOVUN (ƏKRƏM ƏYLISLININ) "İSTIQLAL" ORDENI ILƏ TƏLTIF EDILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Əkrəm Nəcəf oğlu Naibov (Əkrəm Əylisli) "İstiqlal" ordeni ilə təltif edilsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 dekabr 2002-ci il
№819

## M.M.MAQOMAYEVƏ AZƏRBAYCAN RESPUBДШKASI PREZIDENTININ FƏRDI TƏQAÜDÜNÜN VERILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbäycan Respublikası Prezidentinin 2002-ci il iyun tarixli Fərmanına uyğun olaraq qərara alıram:

1. Maqomayev Müslüm Maqometoviçə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

## FIKRƏT ƏMIROVUN 80 ILLIK YUBILEYI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2002-ci ilin noyabr ayında Azərbaycanın görkəmli musiqi xadimi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti, Dövlət mükafatları laureatı, bəstəkar Fikrət Məşədi Cəmil oğlu Əmirovun anadan olmasının 80 illiyi tamam olur.

Fikrət Əmirovun yaradıcılığı XX esr Azərbaycan musiqisinin inkişafında mühüm rol oynamışdır. Musiqi sənətinin müxtəlif janrlannda yaratdığı əsərləri ilə o, öz adını Azərbaycan musiqi mədəniyyət tarixinə həmişəlik həkk etmişdir. Fikrət Əmirovun yaradıcılığında Azərbaycan milli musiqi ənənələri ilə dünya musiqi mədəniyyətinin nailiyyətləri üzvi şəkildə birləşmişdir. Fikrət Əmirov simfonik muğam janrının yaradıcılarından biridir. Onun opera, balet, musiqili komediya, simfonik muğam, xoreoqrafik poema, instrumental konsert, mahnı, romans və sair janrlarda yazdığı əsərlər Azərbaycan musiqi mədəniyyətinin qızıl fondunu təşkil edir. Fikrət Əmirovun yüksək sənətkarlıqla bəstələdiyi əsərlər dünyanın məşhur dirijorlarının repertuarma daxil olmuş, bir çox xarici öikələrin konsert salonlarmda səslənərək Azərbaycan musiqi sənətinə böyük şöhrət gətirmişdir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafmda böyük xidmətləri olan Fikrət Əmirovun 80 illik yubileyinin ölkəmizdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Bəstəkarlar İttifaqı ilə birlikdə Fikrət Əmirovun 80 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.

2. Bakı Şəhər İcra Hakimiyyəti Fikrət Əmirovun yaşadığı binaya (Tərlan Əliyarbəyov küçəsi,) xatirə lövhəsinin vurulmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki: Fikrət Əmirovun seçilmiş əsərlərinin beş cildliyinin və bəstəkar haqqında kitabın nəşr olunmasını təmin etsin;

Fikrət Əmirovun həyat və yaradıcılığma həsr olunmuş sənədli filmin çəkili-şini təmin etsin;

Bakı şəhərindəki musiqi məktəblərindən birinə Fikrət Əmirovun adını versin.

4. Azərbaycan Respublikasımn Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 noyabr 2002-ci il

## BAKI BƏLƏDIYYƏ TEATRININ ƏMƏKDAŞLARINA FƏXRI ADLARIN VERILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Bakı Bələdiyyə Teatrının 10 illik yubileyi ilə əlaqədar Teatrın aşağıdakı əməkdaşlarına səhnə sənətindəki nailiyyətlərinə görə fəxri adlar verilsin:

**"Xalq artisti" fəxri adı**

Avşarov Muxtar Həsən oğlu
Əliyev Vaqif Məzahir oğlu
Muxtarov Yusif Mehdi oğlu

**"Əməkdar artist" fəxri adı**

Abdullayev Kazım Ənvər oğlu
Babayeva Firəngiz Manaxim qızı

Babayeva Şahzadə EynuUa qızı
Bayramov Tofıq Qulaməli oğlu
Əliyev Aydın Allahverdi oğlu
Hüseynov Arzu Sadıq oğlu
İbrahimov Rafiq Əli oğlu
Quliyeva Gülsabah Əjdər qızı
Məmmədova Təzəgül Hidayət qızı
Mürvətova Hüsniyyə Vaqif qızı
Salahov Əhməd Məmməd oğlu
Soltanov Əfqan Soltan oğlu
Şahbazova Esmiralda Məmmədəli qızı
Şükürov Azad Hatəm oğlu
Yaqubova Mahirə Mehdi qızı

**"Əməkdar incəsənət xadimi" fəxri adı**

Qurbanov Oruc İzzət oğlu
Tağıyev Zirəddin Məmmədtağı oğlu

**"Əməkdar mədəniyyət işçisi" fəxri adı**

Abidov Nazim Əzizulla oğlu
Cəfərov İlqar Mustafa oğlu
Məmmədov Yusif Nadir oğlu

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezldenti**

Bakı şəhəri, 7 noyabr 2002-ci il
№ 813

## İNCƏSƏNƏT XADIMLƏRI ÜÇÜN AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ MÜKAFATLARININ TƏSIS EDILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının incəsənət xadimlərinə dövlət qayğısının artırılması, Azərbaycanda səhnə sənətinin inkişafı üçün daha əlverişli şərait yaradılması məqsədi ilə q**ərara alıram:**

1. Səhnə fəahyyəti ilə bağlı aparıcı incəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatları təsis edilsin:

| | |
|---|---|
| Azərbaycan Respublikası Prezidentinin I dərəcəli mükafatı | - hər biri ayda iki milyon manat olmaqla on beş mükafat; |
| Azərbaycan Respublikası Prezidentinin II dərəcəli mükafatı | - hər biri ayda bir milyon beş yüz min manat olmaqla iyirmi beş mükafat; |
| Azərbaycan Respublikası Prezidentinin III dərəcəli mükafatı | - hər biri ayda bir milyon manat olmaqla otuz mükafat. |

Azərbaycan Respublikası Prezidentinin mükafatını alanlar hər ilin birinci rübündə Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən edilir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 may 2002-ci il
N2 707

# AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ FƏRDI TƏQAÜDÜNÜN TƏSIS EDILMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında son illər ərzində dövlət quruculuğu, iqtisadiyyat, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrində aparılan islahatlar öz səmərəli nəticələrini verir. Əhalinin müxtəlif qruplarının sosial vəzijryətinin yaxşılaşdırılması üçün dövlət qayğısının artırılması, əməyin qiymətləndirilməsi və təqaüdlər sisteminin təkmilləşdirilməsi sahəsində də nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 22 iyun 1996-cı il tarixli, 464 nömrəli və "Azərbaycan yazıçılarına dövlət qayğısının artırılması haqqında" 24 noyabr 1997-ciıl tarixli, 643 nömrəli fərmanları istedadlı gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi işinə öz müsbət təsirini göstərmişdir.

Azərbaycan xalqı qarşısında böyük xidmətləri olmuş şəxslərin bir qrupu üçün də fərdi təqaüdlərin təyin edilməsi bu yolda atılmış konkret addım olmuşdur. Azərbaycan Respublikası Prezidentinin "Ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" 10 noyabr 1997-ci il tarixli, 641 nömrəli Fərmanı ilə Azərbaycanın qocaman ədəbiyyat və incəsənət xadimlərinin bir qrupu üçün ömürlük fərdi təqaüd təsis edilmiş və Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1998-ci il tarixli, 677 nömrəli Fərmanı ilə həmin fərdi təqaüdlərin sayı artırılmışdır. 1997-ci ildən indiyə qədər səksən dörd nəfər qocaman ədəbiyyat və incəsənət xadimi fərdi təqaüdə layiq görülmüşdür.

Azərbaycanm ədəbiyyat və incəsənət xadimləri ilə yanaşı, ölkəmizin elm, təhsil, mədəniyyət, iqtisadiyyat, dövlət idarəçiliyində və digər sahələrdə böyük əməyi olmuş şəxslərin

xidmətlərinin qiymətləndirilməsi və onların sosial vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü təsis edilsin.

2. Hər biri bir milyon beş yüz min manat məbləğində yüz əlli fərdi təqaüd müəyyən edilsin.

3. Fərdi teqaüd Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsi hesabına verilir.

4. Azərbaycan Respublikası Prezidentinin 10 noyabr 1997-ci il tarixli, 641 nömrəli və 21 fevral 1998-ci il tarixh, 677 nömrəli fərmanları, habelə 22 dekabr 1997-ci il tarixli, 714 nömrəli, 22 fevral 1998-ci il tarixli, 752 nömrəli, 29 may, 1998-ci il tarixli, 813 nömrəli, 23 avqust 1998-ci il tarixli, 884 nömrəli, 6 dekabr 1999-cu il tarixli, 278 nömrəli, 22 yanvar 2000-ci il tarixli, 318 nömrəli, 19 aprel 2000-ci il tarixli, 396 nömrəli, 29 aprel 2000-ci il tarixli, 402 nömrəli, 18 dekabr 2000-ci il tarixli, 589 nömrəli, 1 mart 2001-ci il tarixli, 634 nömrəli, 11 avqust 2001-ci il tarixli, 787 nömrəli, 7 sentyabr 2001-ci il tarixli, 801 nömrəli, 13 noyabr 2001-ci il tarixli, 828 nömrəli, 3 dekabr 2001-ci il tarixli, 832 nömrəli, 12 dekabr 2001-ci il tarixli, 836 nömrəli, 1 may 2002-ci il tarixli, 904 nömrəli sərəncamları qüvvədən düşmüş hesab edilsin.

5. Bu Fərman 2002-ci il iyul ayının 1-dən qüvvəyə minir.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 iyun 2002-ci il
№715

## AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ "İNCƏSƏNƏT XADIMLƏRI ÜÇÜN AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ MÜKAFATLARINM TƏSIS EDILMƏSI HAQQINDA" 2002-CI IL 28 MAY TARIXLI, 707 NÖMRƏLI FƏRMANINA DƏYIŞIKLIK EDILMƏSI HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

